BƏXTIYAR TUNCAY

ALBAN (QAFQAZ) TÜRKCƏSİ SÖZLÜYÜ

I CİLD

(A-X)

BAKI 2012

BƏXTIYAR TUNCAY

ALBAN (QAFQAZ) TÜRKCƏSİ SÖZLÜYÜ

I CİLD

(A-X)

Redaktor: Elman Cəfərli

Korrektor: Züleyxa Şahverdizadə

“Tuncay Şahverdisoy” Elektron Kitab Yayın Evi

BAKI 2012

ÖN SÖZ

Sevgidəyər oxucuların nəzər-diqqətinə təqdim edilməkdə olan bu Sözlük, müəyyən bir qismi "Qafqaz albanlarının dili və ədəbiyyatı", eləcə də rus dilində qələmə aldığımız "Письменное наследие Кавказских албан" (Qafqaz albanlarının yazılı irsi) adlı kitablarımızda təqdim edilmiş çoxsaylı alban (qarqar-qıpçaq) mətnlərinin leksik tərkibini əks etdirməkdədir. Bu sırada "Qriqori Hamamanın "Alban dilinin qrammatikası" əsərinin dövrümüzədək ulaşmış bir fraqmentini və orada işlənmiş zəngin "söz baqajını" da yaddan çıxarmamaq lazımdır ki, həmin fraqmenti "Qriqori Hamama və onun alban (qarqar-qıpçaq) dilində qələmə aldığı "Alban dilinin qrammatikası" əsərindən bir fraqment" adlı məqaləmizdə tam olaraq vermişik.

Sözlüyə hazırda Avstriya, Ermənistan, İtaliya, Polşa, Rumıniya, Rusiya və Ukraynanın kitabxana və əlyazma fondlarında qorunub saxlanmaqda olan və ayrı-ayrı vaxtlarda müxtəlif tədqiqatçılar tərəfindən dərc edilmiş olan albandilli mətnlərdə rast gəlinən bütün türk mənşəli söz və ifadələr işləndikləri şəkilçilərlə birlikdə daxil edilmişdir.

"Alban türkcəsi Sözlüyü":

a) sözlərin düzgün işlənmə formalarını göstərməyi;

b) onları ayrı-ayrı əlyazmalarda katiblərin səhvi üzündən ortaya çıxan qüsurlu analoqları ilə qarşılaşdırmağı;

c) hər bir kəlmənin və ya onun mənasının işləndiyi sahənin hüdud və çərçivəsini müəyyən etməyi;

ç) sözlərin hansı anlama gəldiyini və hansı tərkiblərdə işləndiyini müxtəlif yazılı qaynaqlardan götürülmüş sitat və ya məsəllərlə göstərməyi;

d) sözlərin qrammatik izahına müəyyən yer verməyi öngörməkdədir.

Qafqaz albanlarının dilində işlənmiş, ümumişlərlik qazanaraq "özünküləşdirilmiş" alınmalar, yəni suryani, orta fars, yunan, ərəb, yeni fars və s. mənşəli bütün sözlər Sözlüyə daxil edilib. Azərbaycandan kənarda yaşamş mühacir albanların dilinə sonrakı əsrlərdə keçmiş çoxsaylı Avropa, xüsusən də slavyan mənşəli sözlərin də bir qismi Sözlükdə əksini tapıb. Bununla belə, əsas məqsəd oxucuları məhz Azərbaycanda və ümumilikdə Qafqaz ərazisində danışılmış alban türkcəsi və onun leksik bazası barədə maksimum məlumatlandırmaqdır.

Təqdim edilən Sözlük filoloji lüğət mahiyyəti daşıdığından onun vəzifəsi oxucunu bəhs edilən əşya və hadisənin özü ilə tanış etmək deyil, sadəcə sözün özünü anlamaq üçün yetərli olacaq bilgi verməkdən, yəni onun leksik mənasını izah etməkdən ibarətdir. Odur ki, bu Sözlükdən əşya və hadisələr haqqında tam və əhatəli bilgi tələb etmək doğru olmaz, çünki bu tip bilgiləri vermək lüğətlərin deyil, ensiklopediyaların funksiyasına daxildir. Bu səbəbdən də sevgidəyər oxucular Sözlükdə verilən sözlərin mənaları ilə tanış olarkən onların mümkün qədər qısa və yığcam mənalarının verildiyini nəzərə almalıdırlar. Lakin zəruri hallarda bəzi istisnalara da yol verilmişdir. Məsələn;

elçuraqal ism. (yun.) – *yunan mifologiyasına görə nəfəs alarkən ağzından od püskürən, aslan başlı, keçi bədənli və əjdaha quyruqlu mifik varlıq. Başlarından*

birinin aslan başı, ikincisinin keçi, üçüncüsünün isə əjdaha başları olan üçbaşlı bədheybət kimi də təsvir edilir. Tifon və Exidnanın qzı olduğu söylənir.

Eyni zamanda, zərurət yarandığı hallarda oxucuya geniş məlumat vermək üçün bəzi maddələrin sonunda xüsusi qeydlər edilmişdir. Məsələn;

Ermenilik // (-ninq, -kə, -ni, -tə, -tənbiz) x. ism. – *Arameya, aramilər ölkəsi: **Ulu Ermeniliktənbiz, xulları ermeni Apqar xanınınq.** Biz Böyük Arameyadanıq (aramilər ölkəsindənik), arami Abqar xanın nökərləriyik. **Eprades barıyır Ermenilikkə, Erzingan ulusuna.** Fərat çayı Arameyaya (aramilər ölkəsinə), Ərzincan ulusuna varır. **Ermenilik məmləkətinə yoxtur zaytun terəkləri havanınq sovuxluxu üçün.** Soyuq iqlim səbəbindən Arameyada zeytun ağacları yoxdur.*

Qeyd: *Dyakonovun yazdığına görə, tarixdə "erməni" adını ilk dəfə aşşurlar (assuriyalılar, assurlar) işlətmişlər. Onlar bu adla aramiləri adlandırırdılar. Aramilər ölkəsinin aşşur (assur) və qədim fars dillərindəki adı isə «Armana» idi. Bu adı farslardan əxz edən yunanlar, onu öz dillərinə uyğun olaraq «Armeniya» kimi tələffüz edirdilər (Дьяконов 1985: 336). Samidilli xalq olan aramilərin isə, məlum olduğu kimi, bu gün erməni kimi tanınan haylara heç bir aidiyyatı yoxdur. Alimin sözlərinə görə, hayların bu ölkəyə kütləvi köçündən sonra "erməni" adı eyni zamanda onlara da şamil edilməyə başlandı. Bu gün onları məhz qonşuları belə adlandırırlar, onların özləri isə çox-çox əsrlər öncə olduğu kimi, bu gün də özlərinə "hay" deyirlər (Дьяконов 1983: 168-169). Və hazırda bizim «Ermənistan Respublikası» (Avropa dillərində "Armeniya") kimi tanıdığımız ölkənin tarixi Armeniyaya heç bir dəxli yoxdur, erməni-haylar "öz əski dövlətlərini" öz dillərində "Hayastan" (haylar ölkəsi) adlandırdıqları kimi, bugünkü "Ermənistan"a da «Hayastan» deyirlər. Alban yazılı qaynaqlarında haylar ölkəsi "Ermənilik" (Armeniya, Ermənistan) kimi deyil, məhz "Hayastan" kimi yad edilməkdədir*. Bax: **Hayastan**

Yuxarda qeyd edildiyi kimi, "Alban türkcəsi Sözlüyü" indiyə qədər nəşr edilmiş bütün albandilli mətnlərin, ilk növbədə də Qriqori Hamama, Mxitar Qoş, Vardapet Vanakan (Vanağan), Kirakos (Giraqos) Gəncəli, Albaniya katalikosu Nerses, Yohannes Sarğavaq kimi tanınmış alban mütəfəkkirlərinin əsər və moizələrinin, eləcə də dövrümüzədək alban dilinə tərcümədə yetişmiş dini kitabların bütün leksikasını əks etdirməyi nəzərdə tutur. Lakin bu heç də o demək deyil ki, heç bir söz gözdən qaçmamşdır. Biz bu iddiada deyilik, çünki böyük mütəxəssislər qrupunun, institutların tərtib etdiyi ən təkmil lüğətlər belə qüsursuz deyillər və tam kamil sayıla bilməzlər. Bizim təkbaşına gerçəkləşdirməyə girişdiyimiz işdən də ideal kamillik gözləmək, əlbəttə ki, böyük səhv olar. Çünki istənilən dil elə böyük və zəngin xəzinədir ki, onu sınırlı zaman kəsimində tam qavramaq və mənimsəmək imkan xaricindədir. Hətta elə də ola bilər ki, mənasını tam qavraya bilmədiyimizdən bəzi söz və ifadələrin anlamı düzgün şərh edilməmiş olsun. Bu da oxucularımızı qane və təmin etməsin. Ümidvarıq ki, bu tip yanlışlıqları üzə çıxaracaq dostlarımız üzərimizə düşən yükün ağırlığını və imkanlarımızın məhdudluğunu göz önündə tutaraq bizi qınamayacaqlar.

SÖZLÜKDƏN İSTİFADƏ QAYDALARI

Sözlükdə yer alan kəlmələr aşağıdakı qruplara aiddir:

1) Klissik alban (qarqar-qıpçaq) dilinin ayrılmaz hissəsini təşkil edən xüsusi və terminoloji sözlər;
2) Tarixi və əfsanəvi (mifik) şəxs adları;
3) Müxtəlif millət, xalq, tayfa və ümmətlərin adları;
4) Dini ayinlərlə bağlı doğma və alınma terminlər;
5) Səs təqlidi yolu ilə düzəldilmiş sözlər;
6) Miqdar və sıra sayları;
7) Substanivləşən (isimləşən) və ya sifət kimi işlənən feli sifətlər;
8) Mürəkkəb sözlər və onların sözdüzəltmə baxımından məhsuldar olan tərkib hissələri;

Sözlərin Azərbaycan əlifbası sırasına uyğunlaşdırılmış ardıcıllıqla təqdim edildiyi Sözlükdə alban dilinə xas olan, fəqət Azərbaycan əlifbasında olmayan sonor "n" (səğir nun) səsini ifadə etmək üçün "nq" hərfbirləşməəsindən, ərəb əlifbasındakı "dal" hərfinin ifadə etdiyi səslə üst-üstə düşən "d+z" qarışıq səsini ifadə etmək üçün "dz" işarəsindən, eləcə də bəzi Avropa mənşəli alınma sözlərdə rastlanan, dilimizdə analoqu olmayan, rus əlifbasındakı "ц" və alman əlifbasındakı "z" hərflərinin ifadə etdiyi "t+s" qarışıq səsini bildirmək üçün isə "ts" qoşa samitindən istifadə edilməkdədir. Azərbaycan türkcəsində işlənməkdə olan və eyni fönetik işarə (k) ilə ifadə edilən "k" (karandaş) və "**k**" (kitab) səslərini, Azərbaycan oxucusunun onları bir-birindən fərqləndirməyə alışdığını və hər hansı bir mətn və ifadəni oxuyarkən bu baxımdan heç bir çətinliklə üzləşmədiyini göz önündə tutaraq, eynən Azərbaycan əlifbasında olduğu kimi bir işarə ilə verməyi lazım bilmişik. Belə etməyimizin bir səbəbi də "k" (karandaş) səsi ilə başlayan sözlərin, istisnasız olaraq hamısının, mühacir albanların dilində işlənmiş Avropa mənşəli sözlər təşkil etməsidir. Bu səs albanların bir qismi Azərbaycanı tərk edərək indiki Ukrayna ərazisinə mühacirət edənədək alban dilinə yad olmuşdur. Əgər belə demək mümkünsə, alban dilinin Azərbaycan dialektində müşahidə edilməmiş, yalnız və yalnız Ukrayna dialektində müşahidə edilmişdir.

Sözlükdə sözlər aşağıdakı hərflərə uyğun qaydada düzülmüşdür:

A, B, C, Ç, Ts, D, Dz, E, Ə, F, G, Ğ, H, X, İ, I, J, K, Q, L, M, N, Nq, O, Ö, P, R, S, Ş, T, U, Ü, V, Y, Z.

Lüğət maddələrinin başlığı isimlər, sifətlər, saylar, əvəzliklər, fellər, zərflər, bağlayıcılar, nidalar, ədatlar, ara sözləri, qoşmalar" və səs təqlidi sözlərdən oluşmaqdadır. Bu səbəbdən də ayrı-ayrı nitq hissələrinə aid olan omonimləri bir-birindən fərqləndirmək üçün) baş sözlərdən sonra onların hansı nitq hissəsinə aid olduğu diqqətə çatdırılır və bu məqsədlə aşağıdakı qısaltmalardan (qısaldılmış işarələrdən) istifadə edilir:

ism. - isim,
x. ism. – xüsusi isim,
sif. - sifət,
say. - say,
sıra s. – sıra sayı,
əvz. - əvəzlik,
fel. - fel,

zrf. - zərf,
bğl. - bağlayıcı,
nid. - nida,
ədat. -ədat,
a. s. -ara söz,
s. t. -səs təqlidi sözlər,
qoş. – qoşma.
f. ism. – feli isim,
f. sif. – feli sifət,
Məsələn;
axıl ism. - ağıl,
altımış say. - altmış,
biç ~ fel. – biçmək və s.
Sözlükdə işlədilmiş digər qısaltmalar bunlardır:
aram. – aramicə,
azərb. – Azərbaycan türkcəsi,
erm. – ermənicə,
ər. - ərəbcə,
frs. – farsca,
qoş. - qoşma
lat. – latınca,
ort. frs. – orta farsca,
slv – slavyan dillərində,
vulq. – vulqar söz,
yəh. – yəhudicə,
yun. –yunanca.
Sözlüyə daxil edilmiş alınma sözlər aşağıdakı qaydada təqdim edilir:
a) Alınma sözlərin qarşısında mötərizədə həmin sözün hansı dildən alındığı qeyd edilir:
tsex (-ninq, -qa, -ta, -ı, -ına, -ımızğa) // **tseax** (-mıznınq, -mızğa, -mızda) // **цiax** (-nınq, -ğa, -da, -mıznnq, -mizgə, -mıznı, -mızda) ism. (slv) – sex.
daləb ism. (< azərb.< ər.) – tələb
b) Tərkibi əcnəbi dillərə aid olan mürəkkəb sözlər aşağdakı qaydada verilir:
adam-hayvan ism. **(**adam ər. + hayvan ər) – "canlılar", "canlı varlıqlar" anlamında işlədilən ifadə (adamlar və heyvanlar);
c) Kök sözlər və onların qəbul etdikləri şəkilçilər eyni maddədə verilir. Bu zaman şəkilçilər mötərizədə göstərilir. Məsələn:
ağırlan ~ (-ma, -masn, -malıx, -manqız, -dm, -dı, -dıx, -dılar, -madı, -ipmen, -masbiz, -iyirmen, -yırlar, -qaymen, -qay, -qaysız, -maqay, -maqaysız, -maqay edi, -sa, -qan, -qanqa, -qanma)
ç) Əcnəbi sözün mənşəyi məlum olmadıqda və ya mübahisəli olduqda sual işarəsindən (?) istifadə edilir;
d) Sözlərin sinonimlərini bildirmək və onların varlığına işarə etmək üçün "Bax:" və ya "Müq. et:" işarəsindən istifadə edilir və ardınca həmin sinonim və ya sinonimlər yazılır. Məsələn;

xırmızı // ğırmızı sif. – qırmızı Müq et: **al** II

e) Ayrı-ayrı mətnlərdə cüzi fonetik fərqlərlə yazılmış sözlərin doğru olanlarını göstərmək üçün səhv olanların maddəsində də "Bax:" işarəsindən istifadə edilir. Məsələn;

xrmızı Bax: **xırmızı**;

ə) Sinonim sözlərin izahı hər sözün yer aldığı maddədə ayrı-ayrılıqda verilir;

f) Omonim sözləri, yəni eyni cür yazılan, fəqət fərqli mənalar verən sözləri bir-birindən ayırmaq üçün onların sağ tərəfində rum rəqəmləri yazılır. Məsələn;

hava I (-nınq, -ğa, -nı, -da, -dan, -sı, -lar) ism. (< azərb. < ər.) – hava, iqlim:

-Xaysılardırlar egriyürügənlər ekiayaxlılar?

-Uçanlardırlar ki, dırlar inçkətirnaxlılar da itidırnaxlılar tırmavuçıayaxlılar da sıxyumlular da havada yürügənlər; da dır padşah alarınınq xaraxuş; da ayrılırlar toğruburunlarğa da toğrutırnaxlılarğa da egriburunlarğa da egritırnaxlılarğa.

-Əyri gəzən ikiayaqlılar hansılardırlar?

-Bunlar uçanlardır ki, incədırnaqlı və itidırnaqlılara bölünürlər, çəngəlayaqlı və sıx tüklüdürlər və havada süzürlər. Onların şahı qaraquşdur. Onlar düzdimdikli və düzdırnaqllara, eləcə də əyridimdiklilərə və əyridırnaqlılara bölünürlər.

hava II Bax: **havəs**

g) Sözlərin izahından sonra onun işləndiyi hər hansı bir mətndən bir və ya bir neçə nümunə və onların Azərbaycan türkcəsinə tərcüməsi təqdim edilir. Nümunələr nisbətən kiçik, fəqət qalın şriftlə, onların tərcümələri isə kiçik və normal şriftlə göstərilir. Məsələn;

kahana ism. (yəh. koxen, ər. kahin) – kahin, xaxam, yəhudi din adamı: ***Ayttı Biy Biyimə menim: Oltur sağıma menim, çax xoyıyım duşmanqlarınqnı seninq basxıc ayaxlarınqa seninq... Ant iç Biy da dügül dağı poşman bolsar ki, sensen kahana menqilik yergəsindən Melkisetegninq.*** *Rəbb bəyimə dedi: Sağ tərəfimdə otur, düşmənlərini sənin ayaqların altına salacağam... And içdi Rəbb və Melkisedekin əbədi kahin olmasına görə peşiman olmadı.*

BİBLİYAYA DAXİL OLAN KİTABLARA AİD QISALTNALAR

(ƏHDİ-ƏTİQƏ DAXİL OLAN KİTABLAR)

Yar. (1-50) Yaradılış kitabı.

Yaradılış. Bibliya. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 28-84.

Çıx. (1- 40) – Çıxış.

Çıxış. Bibliya. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 85 - 131.

Lev. (1 – 27) – Levilər kitabı.

Levilər. Bibliya. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 132 - 163.

Say. (1 – 36) – Saylar.

Saylar. Bibliya. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 164 - 210.

Qan. (1 - 34) – Qanunun təkrarı kitabı.

Qanunun təkrarı kitabı. Bibliya. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 211 - 255.

Yeş. (1 - 24) – Yeşua peyğəmbərin kitabı.

Yeşua peyğəmbərin kitabı. Bibliya. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 256 - 283.

Hak. (1 - 21) – Hakimlər kitabı.

Hakimlər kitabı. Bibliya. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 284 - 309.

Rut. (1 – 4) – Rut kitabı.

Rut kitabı. Bibliya. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 310 - 313.

Sam. l. (1 – 31) – Birinci Samuel kitabı.

Birinci Samuel kitabı. Bibliya. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 314 - 347.

Sam. ll. (1 – 24) – İkinci Samuel kitabı.

İkinci Samuel kitabı. Bibliya. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 348 - 377.

Pad. l. (1 - 22) – Birinci padşahlar kitabı.

Birinci padşahlar kitabı. Bibliya. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 378 - 411.

Pad. ll. (1 - 25) – İkinci padşahlar kitabı.

İkinci padşahlar kitabı. Bibliya. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 342 - 445.

Sal. l. (1 - 29) – Birinci salnamələr kitabı.

Birinci salnamələr kitabı. Bibliya. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 346 - 477.

Sal. ll. (1 - 36) – İkinci salnamələr kitabı.

İkinci salnamələr kitabı. Bibliya. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 378 - 514.

Ezr. (1 – 10) – Ezra kitabı.

Ezra kitabı. Bibliya. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 515 - 526.

Neh. (1 - 13) – Nehemiya kitabı.

Nehemiya kitabı. Bibliya. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 527 - 542.

Est. (1 - 10) – Ester kitabı.

Ester kitabı. Bibliya. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 543 - 551.

Əyy. (1 - 42) – Həzrət Əyyubun (ə) kitabı.

Əyyub kitabı. Bibliya. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 551 - 607.

Məz (1 – 150) – Həzrət Davuda (ə) endirilən və dörd səmavi kitabdan biri hesab edilən "Zəbur"a daxil olan məzmurlardan hər hansı biri. Zəbur. Bibliya. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 607-766.

Məs. (1 - 31) – Həzrət Süleymanın (ə) məsəlləri.

Süleymanın məsəlləri. Bibliya. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 766-824.

Vaiz. (1 - 12) – Vaiz kitabı.

Vaiz kitabı. Bibliya. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 824 - 839.

Nəğ. (1 - 8) – Nəğmələr nəğməsi kitabı.

Nəğmələr nəğməsi kitabı. Bibliya. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 840 - 849.

Yeş. (1 - 66) – Yeşaya peyğəmbərin kitabı.

Yeşaya peyğəmbərin kitabı. Bibliya. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 850 - 962.

Yer. (1 - 52) – Yeremiya peyğəmbərin kitabı.

Yeremiya peyğəmbərin kitabı. Bibliya. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 962 - 1072.

Mər. (1 - 5) – Mərsiyələr kitabı.

Mərsiyələr kitabı. Bibliya. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 1059 - 1071.

Yez. (1 - 48) – Yezekil peyğəmbərin kitabı.

Yezekil peyğəmbərin kitabı. Bibliya. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 1072 - 1134.

Dan. (1 - 12) - Həzrət Daniyal (ə) peyğəmbərin kitabı.

Daniyal peyğəmbərin kitabı. Bibliya. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 1134 – 1150.

Huş. (1 - 14) - Huşə peyğəmbərin kitabı.

Huşə peyğəmbərin kitabı. Bibliya. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 1150 - 1170.

Yoe. (1 - 3) - Yoel peyğəmbərin kitabı.

Yoel peyğəmbərin kitabı. Bibliya. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 1170 - 1178.

Amo. (1 - 9). - Amos Peyğəmbərin kitabı.

Amos Peyğəmbərin kitabı. Bibliya. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 1178 - 1189.

Avd. (1) – Avdiya peyğəmbərin kitab.

Avdiya peyğəmbərin kitabı. Bibliya. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 1189 - 1193.

Mik. (1 - 7) - Mikeya peyğəmbərin kitabı.

Mikeya peyğəmbərin kitabı. Bibliya. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 1193 - 1205.

Nah. (1 - 3) - Nahum peyğəmbərin kitabı.

Nahum peyğəmbərin kitabı. Bibliya. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 1205 - 1210.

Hab. (1 - 3) – Habaquq peyğəmbərin kitabı.

Habaquq peyğəmbərin kitabı. Bibliya. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 1210 - 1218.

Haq. (1 - 2) – Haqqay peyğəmbərin kitabı.

Haqqay peyğəmbərin kitabı. Bibliya. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 1218 - 1227.

Zək. (1 - 14) – Həzrət Zəkəriyyə (ə) Peyğəmbərin kitabı.

Zəkəriyyə Peyğəmbərin kitabı. Bibliya. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 1227 - 1234.

Mal. (1 - 4) – Malaki Peyğəmbərin kitabı.

Malaki Peyğəmbərin kitabı. Bibliya. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 1234 - 1242.

(ƏHDİ-CƏDİDƏ DAXİL OLAN KİTABLAR)

Mat. (1 - 28) - Matta "İncil"i.

Mattanın nəql etdiyi Müjdə. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 1242 - 1293.

Mark. (1 - 16) – Mark "İncil"i.

Markın nəql etdiyi Müjdə. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 1293 - 1323.

Luk. (1 - 24) – Luka "İncil"i.

Lukanın nəql etdiyi Müjdə. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 1323 - 1372.

Yəh. (1 - 21) – Yəhya "İncil"i.

Yəhyanın nəql etdiyi Müjdə. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 1372 - 1203.

Həv. (1 - 28) – Həvvarilərin işləri.

Həvvarilərin işləri. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 1203 -1444.

Rom. (1 - 16) – Müqəddəs həvvari Pavelin Romalılara məktubu.

Paulun Romalılara məktubu. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 1444 - 1464.

1 Kor. (1 - 16) – Müqəddəs həvvari Pavelin Korinflilərə l məktubu.

Paulun Korinflilərə birinci məktubu. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 1464 - 1482.

1l Kor. (1 – 13) – Müqəddəs həvvari Pavelin Korinflilərə ll məktubu.

Paulun Korinflilərə ikinci məktubu. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 1482 - 1493.

Qal. (1 - 6) - Müqəddəs həvvari Pavelin Qalatiyalılara məktubu.

Paulun Qalatiyalılara məktubu. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 1493 - 1500.

Efes. (1 - 6) – Müqəddəs həvvari Pavelin Efeslilərə məktubu.

Paulun Efeslilərə məktubu. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 1500 - 1506.

Filip. (1 - 4) – Müqəddəs həvvari Pavelin Filipililərə məktubu.

Paulun Filipililərə məktubu. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 1506 - 1511.

Kol. (1 - 4) – Müqəddəs həvvari Pavelin Koloselilərə məktubu.

Paulun Koloselilərə məktubu. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 1511 - 1516.

l Sal. (1 - 5) – Müqəddəs həvvari Pavelin Selaniklilərə l məktubu.

Paulun Saloniklilərə birinci məktubu. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 1516 - 1520.

ll Sal. (1 - 3) – Müqəddəs həvvari Pavelin Selaniklilərə ll məktubu.

Paulun Saloniklilərə ikinci məktubu. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 1520 - 1522.

l Tim. (1 - 6) – Müqəddəs həvvari Pavelin Timoteyə l məktubu.

Paulun Timoteyə birinci məktubu. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 1522 - 1527.

ll Tim. (1 - 4) – Müqəddəs həvvari Pavelin Timoteyə ll məktubu.

Paulun Timoteyə ikinci məktubu. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 1527 - 1531.

Tit. (1 - 3) – Müqəddəs həvvari Pavelin Titə məktubu.

Paulun Titə məktubu. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 1531 - 1534.

Filim. (1) – Müqəddəs həvvari Pavelin Filimona məktubu.

Paulun Titə məktubu. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 1534 - 1535.

İbr. (1 - 13) – Müqəddəs həvvari Pavelin ibranilərə (yəhudilərə) məktubu.

Paulun ibranilərə məktubu. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 1535 1551.

Yaq. (1 - 5) – Yaqubun məktubu.

Yaqubun məktubu. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 1551 - 1556.

l Pet. (1 - 5) – Peterin l məktubu.

Peterin birinci məktubu. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 1556 - 1562.

ll Pet. (1 - 3) – Peterin ll məktubu.

Peterin ikinci məktubu. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 1562 - 1565.

l Yəh.. (1) – Yəhyanın l məktubu.

Yəhyanın birinci məktubu. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 1565 - 1570.

ll Yəh.. (1) – Yəhyanın ll məktubu.

Yəhyanın ikinci məktubu. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 1570 - 1571.

lll Yəh.. (1) – Yəhyanın lll məktubu.

Yəhyanın üçüncü məktubu. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 1571 - 1572.

Yəhuda.. (1) – Yəhudanın məktubu.

Yəhudanın məktubu. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 1572 - 1574.

Vəhy. (1 - 22) – Vəhylər kitabı.

Yəhyaya nazil olan vəhy. Northern Azerbaijani Translation, by Bible SocietyAzerbaijan, s. 1574 - 1599.

QAYNAQÇA

Azərbaycan dilinin izahlı lüğəti. 4 cilddə, l c. Bakı, Şərq-Qərb, 2006.

Azərbaycan dilinin izahlı lüğəti. 4 cilddə, ll c. Bakı, Şərq-Qərb, 2006.

Azərbaycan dilinin izahlı lüğəti. 4 cilddə, lll c. Bakı, Şərq-Qərb, 2006.

Azərbaycan dilinin izahlı lüğəti. 4 cilddə, lV c. Bakı, Şərq-Qərb, 2006.

Azərbaycan dilinin orfoqrafiya lüğəti. Bakı, "Lider nəşriyyatı", 2004.

Rusca-Azərbaycanca Lüğət. Русско-Азербайджанский Словарь. l c., A-K, Bakı, 1984.

Rusca-Azərbaycanca Lüğət. Русско-Азербайджанский Словарь. ll c., L-P, Bakı, 1986.

Rusca-Azərbaycanca Lüğət. Русско-Азербайджанский Словарь. lll c., R-Ya, Bakı, 1991.

Tuncay B. Qafqaz albanlarının dili və ədəbiyyatı. Bakı, "Qanun", 2010.

Гаркавец А. Н. Кыпчакское письменное наследие.Том I. Каталог и тексты памятников армянским письмом. Алматы. Дешт-и-Кыпчак. 2002.

Гаркавец А. Н. Кыпчакское письменное наследие.Том II. Памятники духовной культуры караимов, куманов-половцев и армяно-кыпчаков. Алматы. КАСЕАН. Баур, 2007.

Гаркавец А. Н. Кыпчакское письменное наследие.Том III. Кыпчакский словарь по армянописьменным памятникам XVl-XVll веков. Алматы. КАСЕАН. Баур, 2010.

Тунджай Б. Письменное наследие Кавказских албан. Б., 1912.

SÖZLÜK

A

a I əvz. (anınq, anqar, anı, anda, andan; alar, alarnınq, alarğa, alarnı, alarda, alardan) – o, üçüncü şəxs əvəzliyinin təki; haqqında danışlan və ya göstərilən şəxsi bildirir: **Ayax xoluna Eyəmizninq, çağir tolu, buzulmağan, zadasız tolturğan da aşaxlatır bundan bunqar. Həlbət, çöprəsi, açiliki anınq heç tügənməs da**

içkəylər anı barça yazıxlıları yerdəgi (Пс74/75: 9). Rəbbimiz əlində bir cam tutub, onu turşməzə, köpüklənən şərabla doldurub. Şərabından töküb yer üzünün bütün günahkarlarına paylayacaq, onlar da şərabı dibinə qədər içib-qurtaracaq. **Açxtılar da unuttular işlərin anınq da fikir etmədilər sağışına anınq** (Məz. 105/106: 3). Onlar acıdılar və Onun (Tanrının) işlərini (buyuruqlarını) unutdular və Onun iradəsi barədə (fikir etmədilər) fikirləşmədilər. **Açıxtılar da susadılar da canları alarnın alarda əskildilər** (Məz. 106/107: 5). Acıdılar və susadılar və onların canları (taqətləri) əskildi (azaldı).

Qeyd: "A" şəxs əvəzliyinin adlıq haldakı vəziyyətinə digər əski türk abidələrində olduğu kimi, alban əlyazmalarında da rastlanmır. Bu əvəzliyin yerinə daha çox "ol" işlənir. "A" əvəzliyi adlıq halda yalnız "abu" (a+bu) sözbirləşəsində işlənir. Bax: **abu**

a II bğl.(slv) – amma, ancaq, lakin, fəqət, isə... Cümlələri, eləcə də cümlə üzvlərini (əsasən həmcins üzvləri birləşdirərək qarşılıq bildirir. Mühacir albanların dilində (alban dilinin Krım dialektində) işlənib: **Bularnı barın manqa xaytarsin, menimkin, a xaytarğandan sonqra men də klərmen kensinə bunu xaytarmağa.** Qoy, o bunların hamsını mənə qaytarsn, ancaq qaytardıqdan sonra bunu ona qaytarmaq istəyirəm. **Xızımnınq altunların tusnaxlıyır, a men xorxıyırmen.** O, qızımın qızıllarını girov qoyur, mən isə qorxuram.

aba bağ. – həm, həm də, həmçinin, eləcə də, üstəlik: **Egər ki oqullarıdırlar, aba, ceciçləri də dirlar.** Əgər oğullarıdırlarsa, deməli, həm də varisləridirlər.

abaş ism. **–** həbəş. Həbəşistanın (Efiopiyann) əhalisinin əsas hissəsini təşkil edən xalq və bu xalqa mənsub şəxs: **Abaş, saptı ya bulardı.** Həbəş ya sapdı, ya da yolunu azdı.

abaşxarank f. i. (ort. frs) – tövbə, günahların yuyulması, bağışlanma: **Sen, Tenqri, xoymadinq abaşxarank artarlar üçün Aprahamğa, Sahağğa, Jağopqa, xaysilari ki yazıx etmədilər samqa.** Sən, ey Tanrı, qarşında günah işlətməmiş İbrahimə, İshaqa və Yaquba əməlisalehlər naminə tövbə yükü yükləmə.

Bu kəlməyə mühacir albanların XVI-XVII əsrlərdə erməni dilindən alban (qarqar-qıpçaq) dilinə tərcümə etdikləri dini mətnlərdə rast gəlinir.

abaşxaroq (-larınınq**)** ism. (ort. frs) – tövbə edən, günahlardan təmizlənmək istəyən şəxs, bağışlanmasını diləyən: **Xoltxası da yalbarmaxı abaşxaroqlarnınq.** Tövbə edəərək bağışlanmaq istəyənlərin dua və yalvarışı.

Bu kəlməyə mühacir albanların XVI-XVII əsrlərdə erməni dilindən alban (qarqar-qıpçaq) dilinə tərcümə etdikləri dini mətnlərdə rast gəlinir.

abaşxarel bolmax (erm. abaşxarel < ort. frs. abaşxar ~) – tövbə etmək, günahlardan təmizlənmək, bağışlanmaq: **Xoltxa Biy Tenqridən abaşxarel bolğan kimsələr üçün.** Tövbə edənlərin Bəy Tanrıya duası.

Bu kəlməyə mühacir albanların XVI-XVII əsrlərdə erməni dilindən alban (qarqar-qıpçaq) dilinə tərcümə etdikləri dini mətnlərdə rast gəlinir.

abaşxaratiun (-nunq, -ğa, -nu, -da, -u) f. i. **(**erm. abaşxaraɯiun < ort. frs. abaşxar ~) – tövbə, günahların yuyulması, bağışlanma

Bu kəlməyə mühacir albanların XVl-XVll əsrlərdə erməni dilindən alban (qarqar-qıpçaq) dilinə tərcümə etdikləri dini mətnlərdə rast gəlinir.

Abolos x. ism. (yun. Apollos) – Apollos. "Bibliya" personajlarından olan tarixi şəxsiyyət. Əslən İskəndəriyyədən olan bu yəhudi Efesdəki sinaqoqda dini təlim verməklə məşğul olmuş, sonradan xristian missionerləri Akil və Priskilin davamçısına çevrilmişdir. Bu şəxs yeni dini, yəni Həzrət İsanın (ə) təlimini elə ürəkdən təbliğ etməyə başlamşdı ki, öncə Axayda, daha sonra isə Korinfdə xristianların bir qismi özünü onun tərəfdarı elan etmişdilər və bu da həvvari Pavelin məzəmmətinə səbəb olmuşdu: **Xaçan ki aytsa xaysı sizdən, ki: "Men Bolostanmen", – da birsi, ki: "Men Abolostan", – dügülmi ki, adamlarsiz? Xaytip kimdir Bolos? Ya kimdir Abolos? Xuluxçılar, xaysılarından ötlə ki inandınqız, da har birinə neçik Tenqri beriptir. Men tiktim, Abolos suv berdi, yoxsa Tenqri östürdü...** (1 Kor. 3: 4-6). Çünki əgər biri «Mən Pavelinəm», digəri isə «Mən Apollosunam» deyirsə, siz cismani deyilsinizmi? Pavel kimdir? Apollos kimdir? Yalnız vasitələri ilə iman etdiyiniz xidmətkarlardır. Rəbb hər birimizə bir vəzifə vermişdir: Mən əkdim, Apollos suvardı, amma Tanrı (can) üflədi… **Bundan sonqra maxtanmasın kimesə adamlardan, zera barça nemə sizinqdir: egər Bolos, egər Abolos, egər Gepas, egər dunya, egər tirlik, egər ölüm, egər ki hali bar, egər ki bolmalıdır, – barça nemə sizinqdir; siz – Krisdosnunq, Krisdos – Tenqrininq** (1 Kor. 3: 21-23). Buna görə, heç kim insanlarla öyünməsin, çünki hər şey sizindir: Pavelmi, Apollosmu, Kefamı, dünyamı, həyatmı, ölümmü, indimi, yaxud gələcəkmi – hamısı sizindir; Siz isə Məsihinsiniz, Məsih də Tanrınındır.

Abolemos x. ism. (yun. Apolemos) – Apolem.

abra ~ (-ma; -mağa; -ğnı; -dnq, -dı, -dıx, -dınqız; -r; abrıyırmen; ğanı; -ğaysen, -ğay, -ğaylar; -max) fel.– həyatda saxlamaq, bəlalardan qorumaq, ölümdən və ya hər hansı bir bədbəxt hadisədən qorumaq, xilas etmək, nizamlamaq, tənzimləmək, körpəni bürümək, xəstəyə yardm etmək və s: **Bol, menim Tenqrim, yardimçım da övü işançnınq – abramaga meni** (Məz. 30/31: 3). Ey Tanrm, Sənə pənah gətirirəm! Heç vaxt məni xəcalətdə qoyma, Ədalətinlə məni xilas et!

abralmaxsız f. sif. – emal edilməmiş, hamarlanmamış, nizamlanmamış, qulluq edilməmiş, diqqət yetirilməmiş, toxunulmamış, insane əli dəyməmiş və s: **Abralmxasız, evet, xalır da ne türlü ki edi.** Bəli, insan əli dəyməmiş (şey) necə idisə, eləcə də qalır.

Abram Bax: **Abraham**

abramax Bax: **abra** ~

abran ~ (-mağa; -ıyım; -ıyırmen; -ğaymen) // **abron** ~ (-ıyın) fel. – geyinib–keçinmək, bəznib-düzənmək, özünə sığal vermək, təhlükədən kənar durmaq, xilas olunmaq, qorunmaq və s: **Abrağın meni qavdan ki, batmağaymen, abranğaymen körəlməsizlərimdən menim da terənlikindən suvlarnınq köp** (Məz 68/69: 15). Məni qurtar, bataqlığa batmayım, qoy düşmənlərimdən, dərin sulardan xilas olum. Qoy sellər məni aparmasın, dərinlik məni udmasın, quyu üstümdə ağzını yummasın. **Atasın külüp edi, ol ki, abronmıyın yatıp edi** Atasının geyimnədən (çılpaq) yatdığını görüb güldü. (Bu cümlə "Bibliya"ya daxil olan "Yaradılış" (Yar. 9: 20-22) kitabından götürülüb. Burada söhbət Həzrət Nuhun (ə) şərab içərək keflənməsindən, çılpaq halda yuxuya getməsindən, Hamın onu bu vəziyyətdə görüb gülməsindən və bu barədə o biri qardaşlarına danışmasından gedir).

abranmax fel. – xilas olmaq, qurtulmaq, xilas, qurtuluş: **yazıxlılarğa boldu xaytmxa da abranmax eski duşmandan.** Günahlardan geri dönməyə, əski düşməndən qurtulmağa nail oldu.

abravuçı Bax: **abrovuçı**

abril ism. (lat. **april**, yun. **aprilos**) – apel. Yulian təqviminə görə ilin 4-cü, baharın 2-ci ayı: **abrilninq birində.** Aprelin 1-də.

abron ~ Bax: **abran** ~

abrov f. i. - himayə, qoruma, keşik, qaravul > **abrov yeri** – qaravul, keşikçi məntəqəsi, gözətçi qülləsi: **Abrov yeri, haran da azbar-çetəni yoxtur.** Nə keşikçi məntəqəsi, nə bir tövlə, nə də daldalanmaq üçün hər hansı bir qapalı yer yoxdur.

abrovuçı ~ (-m) ism. - meyidi dəfnə hazırlayan şəxs. Xristian "mürdəşir"i. Məcazi mənada isə "hami", "himayədar" anlamları verir: **Men yarlı da tilençimen, Tenqri sağışla meni, boluşuçım da abrovuçım menim da sen, Tenqrim menim, keçikməgin** (Məz. 39/40: 18). Mən kasıb və dilənçiyəm, məni düşün, ey Tanrı, yardımçım və himayədarım ol. Tanrım mənim, gecikmə. **Boldu menim abrovuçım da övü işançımnınq, kününə tarlıxımnınq menim, boluşuçım menim** (Məz. 58/59: 17). O mənim himayədarım və pənah yerim, çətin günlərimdə köməkçim idi. **Sensen abrovuçım, hörmətləməxim menim, Biy** (Məz. 58/59: 12). Səncən himayədarım, Sənə sayğılıyam, Bəy (Rəbbim).

abs (-ğa, -nı) ism. (lat. **abbess)** – orta əsrlər kimyagərlərinin istifadə etdikləri xüsusi eliksir: **absnı çelig bilə tuz suv içinə bişirmə.** Eliksiri dəmir filizi ilə duzlu suda qaynatmaq.

abu əvz. – bu, bax bu, bu isə. "A" (o) və "bu" əvəzliklərinin birləşməsindən yaranmış işarə əvəzliyi: **Abu anınq üçün ki, aşıra muxanat tayfadır da çıdovsuz.** Bu onun üçün belə idi ki, bu tayfa aşırı dərəcədə zəif və dözümsüz idi.

acamilik Bax: **acəmilik**

acəl ism. (< azər. < ər.) - əcəl: **Oğlan kensi acəli bilə öldü.** Oğlan öz əcəli ilə öldü.

acəm ism. – əcəm. Qafqaz albanları bu adla öz həmvətənləri olan müsəlman Azərbaycan türklərini və farsları çağırırdılar. Bu kəlmə XVl əsrdən etibarən "acəm xızılbaş" (əcəm qızılbaş) formasında, yenə də bu iki xalqa şamilən işlədilmişdir: **Bir acəm xalı xızıl da sarı..., igi xalılar.** Bir qırmızı əcəm (Azərbaycan) xalısı və ...sarı xalı, yaxşı xalılar.

acəmi (-mi, -sen) ism. (< ər.) – 1. əcəmi, ərəb olmayan, qeyri-ərəb 2. biliksiz, savadsız, bacarıqsız, kəmsavad, təcrübəsiz, nadan: **Biliksiz**; **kensin aldıx ol acəmi xailindən, kensin vixovat ettix.** Biz onu qəbul edəndə hələ çox biliksiz idi, biz onu tərbiyə etdik. **E, igit, bizni acəmi mi tutıyırsen? Kensinq mi acəmisen?** Ay gənc, nadanmı sanrsan? Bəlkə, nadan sən elə özünsən?

acəmilik (-tən, -imə, -imdən) ism. (ər.) - əcəmilik, savadsızlıq, biliksizlik, təcrübəsizlik, nadanlıq: **Yığı yoluxur kişilər bermə hakimlikkə, anıq üçün acəmiliktən ta övrənməməxindən hakimninq ya biliksiz bermaxından hakimlikni kişini öldürgəy.** Çox vaxt insanları şəfa üçün həkimlərə göstərmək lazım gəlir. Bəzən həkimin biliksizliyi və kəmsavadlğı ucundan insanlar ölür (məhv olur). **Zera esliliki bilə Tenqrininq tanımadı dünya eslilik bilə Tenqrini, biyəndi Tenqri acəmilik bilə karozel etmax bilə xutxarmağa inanğanlarnı (**l

Kor1: 21). Çünki Tanrının müdrikliyi ilə dünya Tanrnı tanımadı, Tanrı mərhəmət edərək, inananları öz kəlamları ilə cəhalətdən qurtardı.**Oy-vay ulu acəmilikimə!** Cahilliyimə görə vay mənim halıma!

acdaha (-dır; -nınq, -ğa, -nı, -dan; -lar, -larnınq) // **acdağa** (-nı) **açdaha** (-nı), // **ajdaha** (-nınq; -lar) ism. (< azər. < fars.**)** - əjdaha. Ağzından od püskürən, insan və heyvanları udan, qanadlı, nəhəng, ilanabənzər mifik məxluq. Nağıllarda bəzən üç başlı və ya yeddi başlı təsvir edilir: **Acdaha, xaysı üçün Jop aytıyır.** Əyyubun (ə) haqqında danışdığı əjdaha. **Sen toxtattınq xuvatınq bilə seninq tenqizni, sen uvattnq başın acdahalarnınq üstnə suvlarnınq** (Məz. 73/74: 13). Sən öz qüdtətinlə dənizi durdurdun, sən əjdahaların başlarını sularda qopardın. **Yürəklənməxi acdahalarnınq çaxırı alarninq.** (Qan. 32: 33). Əjdahaların qəzəbi onların şərabıdır. **Bu tenqiz ulu da avlax, bundadır sürkəlgənlər, xaysı ki yoxtur səni kazanlarnınq, ulu-ulu da uvax bunda, da kemilər də barırlar, acdaha, xaysı ki yarattınq oynama anınq bilə (**Məz. 103/104: 25, 26). Böyük, dərin dənizlərin var, orada da saysız məxluqlar – həm kiçik, həm də böyük canlılar qaynaşar. Oradan gəmilər keçir, yaratdığın əjdaha sularda oynayır. **Acdahalar türlü-türlü da köplər.** Cürəbəcür əjdahalar, özü də çoxdurlar. Bax: **lu.**

acder Bax: **acdaha**

Acder x. ism. – Əjdaha bürcü. Göyün şimal yarımkürəsində yerləşən bürclərdən birinin adı: **Acder köktəgi.** Göydəki əjdaha.

acımax Bax: **açımax**

acızlan ~ (-ıp) fel. (< azər. < ər.).- aciz olmaq, aciz qalmaq, aciz duruma düşmək. Bacarmaz hala gəlmək, son dərəcə zəif düşmək: **Yiqla da barma dostunq övinə, kirip çıxma: sonqra acızlanıp sökər də seni.** Dost evinə şikayətə getmə, nə girmə, nə də çıxma, sonda aciz qalıb söyər səni.

aç (-tır, -nı, -ta, -tan, -lar, -larnınq, -larnınqdır, -larğa, -larnı) ism. – ac, oruclu, arıq, acgöz: **Aç, aş yeməgən ya oruç.** Acdır, ya yemək yeməyib, ya da oruc tutub (Mat. 15: 32). **Ki toydurdu canların açlarnınq da canların küsənçlərninq tolu etti yaxşılıx bilə... Sığındırdı kendində açlarnı, da yasadılar şahar turmaxlarına kendilərininq** (Məz. 106/107: 9 və 36). Çünki O, susuzlara doyunca su verər, acları bol nemətlərlə bəslər... Oranı verər ki, aclar məskən salsınlar, yaşamaq üçün özlərinə şəhər qursunlar. **Cəhtliktə da emgəktə, cknutiunda köp kez, açta, susamış, oruçta köp kez, sovuxta, yalanqaçlıxta** (2 Kor. 11: 27). Zəhmət və əmək çəkdim, dəfələrlə yuxusuz qaldım. Aclığın, susuzluğun dadını gördüm. Çox vaxt yemək, soyuqda paltar tapmadım. **...Da xaysi aç bolur, daxaysi esirik (**1Kop11 :21). ...Və biri ac qalır, o birisi isə sərxoş olur. **Xarnımz açtır.** Biz acıq. **Bardır yarım ötmək, anı da sanqa beriyim, yoxesa bermən, zera açtan ölərmen.** Məndə yarım dənə çörək var. Onu sənə verərdim, amma verə bilmərəm, çünki öxüm acından ölərəm.

aç I ~ (-ma, -mağa, -mama, -ıyım, -kın, -sın, -ınqız, -tım, -tnq, -tı, -tılar, -madım, -madı, -madılar, -ıpsen, -armen, -arsen, -ar, -arsiz, -arlar, -mandır, -mas, -masbiz, -ıyırmen, -ıyır, -ıyrlar, -ıy edi, -qaymen, -qaysen, -qay, -qaybiz, -mağay, -qay edi, -sa, -sanq, -sar, -qan, -max, -maxnnq, maxqa, -maxtan, -ıp) fel. – açmaq: **Yoxesə men – neçik xulaxsız, işitməs edim ki, işitməs, neçik tilsiz, xaysı ki (heç) açmas ağzin kendininq (**Məz 37/38: 14). Mən bir kar kimi eşitmirəm, dilsiz-

ağızsız bir lal kimiyəm. Ağzını açmayan lal-kar kimiyəm. …**Açmağay ağzın kensininq üstümə menim** (Məz 68/69: 16). ...Ağzını üstümə açmasın.

aç II ~ Bax: **saş** ~

açdaha Bax: **acdaha**

açi Bax: **açı**

açilik (-ninq, -tan, -im, -i, -indən) ism. – acılıq, turşu, köpüklülük, zəhər: **Ayax xoluna Eyəmizninq, çağir tolu, buzulmağan, zadasız tolturğan da aşaxlatır bundan bunqar. Həlbət, çöprəsi, açiliki anınq heç tügənməs da içkəylər anı barça yazıxlıları yerdəgi (**Пс74/75: 9). Rəbbimiz əlində bir cam tutub, onu turşməzə, köpüklənən şərabla doldurub. Şərabından töküb yer üzünün bütün günahkarlarna paylayacaq, onlar da şərabı dibinə qədər içib qurtaracaqlar.

açı (-nı; -sından) sif. – acı, şor, duzlu, turş: **Bilməs misiz ki, azğına açı xamur barça neməni açıtır? Arıtınqız keri eski xamurnu ki, bolğaysız yəngi yaratılğan, ne türlü ki, siz açıtmağan, zera bayramımız bizim soyuldu, Krisdos** (l Kor. 5: 6, 7). Biməmisiniz ki, azacıq acı xəmir (maya) hər şeyi acıdır? Əski xəmirləri arıdın (təmizləyin) ki, acı qatılmamış xəmir kimi yenidən yaradılmış olaq, çünki (Pasxa) bayramımız bizim (İsa) Məsihdir**. "Barsanq övünqə seninq, acı körgüz yüzünqnü anqar", – barıp eri açı yüzü bilə övünə, yedi aşnı da yalan yuxuğa kirdi.** "Evə gedəndə ona üz-gözünü turşut (özünü narazı göstər)" – (bu məsləhətə qulaq asan qadının) əri evə gəlib üz-gözünü turşutdu və özünü yalandan yuxuluğa vurdu.

açı ~ (-ğay, -ğanınqnı, -max) fel.– acı çəkmək, qəm-qüssə içində olmaq, kədərlənmək, nalə etmək, acıqlanmaq.

açığ Bax: **açıx**

açığ I ~ (-ım, -acımnınq) // **açıx** ism. – acı, üzüntü, kədər.**Oşta eminlikkə xaytti açığım menim (**Çıx. 38: 17). Budur, kədərim əminliklə əvəz olundu.

açığ II ~ Bax: **açıx** ~

açığlan ~ (-ma, -ıyırmen, -qan) // **açxlan** ~ (-dı) fel. – acıqlanmaq, acığı tutmaq, hiddətlənmək: **Acığlanıyırmen, mırmıldayırmen…** (Məs. 29: 12). Acqlanram, mırıldanıram…

açığlanmax f. ism – 1. zərhərlənmə; 2. acıq, acıqlanma, hirs, hirslənmə, hiddət, hiddətlənmə, qəzəb, qəzəblənmə: **Açığlanma üsnə açığlanmax.** Hiddət üstünə hiddət.

açığlat ~ (-tı, -tılar, -ıyırmen, -qan) fel. – acıqlandırmaq: **Açığlatıyırmen, hayıfsunıyırmen.** Acıqlandırıram, heyifslənirəm (sonra da peşiman oluram). **Yarğulağın alarnı, Tenqri ki, tüştülər sağışlarından, yürəklərninq kendilərninq köp dinsizliklərinə körə alarnınq keri et alarnı ki, açığlattılar, açıttılar Seni** (Məz. 5: 11). Ey Tanrı, onları təqsirkar çıxar, çünki pis niyyətlərə düşüüblər. Onları ürəklərindəki saysız küfrlərinə görə qov, çünki əleyhinə çıxaraq Səni acıqlandırdılar. **Öçəşləttilər meni yat ayaxları bilə kendilərininq da qurkları bilə kendilərininq acığlattılar meni...** Onalar öz yad badələri və bütləri ilə məni qıcıqlandıraraq əsəbiləşdirdilər.

açığlatuçı ism. – qıcıqlandrıcı, əsəb verici: **Cins yaman da açığlatuçi cıns, xaysı ki tüzətmədi yürəkin kendininq da toxtatmadı Tenqrigə canın kendininq // Millət yaman da açılatuçı millət ki, toğru etmədi yürəkin kensininq da**

toxtatmadı Tenqridə canın kensininq (Məz. 77/78: 8). Onlar dikbaş, qıcıq yaradan bir millət (cins) idilər. Ürəkləri Tanrıya dönük, könülləri vəfasız idi.

açığlı // açıxlı (-larnı) sif. – 1.əzabverici, üzücü; 2. acıqlı, hiddətli, qəzəbli: **Tenqri sığındırır bir yergə bilə övdə da çıxarır kensininq, ol türlü açığlılarnı ki, tiniptirlər kerezmanlarda** (Məz. 67/68: 7). Tanrı kimsəsizlərə ev qurur, əsirləri firavanlığa çıxarır, acığına tuş gələnlər isə quru yurdda yaşayır. **Sen açğlı bağından ölümnünq açtınq inamlılarğa köktəki xanlıxnı.** Sən inananları ölümün acıqlı pəncəsindən qurtarıb onlara göydəki Xanlığının qapılarını açdın. **Sen sonqğuda xurban bu tendə soyuldunq xaç üsnə açığlı xıyınınq bilə bizgə xutxarılmax üçün.** Sən sonda bizləri qurtarmaq (xilas etmək) naminə öz bədənini qurban verərək, dözülməz acılarla (əzablarla) xaç üstündə soyuldun.

açığlıx (-ndan) ism. – bəla, fəryad, məyusluq, pərişanlıq, əzab: **Anq açığlıx bilə toğulğan yaşlarınqnı seninq.** Məyusluqdan (pərişanlıqdan) doğulan göz yaşlarını yadına sal. **Berkəyt meni açığlıxından eski duşmannıq.** Əski düşmənin əzabına qarşı mənə güc ver (məni bərkit).

açıx Bax: aç I

açıx (-men, -tır, -tırlar, -nınq, -qa, -nı, -lar) sif – açıq. Qapalı olmayan, örtülü olmayan: **Ağızları açıx tamaxlarına dirə da ağızlarından çıxıyır otlu sasımş xurtlar.** Ağızları mədələrinə qədər açıqdır və ağızlarından iylənmiş odlu qirdlar çıxır. **Açıx başı bilə.** Örtüksüz başı ilə. **Kim ki sözlər yazıx sınqarı üçün, anı açıx yergə sürgəy edim** (Məz. 100/101: 5). Kim ki, şər-böhtan ataraq günaha batsa, onu açıq yerə sürgün edərəm. **Ağızlarımız bizim açıxtır sizgə xarşı, Qornaçılar da yürəkimiz bizim çeşilgən** (II Kor. 6: 11). Ey Korinflilər, sizinlə açıq danışırıq və ürəyimizi sizə açmışıq. **Çağır fərahlatır, sarı yağ açıx etər, ötmək toxtatır adamnınq yürəkin** (Məz. 103/104: 15). Çaxır ürəyi xoşhal edir, sarı yağ (zeytun yağı) üzləri güldürür, çörək adamın ürəyinə toxtaqlıq verər. **Açıx xoymax.** Müdafiəsiz qoymaq. **Xaytıp açıxmen hər sahat** (ll Kor. 5: 6). Buna görə hər zaman (sizlərə) açığam (səmimiyəm). **Surb qoys açıx avaz bilə cuvap berdi törəçigə** (ll Kor. 7: 16). Müqəddəs bakirə (Məryəm) hakimə aydın bir səslə cavab verdi. **Ber, Biy, oyaxlıx esimə menim da saxtlıx barça boğunlarıma, açıx es bilə da oyax sağış bilə tınğaymen.** Ya Rəbb, ağlıma oyaqlıq və bütün bədən üzvlərimə sayıqlıq ver, aydın ağıl və oyaq düşüncələrlə dincəlim.**Bolsun seninq sadağanq yapux da Atanq seninq ki köriyir yapux, tölövün etər sanqa açıx** (Mat. 6: 4). Belə ki verdiyin sədəqə gizli qalsın. Gizlində olanı görən Atan səni açıq-aşkar mükafatlandıracaq.

açıx ~ (-sınlar, -tılar, -sam, -sarlar, -qan, -qanlarğa) fel. – acımaq, aclıq hiss etmk, ac olmaq: **Xaytsınlar keçədən, açıxsınlar neçik itlər da yürüsünlər şəhər çövrəsinə** (Məz. 58/59: 7). Qayıtsınlar gecədən, it kimi acısınlar və şəhərin dövrəsində var-gəl etsinlər. **Ulu xocalar miskinləndilər da açıxtılar, evet, xaysılar ki, xolarlar Biyni, eksilməgəy alardan barça yaxşılıx** (Məz. 33/34: 11). Varlılar miskinləşmiş və ac-yalavac günə düşmüşlər, amma kimlər ki Rəbbə dua edir onların ruzi-bərəkəti əskik olmaz. **Açxtılar da unuttular işlərin anınq da fikir etmədilər sağışına anınq** (Məz. 105/106: 3). Onlar acıdılar və Onun (Tanrının) işlərini (buyuruqlarını) unutdular və Onun iradəsi barədə fikirləşmədilər. **Açıxtılar da susadılar da canları alarnın alarda əskildilər** (Məz. 106/107: 5).

Acıdılar və susadılar və onların canları (taqətləri) əskildi (azaldı). **Egər açxsam, sanqa nemə heç aytmam, zera menimdir dünya tügəlliki bilə kendininq** (Məz. 49/50: 12). Əgər acısam, sənə heç nə demərəm, çünki dünyanın tamamı mənimdir.

açıxlan I ~ Bax: **açıx** ~

açıxlan II ~ Bax: **açığlan** ~

açıxlat ~ Bax: **açığlat** ~

açıxlı Bax: **açığlı**

açıxlıx I (-qa, -ı, -ından, -lar) ism. – açıqlıq, əliaçıqlıq, səmimilik, rahatlıq: **Kim ki comarttır açıxlıx bilə** (Rom. 12: 8). Kim ki comərddir əliaçıqlıqla (sədəqə versin). **Yalbarıyıx da xolıyıx Andan ki, uzunluxun kündüznünq eminlik bilə da barça könqül xoşluxununq açıxlıxı bilə etgəy keçirmə bizgə**. Ona yalvaraq və dua edək ki, bütün gün uzunu bizə tam bir səmimiyyətlə hüzur və açıqlıq (rahatlıq) qismət etsin **Alqışlanqız buz da açıxlıx, zəmhəri da xar Biyni** (Dan. 3: 71-72) Bəyin (Rəbbin) buzuna, aydın səmasına, şaxta və qarına şükr edin.

açıxlıx II Bax: **açığlıx**

açıxmax (-lar) f. ism. – aclıq hissi. Qida yetərsizliyinin doğurduğu hiss. Toxluq hissinin ziddi.

açıxmaxlıx ism. – aclıq. Qida yetərsizliyi. Toxluğun əksi: **Sımarlamax inam üçün da yengil könqül bilə xulux üçün, xaysından başxa ki tez açıxmaxlıx bar üsnə** (l Tim 1: 18). Olmadıqlarında mənəvi aclığın ortalığa çıxdığı inam və vicdanlı ibadət barədə vəsiyyət.

açıxtan Bax: **açlıx** (-tan).

açıxtırmax fel. – ac salamaq. Kimisə acımağa məcbur etmək.

açıl ~ (-max, -maxqa, -maxı, -ma, -mınça-qaın, -sın, -dı, -dılar, -ıptır, -ır, -mas, -ıyır, -ır edi, -ğaymen, -ğay, -ğaylar, -salar, -ğan, -ğandır, -ğandrlar, -ğanda, -ğandan, - ğan bolsa, -ğanı, -ğaçox,) fel. – açılmaq, cuşa gəlmək, səmimi olmaq, alışmaq, yanmaq: **Açıldı.** Açıldı. **Açılğan.** Açıq. **Zera ağzı yazıxlınınq, ağzı hillalınınq açıldı üstümə menim** (Məz. 108/109: 2). Çünki haram yeyənin (günahkarın) də, halal tikə yeyənin də ağzı üstümə açıldı. **Anqar umsandı yürəkim, faydalı boldu da açıldı boyum** (Məz. 27/28: 7). Qəlbim Ona güvənəndə köməyimə çatır. Sevincdən qəlbim cuşa gəlir. **Açılıptır sanqa eşiki uçmaxnınq.** Cənnətin qapısı üzünə açılıbdır. **Sen kirdinq aralarına da eşik açılmınça xaldı yapıx.** Sən aralarına girdin, amma bu zaman qapı açılmamış və bağlı qalmışdı. **Xaxıyırmen ki, açılğay manqa xarşı.** (Qapını) döyürəm ki, üzümə açılsın. **Xaxınqız ki, açılğay sizgə** (Luk: 11: 9). Döyün ki, üzünüzə açılsın. **Göründülər çovraxları suvnunq da açıldılar, belgili boldular himləri dünyanınq** (Məz. 17/18: 16). Suların dərinlikləri göründü, dünyanın bünövrəsi açıq qaldı. **Ol sahat açıldı kök.** O saat göy üzü açıldı. **Açıldı yer da yuttu Tatannı da yaptı taborların Apironnunq** (Məz. 105/106: 17). Torpaq yarılıb Datanı uddu, Aviramla yoldaşlarını yerə batırdı. **Kes-kenetə yarıx açıldı tamuxta.** Dərhal cəhənnəmdə işıq yandı. **Közleri açılır cannınq da tenninq.** Gözləri açılır ruhun da və bədənin də. **Xalğanınq berdinq yemə, xaysı ki yep açıldı közləri tanımağa bitikninq xuvatın.** Müqəddəs kitabın qüvvəsini tanımaları üçün qalıb onlara gözlərini açan (mənəvi) qida verdin. **Sözləri Eyəmizninqdir sözlər ari, nemik da kümüş tanqlanğan da sinəlgən, yerdən arıtılğan da açılğan yeti kez torpaxtan** (Məz.

11/12: 7). Rəbbin kəlamları pakdır, kürədə əridilən, yeddi dəfə təmizlənən gümüş kimidir.

açımax (-tan). // **açmax** f. i – məyusluq, təhqir olumnuşluq, alçaldılmışlıq, qəm, kədər, qüssə, pərişanlıq, narazılıq, deyingənlik, dərdə şəriklik, şikayət, inləmə: **Bügün egər avazına anınq işitsəngiz, bizmilətməngiz yürəkinqizni sizinq, neçik açmaxtan** (Yəh. 3: 15). İndi, onun səsini eşitdiyiniz zaman, deyinərək ürəklərinizi daşa döndərməyin. **Açımağ bilə.** Dərdə şərik çıxaraq.

açımaxlıx ~ (-tan). f. i. – məyusluq, inciklik, narazılıq: **Bügün egər avazına anınq işitsəngiz, bizmilətməngiz yürəkinqizni sizinq, neçik açmaxlıxtan kümümə sınalmaxnınq anabadda** (Yəh. 3: 7). İndi, onun səsini eşitdiyiniz zaman, səhradakı sınaq günlərindəki kimi narazılıq hissi ilə ürəklərinizi daşa döndərməyin.

açın f. i. – ac, bir şeyə susamış > **açın xalmax** - ac qalmaq: **anınq üçün kobelada yeməxni yürütüyirbiz ki, açın xalmağaybiz.** Ac qalmamaq üçün yeməyimizi zənbildə daşıyrıq. > **açın ölməx** – acından ölmək, aclıqdan əziyyət çəkmək: **Atım hali açın öliyir.** Atım bu dəqiqə acından öləcək. **Tut meni, neçik xaysı birin yalçılarınqdan senin ki, bolmağay yoxsuluxtan açın ölgəymen.** Məni öz nökərlərindən biri kimi qəbul et ki, yoxsulluq üzündən acından ölməyim. > **açındırlar** – acdırlar, aclıq çəkirlər.

açısız sif. – acısız, mayasız, xəmir mayası olmadan, xəmirinə maya vurulmamış, turşusuz, turşuducusuz: **Açısız ötmək.** Xəmirinə maya vurulmamış çörək.

açıt ~ (-ıyım, -ma, -manqız, -tılar, -ır, -ıyırmen, -ıyırsiz, -mağaylar, -qan, -qalarnı, -mağan, mağandır) fel. – 1. turşutmaq, acıtmaq, xəmiri acıtmaq, xəmirə maya qatmaq: **Bilməs misiz ki, azğına açı xamur barça neməni açıtır? Arıtınqız keri eski xamurnu ki, bolğaysız yəngi yaratılğan, ne türlü ki, siz açıtmağan, zera bayramımız bizim soyuldu, Krisdos** (1 Kor. 5: 6, 7). Bilməzmisiniz ki, azacıq acı xəmir (maya) hər şeyi acıdır? Əski xəmirləri arıdın (təmizləyin) ki, acı qatılmamış xəmir kimi yenidən yaradılmış olaq, çünki (Pasxa) bayramımız bizim (İsa) Məsihdir. 2. məyus etmək, pərişan etmək, kefə soğan doğramaq: **Xaytıp men da paxıllatıyım alarnı hörmətsiz millət bilə da essiz millət bilə açıtıyım alarnı.** Mən də qayıdıb aralarına həsəd toxumu səpər, qaba millət(in əli) ilə və ağılsız millət(in əli) ilə onları pərişan edərəm.

açıtaş ism. – aşı daşı, marqans tərkibli kimyəvi maddə, kükürdlü alüminium dioksid duzu. Dərinin aşılanması zamanı və tibbi peraparat kimi qanın saxlanılması, yaranın yuyulması üçün istifadə edilir: **On eki xantar açıtaş.** On iki qantar açıdaş.

açıtmax f. ism – acıtma, xəmirə maya vurma, turşutma: **Anınq üçün arı tumnunq açıtmax da suv yoxtur, ölümsüzlüxkədir oxşaş.** Onun üçün də müqəddəs ayində acıtmaq (maya vurmaq) və su yoxdur, o, ölümsüzlüyə bənzəyir.

açx Bax: **açıx**

açxıç f.i. – 1. açar, cəftə, qıfıl: **Şahat, uçmaxnınq açxıçları sendədir.** Doğrudur, cənnətin açarları səndədir. **İnam açxıçıdır köktəgi uçnaxnınq da anqğıcıdır biyiklikninq ki, ne türlü minməx kerək da açıp uçmaxnı kirməx kerək.** İnam göydəki cənnətin açarı və böyüklüyün xatırlanmasıdır, odur ki, yüksəlmək, açmaq və cənnətə girmək gərəkdir. **Törə Bitikninq açxıçı. Qaydalar (qanunlar) Kitabının açarı.** 2. çaxmaq: **Tüfək açxıçları.** Tüfəng çaxmaqları.

açxıçlıx ism. – açarlıq, açar düzəltmək üçün nəzərdə tutulmuş material: **Kümüş açxıçlıx.** Gümüş açarlıq (material).

açxın Bax: **açın**

açxlan ~ Bax: **açıxlan** ~

açxn Bax: **açxın**

açlıx (-nınq, -qa, -nı, -ta, -tan, -ın, -lar) ism. – aclıq, qida yetərsizliyi nəticəsində yaranan və bədənin qidaya ehtiyacı olduğu barədə siqnal verən instinkt. Toxluğun əksi: **Xaytıp kim ayırğay bizni sövükündən Krisdonunq: xıyın, yoxsa tarlx, yoxsa sürülməx, yoxsa mı açlıx, ya yalanqçlıx, ya prihoda?** (Rom. 8: 35). Bizi Məsihə olan sevgidən kim ayıra bilər: əzab, yoxsa sıxıntı, yoxsa sürgün, yoxsa aclıqmı, ya lüt-üryanlıq, yoxsa ki, ehtiyac? **Xazaxta bek açlıx edi.** Qazaxda (qazax // kazak elində, qazaxlar // kazaklar arasında) bərk aclıq idi. **Açlıx boldu da ulu sovux.** Aclıq və şiddətli soyuq oldu. **Yedi kün açlıx bilə incitti kensin.** Yeddi gün ona aclıqla əzb verdi. **Kötür öçəşməxinqni yaratqanlarınqdan, açlıxnı xılıç kötürməxni, afatnı, xardaşlıxımızını bizim saxla tügəl sövüktə birliktə.** Götür (çək) qəzəbini, aclığı, (başımız üzərinə qaldırdığın) qılıncı yaratdıqlarından (məxluqatının üzərindən), sevgi və birliyimizi tamamla. **Uyalmısarlar alar zamanədə yamanlıxnınq, evet, kününə açlıxnınq toysarlar** (Məz. 36/37: 19). Onlar fəlakət günündə utanmaz, aclıq günündə isə qarınlarını doyurarlar. **Hali açlıx ölümü bilə tas bolıymen.** İndi aclıqdan ölüb, məhv oluram. **Övrət oğlunqnu aclıxqa da susamaxqa.** Oğlunu aclıq və susuzluğa alışdır. **Sınağın oğlanlarınqnı açlıx bilə da susamax bilə da miskinlik bilə da eski bazıx tonlar bilə.** Oğullarını aclıqla, susuzluqla, kasıblıqla və köhnə kobud don (geyim) ilə sına. **Can xutxarma ölümdən canların alarnınq, yedirmə alarnı açlıxta** (Məz. 32/33: 19). Canlarını (onların istəyir) ölümdən qurtarsın, aclıqda (qıtlıqda) belə onlar sağ qalsın. **Opranğanlar da zabunğanlar açlıxtan, kazandan sındırqalağan, leş tüşkən barça uçar xuşlarğa köktəgi** (Qan. 32: 24). Qıtlıqdan tükənəcək, qızdırmadan qırılacaqlar, vəbadan tələf olacaqlar. Leşlərini göydəki quşlara yem edəcəyəm. **Xoca oğlu yılan yedi – ayttılar ki hakimliktir anqar; yarlınınq yedi esə – ayttılar, açlıxtan yedi** (Alban atalar sözü). Varlının oğlu ilan yedi, dedilər ki, dərmandır (həkim məsləhətidir), kasıbın oğlu yedi isə, dedilər ki, acından yeyib.

açmax (-nı, -ınq) f.i. – açılma, açılış, açıqlama, şərh, yorum: **Aldınqız sizgə atalğan haybatnı, çeşməxni da bağlamaxnı, açmaxnı da yapmaxnı.** Sizə vəd olunmuş şöhrəti, icazəni, bağlılğı, açılış və bağlanışı aldınız. **Tenqri çıxmaxınq çıxqanınqa senin alnına joqovurtunqnunq seninq, açmaxınq seninq, pustalix bilə, yer də teprəndi, zera da kök yaxış etsərlər keçkəningə seninq anabaddan yer titrədi, xaçan ki, kök tə kropit etti yüzündən Tenqrininq. Sinada alnına Tenqrininq İsrayelninq** (Məz. 67/68: 8, 9). Ey Tanrı, Sən xalqının önündə gedərkən, çöllükdə yürüşə çıxarkən, Sina dağındakı Tanrının qarşısında, Tanrının, İsrailin Tanrısınn hüzurunda yer lərzəyə gəldi, göydən yağış töküldü.

açq Bax: **açıx**

açtır ~ (-dı, -dıx, -dılar). fel. – açdırmaq: **Tenqri kensinə uzax ömür bergəy ki, kömülgən xaznanı açtırdı da tiyilğən çovraxnı açtırdı ki, susamış canlarnı içirgəy.** Ey Tanrım, ona uzun ömür ver ki, bağlı xəzinəni və gözü tutulmuş bulağı

açdırdı ki, susamış canların susuzluğunu yatırtsın. **Açtırdılar eşikni yarımkündə da kirdilər içkəri.** Günorta qapnı açdırdılar və içəri girdilər.

ada ism. – ada. Dörd tərəfi su olan quru parçası: **Ya xaysı adağa aytkaymen: "Yap meni xorxusu alnlna Tenqrininq"?** Hansı adaya deyim ki, "Məni Tanrı qorxusundan qoru"?

adam (-men, -sen, -dır, -nınq, -nınqdır, -ğa, -ğadır, -nı, -da, -dan, -lar, -larbiz, -larsiz, -lardırlar, -larnınq, -larına, -ların) ism. – adam, insan: **Men adammen, neçik sen.** Mən də sənin kimi adamam. **Biyimiz Yisus Krisdos, xaysı Tenqri da adamsen.** Həm Tanrı, həm də insan olan Rəbbimiz İsa Məsih. **Xaçan ki aytsa xaysı sizdən, ki: "Men Bolostanmen", – da birsi, ki: "Men Abolostan", – dügülmi ki, adamlarsiz?...** (I Kor. 3: 4). Çünki əgər biri «Mən Pavelinəm», digəri isə «Mən Apollosunam» deyirsə, siz adam deyilsinizmi? **Keri etti kendindən çatırnı Selovda, çatırnı, xaysı ki sığındırdı arasına adamlarnınq** (Məz. 77/78: 60). İnsanlar arasında qaldığı çadırını, Şilodakı məskənini tərk etdi. **Dügül ki, xuvatın atnınq klədi Biy da ne erlikinə adamnınq aznavur da dügül ki, tanqlama velet adamğa biyəndi** (Məz. 146/147: 10). O, güclü atlardan zövq almaz, qüvvətli addımlardan razı qalmaz. **Bu türlü adam ki, xorxar Eyəmizdən...** (Məz. 127/128: 4). Rəbbimizdən qorxan bu cür insan... **Burungi adam yerdən, torpaxtan, evet, ekinçi Adam – Biy kökrən** (I Kor. 15: 47). Birinci adam yerdən, torpaqdan, bəli, ikinci Adam – Rəbb isə göydən. **Anınq üçün ağırlanmasbiz da yoxesə egər ki, çıxarığı adammız bizim buzursa, na içkərigi yanqırır kün-kündən** (II Kor 4: 16). Buna görə biz ümidimizi itirmirik. Zahirimiz get-gedə xarab olsa da, daxilimiz gündən-günə təzələnir.

-Nedir çektiri adamnınq?

-Menqərüçisi adamnınq oğludur, xaysınınq ki, tölövü kendininqdir (Qriqori Hamamanın "Alban dilinin qrammatikası" əsərindən).

-İnsanın xüsusiyyəti nədir?

-Adamın varisi övladıdr ki, onun dölüdür.

Şaytan içinə kirgən deli adamnınq... İçinə şeytan girmiş dəli adamın... **Bütün dünyanınq Tenqrisi da Biyi barça yaratqanınqnınq, yasovuçısı tüşkünlüxün adam canınnq.** Bütün dünyanın və bütün yaratdıqlarının Rəbbi, cəsur insan qəlblərinin xilaskarı. **Abra meni, Biy, adamdan yaman, adamdan egri xutxar meni** (Məz. 139/140: 2). Ya Rəbb, məni şər adamlardan xilas et, məni qəddar insanlardan hifz et. **Adam fəhamsız bunu ki heç tanımas da essiz heç almastır eskə** (Məz. 91/92: 7). Nadan insan bunu heç vaxt bilməz, axmaq insan bunu dərk etməz. **Yarğu etməgə öksüzgə da yarlığa ki, dağın artmağay adam ulu sözləməxində kendininq üstünə yüzününq yerninq** (Məz. 9/10: 18). Yetimə, fəqirə ədalət göstərəcəksən ki, torpaqdan yaradılan insan bir daha təhlükə yaratmasın. **Həlbət, heçtirlər (heçtir), boşturlar oğlanları adamlarnınq, yalğandırlar oğlanları adamlarnınq, tartovlarından (tartovlarında) kendilərininq yazıxlanırlar da kendiləri heçliktədirlər birgə (ölçövlərinə kensilərininq yazıx etərlər da kendiləri boşluxtandırlar bir oğurdan) (**Məz. 61/62: 10).

Bəşər övladları yalnız bir heçdir –
Əlbəttə, insan övladları fanidir.

Tərəzinin gözündə çəkərkən hamısı yuxarı qalxır,
Çəkisi bir nəfəsdən yüngül gəlir.

Adam Bax: **Adəm**

adamça sif. – adam kimi, insancasına

adam-hayvan ism. **(**adam ər. + hayvan ər) – "canlılar", "canlı varlıqlar" anlamında işlədilən ifadə (adamlar və heyvanlar);

adami Bax: **adəmi**

adamilik Bax: **adəmilik**

adamısı Bax: **adəmi** (-sı)

adamlan ~ (-ğan) fel. – mifoloji mənada adama çevrilmək, adam qılığına girmək: **Toğıyır adamlanğan, qoysluqun buzulmaxsız saxlamax bilə.** O, adam qiyafəsində, anasının bakirəliyini pozmadan doğuldu.

adamlat ~ (-tım, -tınq, -tı, -tıq, -tınqız, -tılar) fel. – məcazi mənada "adam etmək", yəni kimisə doğru yola gətirmək, ona elm və əxlaq vermək və ya ev-eşik, iş sahibi etmək və s.

adamlıx ~ (-nınq, -qa, -nı, -ta, -ınınq, -ım, -mıznnq, -lar, -larnınq, -larnı, -larğa, -larda) ism. – bəşəriyyət: **Özgədən özgəgə keltirmə, neçik adamdan adamlıx, neçik tenqizdən tenqizlix. "**Adam"dan ("adam" sözündən) "adamlıx" ("bəşəriyyət" sözü), "dəniz"dən "dənizlik sözü yarandığı kimi (bu da bir) törəmədir (düzəltmə ismidir).

adamnınqki ism. – adamınki, insanınki. Adama məxsus, hər hansı bir adamın malı olan: **Bar mendən keri, şaytan! Azmaxlıxım menimsen! Ki, sağışlamassen Tenqrininqkin, yoqsa adamnınqkın** (Mat. 16: 23). Çəkil qarşımdan, Şeytan! Sən Mənə mane olursan. Sən Allahın işləri haqqında deyil, insanınkilər barəsində fikirləşirsən.

adamsız sif. – adamsız, adamlar olmayan

adat Bax: **adət**

Adəm ~ (-ninq, -ni, -dən) // **Atəm** ~ (-ninq, -dən) // **Atam** ~ (-ninq) x. ism. – Həzrət Adəm (ə) peyğəmbər. İlk insan və ilk peyğəmbər: **Zera Adəm əvəl yaratıldı da sonqra Eva da Adəm yanqılmadı, yoxsa xatın aldandı da yanqıldı** (l Tim 3: 13). Çünki əvvəl Adəm yaradıldı, sonra Həvva və Adəm yanılmadı, amma qadın aldandı və yanıldı. **Ağaçtan edi Adəmninq ölümi, yənə ağaçtan boldu tirilməxi.** Ağacdan idi Adəmin ölümü, yenə ağacdan oldu dirilməyi. **Boldu kişi burungi, Adəm, tiri nəfəsli, ekinçi Adəm – can bilə tirgizüçi** (l Kor. 15: 46). Oldu birinci kişi, Adəm, diri nəfəsli, ikinci Adəm – can ilə canlandıran. **Atəm atamızını da Evanı yarattı.** Adəm atamızı və Həvvanı yaratdı. **Adəm atamnı da Evanı alda(tı)p uçmaxtan atan çıxardım.** Ulu ata Adəmi və Həvvanı aldadıb cənnətdən çıxardım. **Tenqri ayttı Adəm atamızğa ki: "Seninq emgəkinq bilə yeğaysen seninq ötməkinqni".** Tanrı atamız Adəmə dedi: "(Ağır) əməyinlə öz çörəyini (qazanıb) yeyəcəksən sən. **Barça adamlar, ne xadar ki edilər, Atəmdən başlap...** Bütün adamlar, nə qədər ki idilər (olublar), Adəmdən başlayıb... **Azadlıx berdinq canlarğa ki, Atəmdən beri anda edilər.** Adəmdən bəri orada olan ruhlara azadlıq verdin.

adəmi (-ninq, -gə,-ni, -də, -dən, -si, -sinə, -lər, -lərninq, -lərninqdir, -lərgə, -lərdən, -ləri, -lərinq, -lərdən, -ləri, lərininq, -lərində) ism. – Adəm oğlu, Adəm

övladı, adam, insan, bəşər: **Ayttılar naxaşlar ki; "Adəmini asrı köçürübiz, yoxesə Tenqrini bolmasbiz köçürməgə".** Nəqqaşlar (rəssamlar İsaya) dedilər: "Səni(n rəsmini) bir Adəm övladı kimi asan köçürürük (çəkirik), amma Tanrını köçürmək (təsvir etmək) üçün bula bilmirik. **Adəmininq 365 boğumu.** Adəm oğlunun 365 oynağı. **Kördüx tanq adəmilər otlu xanatllar ki, xulux etiyirlər edi bu tonğa da biz xorxtux yuvuxlanma ol yergə.** Biz odlu qanadları olan işıqlı Adəm övladları gördük. Onlar bu dona (mifik geyimə) qulluq edirdilər və biz o yerə yaxınlaşmağa qorxduq. **Adəmininq tarbiyatı.** Adəm oğlunun təbiəti.

adəmilik // **adəmlix** (-ninq, -qə,-ni, -tə, -tən, -imni, -i, -inə, -in, -inə, -imiz, -imizninq, -imizni) ism. – insanlıq, insan təbiəti, insanın mahiyyəti: **Egər ki ayrılmaxnı bilsə edi arakəl adəmilikində da Tenqrilikində, kerək edi aytma ki, Söz Tenqri – tünəgün da Yisus Krisdos – bügün.** Əgər həvvari Onun insanlıq və Tanrılıq sifətlərinə ayrıldığını bilsəydi, gərək deyəydi: Tanrı-Söz dünən, amma İsa Məsih bu gün. **Kim ki xaytsa yazıxlarından igitliktə, anqa bağışlarmen uçmaxnı yüzünə yüz kez. Da kim ki orta adəmilixinə xaytsa, anqar seksəninə seksən kez bağışlarmen uçmaxnı.** Kim ki günahlarından gəncliyində qayıtsa (geri dönsə), ona onun yüzünə qarşı cənnəti yüz dəfə bağışlaram. Kim ki orta yaşlarında qayıtsa onun səksəninə cənnəti səksən dəfə bağışlaram. **Eki türlü bardır səbəp: adəmilik tarbiyatından da törədən.** İki cür səbəb var: insan təbiətindən və Törədən (qanunlardan qaynaqlanan səbəb). **Da boldu eki tügəl tarbiyattan Tenqrilikninq da adəmilikninq bir boy tügəl.** Və oldu iki təkmil təbiətdən – Tanrılıq təbiətindən və insanlq təbiətindən bir kamil tam. **Men kristanmen da adəmiliktə ündəliyirmen Mariane.** Mən xristianam (məsihiyəm), insanlıq təbiətimcə məni Mariane adlandırırlar.

adəmlik Bax: **adəmilik** // **adəmlix**

adət (-ninq, -qə, -ni, -i, -imizgə, -lər, -lərgə, -ləri, -ləringiz) ism. (< azər. < ər.) – adət, adət-ənənə, hər hansı bir xalqın həyatında kök salmış ənənə, alışqanlıq, alışılmış şey və ya hərəkət: **Adət buyurur.** Adət buyurur. **Adətgə görə.** Adətə görə. **Adətimizgə görə.** Adətimizə görə.

adətçə zrf. (< **adət** azər. < ər.) – adətən, adəti üzrə, bir qayda olaraq, mütəmadi olaraq, həmişə

Addrianos Bax: **Adrianos**

aden (-də, -i) ism.(aram) – məşhər, məhkəmə, məhkəmə salonu: **Burungi adendə kimesə manqa boluşmadı, yoxsa barçası saldılar meni** (ll Tim.4: 16). Birinci məhkəmədə kimsə mənə kömək etmədi, əksinə, hamısı məni tərk etdi. **Mununqki haybatlıx adeni qorunmax, xaysı ki bu cuhutqa qorundu, Ata Tenqrininq zorqundan u küçündən.** Ata Tanrının qüdrət və hökmü ilə cuhuta (yəhudiyə) görünən möhtəşəm məhkəmənin təsviri belədir.

adeni Bax: **aden**

Adirna Bax: **Ədirnə**

Adonida x. ism. (< yun. Adonis) – Adonis. Kipr çarı Kinirin və onun qızı Mirranın oğlu, qədim yunan sevgi tanrıçası Afroditanın sevgilisi. Qısqanc Arey tərəfindən öldürülən Adonida Afrodita tərəfindən çiçəyə çevrildilmişdi. Payızın gəlişi ilə ona matəm saxlanılar, ağılar deyilər, yazın gəlişi ilə isə dirilişi naminə bayram edilərdi. Bu personajın prototipi rolunda qədim şumerlərin çobanlar və

təbiət tanrsı Dumuzi çıxış etməkdədir. Dumuzi kultunu şumerlərdən alan akkadlar və onların varisləri babillilər Dumuziyə "Təmmuz" deyirdilər ki, yunanlar da sonradan onu "Dionis"ə çevirmişlər.

Adrianos // **Adriyanos** // **Addrianos** x. ism. – Roma imperatoru Publiy Eliy Adrian Trayan (76-138)

afat ~ (-nı, -ta) ism. (< azər. < ər.).- afət, bədbəxtlik, fəlakət, təbii fəlakət, epidemiya: **Bu yazıxlar üçün Tenqri türlü-türlü yaman berir dunyanınq üstünə: xılıç, açlıx, olcalıx, afat, nahlı ölüm.** Bu günahlara görə Tanrı dünyaya cürəbəcür fəlakətlər göndərir; qılınc, aclıq, əsirlik, gözlənilmz (vaxtdan əvvəl) ölüm. **Kötür öcəşməxinqni yaratkanlarınqdan, açlıxnı, xılıç kötürməxni, afatnı, xardaşlıxımızını bizim saxla tügəl sövüktə tirilmə birliktə.** Çək qəzəbini öz yaratdıqlarından, aclığını, qılıncını, təbii fəlakətini, bizim tam sevgi və qardaşlığımızı saxla ki, birgə yaşayaq.

ağa (-nınq; -sı, -sın; -lar, -larnınq, -larğa, -lardan, -larım, -larımda; -larımız; -ları, -larına, -larından) // **aha** (-sına; -lar, -larğa) ism. - 1. böyük qardaş: **Niğol Can oğlu, Sultannınq ağası.** Niğol Can oğlu, Sultanın böyük qardaşı. 2. ağa: **Sultan yeniçeri ağasın yürəklənip xondikar mənzul etti.** Sultan qəzəblənib, yeniçərilərin ağasını – xotkarı vəzifəsindən azad etdi.

ağaç (-nınq; -qa, -nı; -ta, -tan, -tandır, -lar, -larnınq, -larğa, -lardan, -larım, -larımda; -larımız; -ları, -larına, -larından) // **ahaç** (-tan; -ına) // **axaç** ism. – ağac, dəyənək, zopa: **Xadaldi xaçqa ki, bizni çeşkay baqdan da baqışlağay aqaçın tirlikninq ornuna ağaçınınq ölümnünq.** Xaça mıxlandı ki, bizi bağlardan azad etsin və ölüm ağacı əvəzinə həyat ağacı bağışlasın. **Eki bazıx ağaçtır, ne üsnə kemidir, burnuna kemininq yabuşupturlar.** Gəminin üzərlərində qərar tapdığı iki möhkəm şalban gəminin burun tərəfində pərçimlənibiər. **Anq... ağaçlar bilə tüvüp sürgənlərni.** Xatırla... necə ağacla döyüb səni qovurdular.

ağaça ism. – əmi, atanın qardaşı: **Ağaça ya atam xardaşı.** Əmi və ya atamın qardaşı.

ağa-xardaş // **aha-xardaş** ism. – qardaşlar, böyük və kiçik qardaşlar.

ağalıx (-nınq, -qaa; -ınq; -ların) ism. – ağalıq, hakimiyyət, hökmranlq: **Bergin manqa sövünçlükün xutxarılma anınq da can ağalıxınq bilə seninq toxtat meni. (**Məz. 50/51: 14). Məni azad et hökmünlə, qan tökmək təqsirindən məni qurtar.

ağarlan ~ Bax: **ağırlan** ~

ağart // **axart** ~ fel. (TZ) – ağartmaq.

ağart ağın Bax: **axart** ~

ağça Bax: **axça**

ağit // **tağit** – ibrani əlifbasının hərflərindən birinin adı. Bu kəlmə alban (qarqar-qıpçaq) əlyazmalarından yalnız "Zəbur"un yer aldığı əlyazmalarda, ibrani hərflərinin adı çəkilən məzmurlarda (Məzmur 119) işlənməkdədir.

ağı ~ (nqnınq, -nqnı) ism. – 1. acı (dad); 2. acı, üzüntü, dərd, kədər, təəssüf, ağrı:

Oşta haqsız xazğandı törəsizlikni, yüklıdi ağını da toğurdı törəsizlikni (Məz. 7: 15). Pislər hiyləyə hamilə olar, şər üçün ağrı çəkər, yalan doğar. 3. acıq: **Xorxuludur öçəşməxi ağinqnınq seninq yazıxlılar üsnə.** Sənin günahkarlara

qəzəb və acığın qorxuludur. **Tik, Biy, ağınqnı da xorxunqnu seninq yürəkimə menim.** Öz acıq və qorxunu ürəyimə sal mənim (ki, yolumu çaşmayım).

ağın I Bax: **axın**

ağın II Bax: **sığın**

ağın ~ (-ınqız, -sınlar, -dınq, -dı, -dılar, -ıpdırlar, -ıyır, -ıy edi, -ğanda, -ğanqnı, -ğanna, -ğanından, -maxnınq, -maxnı, -maxta, -maxtan, -maxı, -ma, -maxınınq, -maxın, -maxında, -maxından, -ıp) fel. – ucalmaq, yüksəlmək, qalxmaq, göyə qalxmaq, qeybə çəkilmək: **Ağınınqız, buyruxçılar, eşikinqizdan sizinq yoğarı, ağınsınlar eşiklar menqilik da kirgəy xanı haybatnınq (**Məz. 23/24: 7). Ey darvazalar, başlarınızı qaldırın, ey qədim qapılar, açılın, əzəmətli Xan içəri daxil olsun! **Çıxtı kerovpelərdən da uçtu, ağındı ol xanatlarında yellarninq (**Məz. 17: 11). Bir keruva minib uçdu, yel qanadları üstə qalxıb şığıdı. **Ağındı ulu körkünq seninq dağin biyik, ne ki kök (**Məz. 8: 2).

İsmin bütün yer üzündə nə qədər əzəmətlidir!

Ehtişamın göylərə qalxır.

Buyruxçılari joğovurtnunq yığıldılar alnına Tenqrisininq Aprahamnınq, zera Tenqrininq xuvatlari yerdən asrı ağındılar (Məz. 46/47: 10). İbrahimin Tanrısının xalqı ilə bir yerdə olmaq üçün xalqların əsilzadələri yığılır, çünki yer üzünün sipərləri Tanrınındır. O nə qədər ucadır! **Çıxardı alarnı tağina arilikininq kendininq, tağ ol, xaysi ki tapunup edi onqu aninq. Keri etti yüzündən alarnınq dinsizlərni, ülüşlü etti alarnı ülüşünə menqərmaxininq kendininq, da acindirdi otaxına alarnınq cinsin Israjelninq** (Məz. 77/78 54, 55). Onları Öz müqəddəs torpağına, sağ əli ilə aldığı dağlar diyarına gətirdi. Onların qarşısından başqa millətləri qovdu, torpaqlarını da İsrail qəbilələrinə mülk olaraq payladı, Yaşamaq üçün yurd-yuvalarını onlara verdi.

ağır (-men, -dır, -dırlar; -nı; ıı, -ın) // **ağr** // **ahır** sif. – ağır, sanballı, tutumlu kütləsi böyük olan, çətin, dözülməz, çəkilməsi zor olan: **Bitiklərinq ağırdırlar da küçlü, evet körümü teninqninq küçsüz, da sözünq heç etilgən** (ll Kor. 10: 10). Onun məktubları sanballı və təsirlidir, özünü görəndə isə zəhmsiz, nitqi də heçdir. **Xorğaşından ağirdir.** Qurğuşundan ağırdır. **Ol ağır xıyın tibinə klədinq azğına tinməgə.** Bu ağır işkəncələr zamanı o azacıq dincəlmək istədi. **Yaşırma bolmağaylar bizim ağır ögütümüz tibinə.** Onlar bizim ağır öyüd-nəsihətimizdən sonra heç bir şeyi gizlətməməlidirlər **Tenim bilə ağırmen da canım bilə xaramğulanıpmen.** Bədənim ağırlaşdı, ruhum tutqunlaşdı. **Ağır tenim yenqilləngəy çalışmaxqa barça türlü yaxşılıxnı.** Hər cür xeyirli işlər görmək üçün, qoy, ağır bədənim yüngülləşsin. **Kelinqiz, barça emgəgənlər da ağır yüklülər yazıx bilə da men tinçlix berirmen sizgə (**Mat.11: 28). Ey bütün əməkçilər (yorğunlar) və yükləri ağır olanlar, günahlarınızla yanıma gəlin, Mən sizə rahatlıq verərəm. **Yazıxlı xulunq da ağır yüklü yazıx bilə, tüşiymen alnnqa seninq, Biyim menim da Tenqrim.** Mən, Sənin günahkar və çətinliyə düşmüş qulun, qarşında səcdəyə qapanıram, Rəbbim və Tanrım mənim. **Ağır zamanlarına.** Çətin vaxtlarında.

ağırayaxlı (nınq) – 1. ism. hamilə qadın: **Neçik ınçxanğanı ağırayaxlınınq ki, yetişiptir zamanəsi toğurmaxınınq da ağrıxından ınçxanğay** (Yeş. 26: 17).

Hamilə qadın doğuş vaxtı gələndə ağrı çəkib qovrularaq necə qışqırırsa. 2. sif. hamilə ~: **Ağırayaxlı xatun.** Hamilə qadın.

ağırıxlı Bax:. **ağrıxlı**

ağırlan ~ (-ma, -masın, -malıx, -manqız; -dım, -dı, -dıx, -dılar; -madı; -ıpmen; -masbiz; -ıyırmen, -ıyırlar; -ğaymen, -ğay, -ğaysız; -mağay, -mağaysız; -mağay edi; -sa; -ğan, -ğanğa, -ğanıma; -maq, -maxqa, -maxlarından; -mıyın; -ıp) // **ahırlan** ~ (-manqız) fel. – ağırlaşmaq, tənbəllik etmək: **Evet yaxşı etmə ağırlanmalıx ki, zamanəsinə kensininq çalğaybiz, salınmıyın (**Qal. 6: 9). Yaxşılıq edərkən tənbəllik etməyək (ağır tərpənməyək). Çünki əgər həvəsdən düşməsək, vaxtında biçərik. **Egər kimesə inanğan tullar saxlağay, yetkinçə bolsun alarğa da ağırlanmasın yıxövgə, zera köni tullarğa yetkinçə bolsun** (l Tim. 5: 16). İmanlı (mömin) kimsə, qoy, dul qadınlara yardım etsin. Kilsənin yükü ağırlaşmasın ki, həqiqi dul qadınlara yardım edə bilsin. **Hər zaman alğış etiinqiz da ahırlanmanqız** (Mat. 26: 41). Hər zaman dua edin ki, ağırlaşmayasınız (tənbəlləşməyəsiniz). **Anınq üçün ağırlandım ol millət bilə ya igrəndim da ayttim: "Tiyğisiz bularıptırlar yürəkləri bilə da alar tanimadılar yollarımnı menim" (**İbr. 3: 10). Buna görə o nəsildən zəhləm getdi. Dedim: "Onlar həmişə ürəklərində azır, yollarımı tanımırlar". **Ağırlandı xolunq seninq üstümə menim kündüz u keçə.** (Məz. 31/32: 4).

Əlin üzərimdə gecə-gündüz ağırlaşdı,

Sanki yayın quraqlığı məni taqətdən saldı.

Yedi Jağop, toydu, ağırlandi sövüklü (Qan. 32: 15). Yedi Yaqub, doydu, əzizxələf ağırlaşdı (piyləndi). **Zera kləmən biliksiz bolma sizgə, xardaşlar, tarlıxımiz üçün bizim bolğan Asiyada, zera artıx küçümüzdən çıxarı ağırlandıx anqar ança ki, umsasız da boldux tirliktən (**ll Kor.1: 8). Ey qardaşlar, Asiya vilayətində çəkdiyimiz əziyyətlərdən bixəbər olmağınızı istəmirəm. Gücümüzdən daha artıq bir yük altında qaldıq. Hətta yaşamaqdan belə, ümidimizi kəsmişdik. **Xaçan ağırlansa, Eyəmninq alnına tökkəy alxışın kensininq (**Məz.101/102: 1). Ağırlaşdığında Rəbbə alqış et, ey könlüm.**Anınq üçün bar bizdə bu xulux, ne türlü ki taptıx yarlığamax da ağırlanmaq (**ll Kor. 4: 1). Beləliklə, bizə verilən mərhəmətlə bu xidmətə təyin olunduq.

ağırlat ~ (-tım, -tnq, -tı; -madım; -ıyırmen, -ıyır; -qan) fel. – ağrlaşdırmaq, çətinlik yaratmaq, yük olmaq: **Özgə yixövlərni yırttım, alıp azıx sizinq xuluxunquzğa da xaçan keldim sizgə, egər ki nemə eksildi da esə, kimsəni sizdən ağırlatmadım (**ll Kor. 11: 8, 9). Sizə xidmət etmək üçün başqa cəmiyyətlərdən təminat alaraq sanki onları soydum. Yanınızda olarkən ehtiyacım olduğu halda heç birinizə yük olmadım.

ağırlıx (-qa, -nı, -tan; -ıma; -ınq, -ınqnı; -ı, -ına, -ın, -ından; -larından) ism. – ağırlıq, çətinlik, darlq, sıxıntı: **Körgüzdünq joğovurtunqa ağırlıxnı da berdinq içmə bizgə çaxırın essizlikninq** (Məz. 59/60: 5).

Göstərdin öz xalqına çətinlikləri,

Şərab içirərək bizi səndələtmisən. **Tarlıx da ağırlıx üsnə barça adamlarnınq, kim ki xılınır yamanlıxnı, əvəl cuhutnunq, sonqra qurkçnınq** (Rom. 2: 9). Pislik edən hər kəsə – əvvəlcə yəhudiyə, sonra da bütpərəstə əziyyət və sıxıntı (ver).

ağırsız sif.. – ağrısız, əziyyət çəkmədən, incimədən: **Ağırsız Biyimiz Krisdosnu toğurdu.** (Məryəm) bəyimiz (Rəbbimiz) Məsihi ağrısız doğdu.

ağırt ~ fel. – ağrıtmaq, ağrı hiss etmək: **Ne xadar birgəsinə baş ağırttı.** Ona görə nə qədər başı ağrıtdı (əziyyət çəkdi).

ağıryüklü Bax: **ağır**

ağıştırırmen Bax: **alğıştır** ~ (-ırmen)

ağız (-nınq, -ğa, -nı, -dan; -ım; -ınqnı; -ın; -lar; -larımız; -ları, -larınınq, -larına, -ların, -larında, -larından) // **ağz** ~ (-ım, -ımnınq, -ıma, -ımnı, -ımda, -ımdan; -ınq, -ınqnınq, -ınqa, -ınqnı, -ınqdan, -ı, -ıdır, -ınınq, -ına, -ınadır, -ın, -ını, -ında, -ından; -ımız, -ımızını, -ımızda; -ınqız, -ınqızını, -nqızdan, -ıları, -ılarımız, -ılarn), // **ahz** (-ımızda) ism. – ağız, dil: **Xazğanğanı ağızlarınınq kendilərininq yapqay alarnı (**Məz. 139/140**:** 10). Ətrafımdakıların ağzından çıxan pis sözlər, qoy, öz başlarına tökülsün! **Xoydular kökkə ağzların kendilərininq da tillərin kendilərininq aylandırdılar yer üstnə tillərin kensilərininq aylandırdılar yergə (**Məz. 72/73: 9).

Ağızlarını göylərin əleyhinə açırlar,
Dillərindəki sözləri dünyanı gəzib-dolaşır.

Turğuzdu bizgə munquz xutxarılmaxnınq övündən Tavitninq, xulununq kendininq, necyik sozlədi ağızları bilə arılarnınq ki, menqiliktən markarelər edilər (Luk. 1: 69, 70). O, qulu Davudun nəslindən bizə qüdrətli Xilaskar yetirdi. Qədimdən bəri Öz müqəddəs peyğəmbərlərinin dili (ağzı) ilə bildirdiyi kimi. **Evet bilirbiz, ne ki bir oğurdan orenk aytır alarğa ki, orenk tibinədirlar, aytır ki, barça ağız tiyilgay, da borcylu bolgay barça dünya Tenqrigə (**Pom. 3: 19). Biz bilirik ki, Qanunda deyilənlərin hamısı Qanunun hökmü altında olanlara aiddir; belə ki bütün dillər sussun və bütün dünya Allahın hökmünə məruz qalsın. **Alar yanqşasnlar ağızları bilə kensilərininq da itidir ağızlarına alarnınq** (Məz. 58/59: 8).

Gör dodaqlarından nələr tökülür,
Ağızlarından iti qılınclar çıxır.

Xaytıp andan ötləş sunalıx xurban alğıştan hər sahat Tenqrigə, budur ki yemişin ağıznınq tapunğanlarğa atına anınq (İbr. 13: 15). Onda onun vasitəsi ilə Tanrıya həmd qurbanını, yəni Onun adını iqrar edənlərin dilinin (ağzının) bəhrəsi olan sözləri təqdim edək.**Tas et, Biy, barça ustat ağızını da ulu sözlü tilni** (Məz. 11/12: 4).Ya Rəbb, yalan danışan hər bir ağzı yum, hər lovğa dili kəs!

ağızlıx // **ağızlx** // **ağzlx** Bax: **yügən**

Ağkermən Bax: **Axkermən**

ağlasalan ~ Bax: **alğasalan** ~

ağpaş Bax: **axpaş**

ağr Bax: **ağır**

ağrı ism. – ağrı, sancı

ağrı ~ fel. – ağrımaq, incitmək: **Kördüm sizni xayğulu da ağrıdır manqa.** Sizi qayğılı (qəm-kədər içində) gördüm və bu məni üzür.

ağrı ~ (-dı, -dılar; -ıy edi; -yır, -ıyırlar; -ırlar; -sa, -sarlar) **ahrı** ~ (-ma) – fel - ağrımaq, xəstəlik keçirmək, əziyyət çəkmək: **Közlərim menim ağrıdı, kuçsüzləndilər miskinliktən** (Məz. 87/88: 10). Bu zülmümdən gözlərimin nuru

sönür. **Yarlığa manqa, Biy, zera xastamen, sağayt boyumnı, zera ağrıdılar (muşxullandılar) sövəklərim** (Məz.6: 3). Mənə rəhm et, Ya Rəbb, çünki xəstəyəm (taqətim qalmayıb). Mənə şəfa ver, sümüklərim sızlayır. **Egər ki ağrısa bir xaysı gövdə, ağrırlar barça gövdələr birgəsinə da egər sövünsə bir gövdə, sövünürlər barça gövdələr birgəsinə (**I Kor.12: 26). Buna görə əgər bir üzv əzab çəkirsə, başqaları da onunla birgə əzab çəkir. Üzvlərdən biri şərəfə çatırsa, başqaları da onunla birgə sevinir.

ağrığ Bax: **ağrıx**

ağrığlı Bax: **ağrıxlı**

ağrıx (-nınq, -qa, -nı, -ta, -tan; -ım, -ımnınq, -ıma, -ımnı, -ınq, -ı, -ınınq, -ına, -ın, -ında, -ından, -ınqız; -lar, -larnı, -lardan; larım, ~larımnınq, -larıma, -larınqnı, -ları, -larınınq, -ların) // **ağrığ** (-nınq, ların) // **ağrx** // **ahrıx** (-ına, -larım) ism. – ağrı, sızıltı, sancı, xəstəlik, taqətsizlik: **Xarxış da lağılıx da hilləlik toludır ağzına anınq da tibinə tilininq anınq ağrıx da xazğanç (**Məz. 9/10: 7). Onun ağzı qarğışla, hiylə ilə, hədə ilə doludur, dilinin altında ağrı və şər var. **Körərsen sen an ağrıta da yüraklənməxinə baxarsen, sanqa xoyuluptur miskin da öksüzgə sensen boluşuçı (**Məz. 9/10: 35). Amma Sən bu əzab-əziyyətə baxırsan, məzluma kömək əlini uzadırsan. Biçarə özünü Sənə tapşırar, yetimlərin imdadı Sənsən. **Neçik ınçxanğanı ağırayaxlınınq ki, yetişiptir zamanəsi toğurmaxınınq da ağrıxından ınçxanğay (**Yeş. 26: 17). Hamilə qadın doğuş vaxtı gələndə ağrı çəkib qovrularaq necə qışqırırsa. **Zamanı yillarımıznınq bizim tıyğısız, neçik örməşüx da sani künlərimizninq yıllarımıznınq bizim, alar da yetmiş yil. Egar ki artıx dağın – seksen yil, xaysi nemə artıx, ne ki andan, ağrıx bilə da küstünməx bilə (**Məz. 89/90: 10).Yetmiş il ömür sürərik, sağlam olsaq, səksənə yetişərik. Ən yaxşı çağımız belə, zəhmətlə, kədərlə keçir. Ömrümüz tez bitir, uçub-gedir. **Biy boluşuçıdır anqar töşəkində ağrıxınınq kendininq, barça ornun anınq xaytarır xastalıxndan anınq (**Məz. 40/41: 4).

Yatağa düşəndə Rəbb ona dayaq olar,
Onu bütün xəstəlikdən sağaldar.

Baxtım biyiklikkə, Biygə, Tenqrimə menim ki, xutxardı meni da ketərdi mendən ağrıxımnı canımnınq menim (Yeş. 38: 14). Baxtım ulu Rəbbə, Tanrıma ki, məni xilas etsin, canımdan ağrını aparsın.**Xaytsın ağrıxlar başına anınq, tebəsi üsnə anınq törəsizliki kendininq engəy (**Məz. 7: 17). Yamanlıqları öz üstlərinə dönər, zorakılıqları başlarına düşər. **Zera matritsası barça yamanlıxnınq kümüş sövməxlixtir, xaysına ki xaysıları suxlanir, boş xaldılar inamlarından da boyların xoydılar köp ağrıx tibinə (**I Tim 6: 10). Çünki hər cür pisliyin kökü pulpərəstlikdir. Kimlərsə bu həvəslə imandan azıb öz-özlərinə sanki bıçaq soxmuş kimi çox əzab verdilər. **Ağrıx bilə toğursarsen oğlunu** (Yar. 3: 16). Uşaqlarını ağrı içində doğacaqsan. **Negə dirə xoysarmen sağışımnı canımda menim da ağrı yürəkimninq menim künlərni? (**Məz. 12/13: 3).

Nə vaxtadək qəlbim qəmli olacaq?
Könlümdə hər günmü qubar qalacaq?

Eksildilər ağrıxlardan tirlikim menim da yıllarım menim can çıxmaxtan (Məz. 30 / 31:11).

Əksildi ağrılardan həyatım,

Can dərdindən illərim mənim.

Oşta haqsız xazğandı törəsizlikni, başladı ağrıxnı da toğurdı törəsizlikni (Məz. 7: 15).

Pislər hiyləyə hamilə olar,

Şər üçün ağrı çəkər, yalan doğar.

ağrıxlı (-men) // **ağrığlı** // **ağırıxlı** sif. – xəstə, ağrıyan, dərdli, yorğun: **Yarlı da ağrıxlımen men, xutarmaxınq seninq, Tenqri, yöpsüngəy meni** (Məz. 68/69: 30).

Mən məzlumam, dərdliyəm,

Ey Tanrı, Sənin qurtuluşun məni ucaltsın.

Heçtir sizgə turma ertərək, hali turunquz, negə dinqrə ki, yuxlamıyırsiz, xaysılarınqız ki yiyirsiz ötmək ağrıxlı, zamanına, neçik berilgəy yuxu sövüklülərinə kendininq (Məz. 126/127: 2). Erkən qalxıb gec yatmağınız, azuqə üçün özünüzü çox yormağınız faydasızdır. (Tanrı) sevdiklərinə yuxuda olanda belə, verər.

ağrıxsız sif. – ağrısız, asan: **Ağrıxsız tirilik.** Ağrısız (asan) həyat.

ağrılan ~ (-ğanıma) fel. – ağrı hiss etmək, ağrıdan əziyyət çəkmək, sancılanmaq: **Bax manqa da işit manqa, zera xayğurdum men ağrılanğanıma menim da öçəşləndim (**Məz. 54/55: 3). Bax mənə və məni dinlə, çünki qayğı içindəyəm, ağrı çəkirəm və əsəbləşmişəm.

ağrıt ~ (-man) fel. – ağrıtmaq, incitmək, ağrı vermək.

ağrx Bax: **ağrıx**

ağsax Bax: **axsax**

ağu (-nu; -su; -lar; -ları, -larına) ism. – zəhər: **Etti yerni yemişli tuzlu, ağu kibik, yamanlıxı** üçü**n anda turğanlarnınq (**Məz.106/107 34). Orada yaşayanlara pislik etmək üçün münbit torpağı zəhər kimi bir şoranlıq etdi. **İtilədilər tillərin kendilərininq, neçik yılan, da ağuları oxyılanlarnınq tibina erinlərininq alarnınq (**Məz.139/140: 4).

Kəskin dilləri ilan tək çalar,

Sanki dodaqlarında gürzə zəhəri var.

ağulan ~ (-ğan; -ıp) fel. – zəhərlənmək

ağulu (-lar) sif.. – zəhərli

ağulux ism. – zəhərlilik

ağusuz sif. – zəhərsiz

ağz Bax: **ağız**

ağzı Bax: **ağız**

ah nida – ah! Ah çəkmək. Müxtəlif vəziyyətlərdə çıxarılan nida. Ağrı, həyacan, həsrət bildirir. Bax: **ax** II

aha Bax: **ağa**

ahaç Bax: **ağaç**

Aharon (-nunq, -ğa, -nu) x. ism. (yəh.) – Həzrət Harun (ə). Yəhudi peyğəmbərlərindən biri. Həzrət Musanın (ə) qardaşı.

ahça Bax: **axça**

ahır Bax: **ağır**

ahrı Bax: **ağrı** ~

ahrıx Bax: **ağrıx**

ahırlan ~ Bax: **ağırlan** ~ (manqız)

ahval ism. (< azərb. < ər) - əhval

ahz Bax: **ağız**

ax I (-nı, -tan; -lar) 1. sif. – ağ, bəyaz, çal: **Çurğadılar ax ketannınq içinə.** Ağ kətanın içinə bükdülər. 2. ism. – ləkə, ağ ləkə, ağ xal: **Közü üsnə ax.** Gözündəki ağ xal (ləkə).

ax II Bax: **ah**

ax ~ (-ma, -maga, -tım, -tınq, -tı, -tılar; -ar; -ar edi, -ar edilər, -ıyır, -ıyırmen, -ıp edi, -qaylar, -sa, -qan, -qannınq, -qanğa, -qannı, -qanı, -qanın, -qanında; -qanlar; -qanlarına; -max, -maq, -maqnı, -maxtan, -maxı, -mağlar) fel – **Zera urar edi xayanı da axar edi suvlar da irmaxlar ketərlər edi kendindən (**Məz. 77/78: 20).

Nə olsun qayaya vuranda sular axdı,
Sellər aşıb-daşdı.

Yeberdinq çövəxlər çuğurlarına, tağlarnınq arasına axqaylar suvlar (Пс103/104).

Bulaqları vadilərdən fışqırtdın,
Dağların arasından axıtdın.

axaç Bax: **ağaç**

axar ~ (-dı; -ıyırmen, -ıyırlar, -ğan; -ğınça) fel. – ağarmaq, saça dən düşmək, yaşlanmaq: **Çax axarğınça da xartayğınça, Tenqrim menim, xoymağın meni** (Məz. 70/71: 18).

Yaşa dolub saçıma dən düşənə qədər,
Ey Tanrım, məni tərk etmə.

axart ~ (-ma; -tım, -tınq, -tı, -tıx, -tılar; -qan) Bax :**ağart** ~

axbaş Bax: **axpaş**

axça (-dır; -nınq, -ğa, -nı, -da, -dan; -larnı, -m, -mnı, -ınqnı, -sı, -sıdır, -sına, -sın, -sından, -mız, -ları, -ların) // **ağça** (-nı, -sın), // **ahça** ism. – pul, para, axça. Əski türk pul vahidi: **Alardır ki, axçasın aslamğa berirlər da axçasın yerlər, alarnı da otlu yuxusuz xurtlar yeyirlər ki, alar yedilər yarlininq xanın da toxmağan kümüşnü toğurdular, toğdu alarğa yuxusuz xurtlar da ulu xıyın yürəklərininq üstünə.** Bu onlardır ki, axçalarını sələmə verirlər və onların (borcluların) pullarını yeyirlər, onları da odlu, yuxusuz qurdlar yeyirlər. Onlar kasıbların qanlarını içdikləri üçün və onu doğmayan (artım gətirməyən) gümüşə çevirdikləri üçün axçaları (onları didib – didişdirən) odlu, yuxusuz qurdlara çevriliblər. **Bardır axpaşlar arasına ki, biliksizdir da axça küçü bilə tanqlağandır** (Mxitar Qoşun "Törə Biriqi" kitabından). Yepiskoplar içərisində elələri də var ki, savadsızdırlar və (vəzifəyə) axça gücünə seçiliblər.

axçala ~ fel. – axçalamaq, pula çevirmək.

axçalıx sif.. – axçalıq. Müəyyən bir rəqəmlə birlikdə işlənərək hər hansı bir məbləği və həmin məbləğə müqabil malı bildirmək üçün işlənir: **Ötmək 1 axçalıx 20 hroşqa edi.** 1 axçalıq çörək 20 quruşa idi. **Aldı 24 axçalıx raxı.** 24 axçalıq rakı (araq) aldı.

Axitopxel x. ism. (< Axıtofel yəh.) – Bibliya (Əhdi-Ətiq) personajlarından biri. Virsaviyanın babası. Həzrət Davudun (ə) müşaviri olmuş və Avessalomun

yanına gələrək, onu öldürməyi təklif etmiş şəxs. Onun iblisanə fikir və tövsiyyələrinin Allahdan gələn vəhylər olduğu zənn edilmişdir.

axıl (-dır, -nınq, -ğa, -nı, -da, -dan; -ım, -ımnı, -ınq, -ınqa, -ınqda; -ı, -ınınq, -ına, -ın, -ında, -ından, -ımız, -ımızğa, -ımızını, -ınqızğa, -lar, -larnı, -ları, -ların, -larından) ism. (< azərb. < ər.) – ağıl, idrak, müdriklik: **Ağzı toğrununq sağışlar, saxlar axlını da tili anınq sözlər könülüknü (**Məz. 36/37: 30). Salehin ağzından hikmət çıxar, dili haqq söz danışar. **Xan ulu barça yerdə Asduacdör, salmos aytınqız anqar axıl bilə (**Məz. 46/47: 8).

(Çünki Tanrı) bütün yer üzünün Xanıdır,

Ağıl ilə onu ilahi nəğmələrlə tərənnüm edin.

Muşxullandılar, seskəndilər, neçik esiriklər da barça axıllar alarnınq tüştü (Məz. 106/107: 27).

Onlar sərxoş kimi yırğalanıb-səndələyirdi,

Ağıllarına heç bir çarə gəlmirdi.

“Bolmanqız neçik at da xatır, zera yoxtur alarda axıl, yügəndə da noxtada xıstırırsen yanqaxların ki, yügən bilə da noxta bilə xoğaysen yanqaxların alarnınq ki, sanqa nemə yuvuxlanmağaylar” (Məz. 31/32: 9).“At yaxud qatır kimi şüursuz olmayın. Cilov, yüyən vurulmasa, onlar idarə edilə bilməz”. **Uludur Biyimiz bizim da uludur xuvatı anınq, xaılına anınq yoxtur yetişməx (**Məz. 146/147: 5). Xudavəndimiz əzəmətlidir, qüvvəti çoxdur, dərrakəsi hədsizdir!

axıllat ~ (-tım, -tınq, -tı, -ıyırmen) fel. – ağıllandırmaq, maarifləndirmək, ağıl vermək

axıllı (-dır, -dan, -lar, -larnınq, -larnı, -larda, -lardan. -ları) sif..- ağıllı, müdrik: **Biy köktən baxtı barça adam oğlanlarına körma ki, bolğay kimsə axıllı ki, izdəgəy Tenqrini (**Məz. 13/14: 2). Rəbb göylərdən bəşər övladına baxır. Görəsən Tanrını dərk edən, Onu axtaran ağıllı varmıdır? **Xaçan körsənq ki, axıllılar ölərlər, birləmə fəhamsızlar da essizlər tas bolurlar da xoyarlar yatlarğa ululuxların kendilarininq... (**Məz. 48/49: 11). Nə zamanki müdriklərin də ağlsızlar kimi öldüklərini və olan-qalanlarını özgələrə qoyub getdiklərini görsən.. **Alğışlıyım Biyni ki, axıllı etti meni, çax ki keçəgə dağın ögütlədilər meni bövrəklərim menim (**Məz. 15 /16: 7).

Mənə nəsihət verən Bəyə (Rəbbə) alqış edirəm,

Hətta gecələr də vicdanım mənə ağıl öyrədir.

Törəsi Eyəmizninq zədəsizdir da xaytarırlar canlarnı, tanıxlıxı Eyamizninq könüdür da axıllı etər oğlanlarnı (Məz.18/19: 8).

Rəbbin qayda-qanunları düzdür, ürəyi sevindirir,

Rəbbin əmrləri pakdır, gözləri aydın edir.

axıllıx (-nınq, -nı, -lar) ism. – dərrakə, müdriklik, ağıllılıq, savad:

axılsız (-dır, -nınq, -dan; -lar, -larnınq, -larnı, -lardan) sif.. – ağılsız, dərrakəsiz, savadsız, axmaq, boşbaş, kütbeyin: **Dügül bu oldur, xaysı ki, Eyəmizgə tolar edinqiz siz, yığınları axılsızlar da dügül axıllı (**Qan. 32: 6).

Ey axmaq, ağılsız xalq,

Rəbbə budurmu əvəziniz?

axılsızlan ~ // **axılszlan** ~ (-ma, -dım, -dınq, -dı, -dıx, -dınqız, -dılar; -ıyır; -acaxmen, -acax; sar) fel. ağlını itirmək, dəli olmaq, ağılsızlaşmaq

axılsızlat ~ (-ıyırmen, -ıyırsen, -ıyır) fel. – ağılsızlatmaq, ağıldan çıxarmaq, dəli etmək

axılsızlıx (-nınq, -qa, -tan) ism. – ağılsızlıq, məsuliyyətsizlik, dəlilik: **Körgüzdünq joğovurtunqa seninq berklikni (ağırlıxnı) da berdinq içmə bizgə çağırnı axılsızlıxnınq** (Məz. 59/60: 5).

Göstərdin ümmətinə öz acığını,
Bizə ağılsızlıq şərabı içirdin.

axın (-dan, -ı, -ın, -ına, -lar, -larnı, -larda, -larınqnınq, -larına) // **ağın** (-ına) // **axn** ism. - axın, bulaq, çay, şəlalə, sel, dalğa: **Terənliklər terəndən sarnadılar sanqa avazına axınlarınqnınq seninq (**Məz. 41/42: 8). Dərin sular şəlalələrinin səsi ilə dərin suları çağırdı. **Axınlarda keçtilər boyumuz bizim, axınlarda tıyğısız** (Məz. 123/124: 4).

Sular bizi yuyub-aparardı,
Sellər üstümüzü basardı.

Axın suvlar endilar közlərimdən menim (Məz. 118/119: 136). Gözlərimdən sellər kimi yaş axır, **Yaxasna axın suvnunq Papelonnunq (**Məz. 136/137: 1). Babil torpağında, çay kənarında.

axın ~ (-ğan, -max) fel. – axmaq, süzülmək:

-Almaxlıx kim kimdən?

-Oğul toğmax bilə ilgəri kelir Atadan da Can axınma bila kenə ol Atadan (Qriqori Hamamanın "Alban dilinin qrammatikası" kitabından)

-Varislik kimdən kimə?

-Oğul doğuşu ilə Atadan, Ruh isə süzülmək yolu ilə yenə Atadan.

axınsuv (-dan, -lar, -lardan; -ların) ism. – axarsu, çay, çay qolu, sel, şəlalə: **Yolda köp kez, tarlıx axınsuvlardan** (ll Kor 11: 26). Yolda çətinlik çox vaxt axarsular səbəbindən olur.

axır (axırım // axrım, -ı) ism. (< azərb. < ər.) – axır, son: **Da axırı xatının olğan kişininq yuvuxları bolmaslar keri etməgə.** Mərhumun yaxınları onun arvadını kənarlaşdırmamalıdırlar.

axirət ism. (< azərb. < ər.) – axirət, o biri dünya, ölümdən sonrakı həyat

axırın zrf. – asta-asta, yavaş-yavaş, sakitcə, yavaşca: **Xulları Tavitninq axırın aytarlar xulaxına Tavitninq.** Davudun nökərləri Davudun qulağına yavaşca dedilər. **Köktəgi yolduzlar beg çust yügüriyirlər da bizgə körüniyirlər ki, yerində turyırlar ya beg axırın yüriyirlər.** Göydəki ulduzlar çox sürətlə hərəkət edirlər, amma bizə elə gəlir ki, yerlərində durublar və ya çox yavaş hərəkət edirlər.

axqan ism. – axma, ifrazat (maye ifraz), düşmə (uşağın düşməsi), yetişməmiş döl.

Axkermən x. ism. – Ağ Kirmən. Əski türk şəhərlərindən biri. Ukraynanın Odessa vilayətində yerləşir.

ax-xara ism. – hərfi tərcüməsi "ağ-qara". Gerçək mənası - mübahisə, iddia: **Axımız – xaramız bolmağay Yaqubğa utru.** Yaquba qarş iddiamız olmayacaq.

axl Bax: **axıl**

axla ~ fel. (-ğan; -maxlar) – ağlamaq, ağartmaq, təmizləmək, paklamaq: **Toqrusuzluxtan bizim yuvunup, axlagan sumenəmizni bizim saxlağaybiz.** Yanlışlıqlarımızdan yuyunub təmizlənərək, öz saflaşmış vicdanımzı qoruyacağıq.

axlan ~ (-ğanlar) fel. – ağarmaq, təmizlənmək, saflaşmaq:

axlamax f. ism. - ağlıq, təmizlik, saflıq

axlat ~ (-tılar; -ıyır) fel. - ağartmaq, təmizləmək, pak etmək: **Axlattılar xanı bilə xozununq tonların kensininq** (Vəhy. 7: 14) Öz geyimlərini quzunun qanı ilə pak etdilər.

axlı l Bax: **axlı-xaralı** və **zaralı-axlı**

axlı ll Bax: **axıllı**

axlıx ism. – ağlıq, bəyazlıq, solğunluq: **Yənəçi kendin yüz axlıxı bilə kendi stolitsasına keltirgəy yaxşı slava bilə sövünçlüxkə.** Yenidən onu öz paytaxtna üzüağ və şərəflə dönəcək və hər kəsi sevindirəcək.

Aqab // **Aqayap** (~nı) // **Axap** x. ism. (< **Axav** yəh.) – Axav. E.ə. 874-852- ci illərdə İsrail şahı olmuş Amvriyanın oğlu.

axlı-xaralı sif. – ağlı-qaralı, ala-bula, qara zolaqlı Bax: **xaralı-axlı**

axlım Bax: **axıl**

axlınq Bax: **axıl**

axlıq Bax: **axlıx**

axmax // **axmaq** fel. – axmaq, maye halında olan cismin cazibə qüvvəsinin təsiri ilə yer dəyişməsi

axn Bax: **axın**

axpaş ~ (-tır, -nınq, -qa, -nı, -ta, -tan, -ı, -ınınq, -ına, -ından, -ımız; -lar, -larnınq, -larğa, -larnı -lardan; -ları, ~larına, -ların) // **axbaş** // **aqpaş** ism. – ruhani, yepiskop: **Ulu der Krikor axpaş olturğanından beri alarnın t'v. Krisdostan beri 1367-də edi**. Ulu keşiş Qriqori yrpiskop taxtına oturanda onların tarixi ilə Məsihin doğumunun 1367-ci ili idi. **Der Krikor Ulu axpaşnınq bitiki yazılıptır 1365-də.** Ulu yepiskop, keşiş Qriqorinin fərmanı 1365-ci ildə yazılıb. **Bardır axpaşlar arasına ki, biliksizdir da axça küçü bilə tanqlağandır** (Mxitar Qoşun "Törə Biriqi" kitabından). Yepiskoplar içərisində elələri də var ki, savadsızdırlar və (vəzifəyə) axça gücünə seçiliblər.

axpaşlıx ~ (-nınq, -qa, -nı, -ta; -ına, -ın) ism. – yepiskopluq: **Inamlıdır sözüm: egər ki kimesə axpaşlıxqa suxlanır esə, yaxşı işkə suxlanır** (l Tim 3: 1). Sözüm inanılasıdır: Əgər kimsə yepiskopluq arzusundadırsa, demək, yaxşı şeyin arzusundadır. **Axpaşlıxına der Krikor arhiaxpaşnınq vanlı, gataliğosluxuna der Krikorisninq.** Van arxiyepiskopu, müaəddəs ata (Van gölündəki Axtamar kilsəsində oturan erməni arxiyepiskopu) II Qriqorinin yepiskopluğundan katalikos (onun müasiri, Gəncəsərdə oturan alban katalikosu) III Qriqorisə.

axrı Bax: **axır**

axrıx Bax: **ağrıx**

axsa ~ (-dılar, axsıyırmen) fel. – axsamaq: **Oğlanları yatlarnınq oprandılar da axsadılar izlərindən kendilarininq** (Məz.17/18: 46). Yadellilərin cəsarəti qırıldı, axsayaraq sığınacaqlarından çıxdılar.

axsaq Bax: **axsax**

axsax (-men, -tır; -nı, -lar, -larğa, -larnı) // **axsaq** // **aqsax** ism. - axsaq, topal: **Anınq üçün salınğan xollarnı da bükülgən tizlərni toxtatınqız da steçqa doğru etinqiz ayaxları**nqı**zğa sizinq ki, bolmağay ki, xaysı axsaxtır ki, yıxılğay, yoxsa dağın artıx ki, saqayğay (**İbr. 12: 12, 13). Buna görə yorğun əllərinizi qaldırın və zəiflənmiş dizlərinizi gücləndirin. Ayaqlarınız üçün düz yollar seçin ki, axsaq bədən üzvləriniz yerindən çıxmasın, əksinə sağalsın. **Antamaluc ayttı ki: "Soxurmen da axsaxmen da özgə tinçsizlixtamen"** Zəifləmiş adam dedi: "Mən koram, axsağam və başqa xəstəliklərdən əziyyət çəkirəm".

Axsapet Bax: **Elisapet**

axsat ~ (-tım, -ıptır, -qay, -sa) fel. – axsatmaq, topal etmək

axtar ~ (-dınq, -dı, -dılar, -ıyırmen, -max) fel. – aşırmaq, baş-ayaq döndərmək: **...Urup Bohdannı attan axtardılar.** ...Vurub Boğdan attan aşırdılar.

axtarıl ~ (-dı, -ır; ğay, -sa, -maxından) fel. – aşmaq, çevrilmək, aşaraq çevrilmək, baş-ayaq olmaq, alt-üst olmaq, yıxılmaq: A**raba axtarılsa ya sınğay...** Əgər araba aşsa, ya sınar... **Barça baxça, xaysın ki tikmiyir Atam menim köktəgi, axtarılır (**Mф15: 13). Göydəki Atamın (Tanrının) əkmədiyi baxça alt-üst olar (xaraba qalar).

axtır ~ (-gın, -sın, -dınq, -dı, -ır; -ıy; -ıy edinq, -ıyırmen, -ıyır edinq, -ğay, -ğaylar, -sar, -ğan, -max, -maxqa) // **axtr** ~ fel. icb. for. – axtırmaq, axıtmaq, süzmək: **Sen axtırdınq çövrəxlərni da axın suvlarnı, sen xuruttunq** ö**zənləni muxam** (Məz. 73/74: 15).

Sən bulaqlar açıb sellər axıtdın, həmişəaxar çayları isə qurutdun. **Axtırğay yürəkim menim qalacılarınqnı seninq yaxşı da aytıyim işimni menim xanğa (**Məz. 44/45: 2). Qəlbim yaxşı sözlərlə çağlayır (ürəyim yaxşı sözlər axıdır), qoy şeirlərimi xana söyləyim, **Kün künnünq axtrır sözün da keçə keçəninq körgüzür bilməxlixin** (Məz. 18/19: 3). Hər gün ertəsi günə nəql edir (axıdır), hər gecə o biri gecəyə bilik verir. Çıx**ardı suvnu xayadan da axtırdı, neçik axın suv (**Məz. 77/78: 16). Qayadan suları sel kimi çıxarmışdı, bu suları çaylar kimi axıtmışdı.

axtıruçı (-nınq) ism. – axıdan, süzən, tökən, axıdıcı.

axtr ~ Bax: **axtır** ~

axuçı f. ism. – axıcı, maye

ajdaha Bax: **acdaha**

Aqusdus Bax: **Avqusdus**

Aqop (-nunq, -qa, -nu, -nı) // **Aaqop** // **Yaqop** // **Yaqovp** x. ism. (yəh.) – şəxs adı, müsəlmanlarda Yaqub kimi işlənən adın alban (qarqar-qəpçaq) türkləri arasında yayğın formalarından biri. Həzrət Yaqub (ə) peyğəmbər. Bu adı həm də Həzrət İsanın (ə) 12 həvvarisindən ikisi daşımşlar: **Toxtattı Jaqopta buyruxun kendininq da İsrayeldə niyətin kendininq menqilik (**Məz. 104/105: 10). Bunu qayda kimi Yaqub üçün təsdiq etdi, bu əbədi əhdi İsrail üçün etdi. **Xaçan boldu Eyəmiz Yisus Krisdos 30 yaşına, yeberdi kendininq arakellərin ki: "Barınqız, dünyada qaroz berinqiz". Yeberdi Bedrosnı, Ohanesni, Andreasnı, Pilibosnı, Partolemeosnı, Mateosnı, Tomasnı, Aqopnı, Şmavonnı.** Rəbbimiz İsa Məsihin 30 yaşı olanda öz həvvarilərini məmur etdi ki; "Gedin, dünyaya müjdə verin". O, Pyotoru, Yəhyanı, Andreyi, Filipi, Varfolemeyi, Matveyi, Fomanı, Yaqubu və Simonu göndərdi.

al I (-ına; -larına, -larından) zrf. – qarşı, ön, qabaq: Tenqrim, törəsizlər turdular üstümə menim da yığınları xuvatlılarnınq izdədilər boyumnu menim da sağınmadılar seni, Tenqri, alnılarına kendilərninq (Məz. 85/86: 14).

Ey Tanrım, lovğalar əleyhimə qalxır,
Bir dəstə zalım canımı almaq üçün məni axtarır,
Səni qarşılarında görmür.

Sağış etərbiz yaxşını dügül ki, alnına Eyəmizninq yalğiz, yox esə allarına adamlarnınq da (ll Kor. 8: 21). Çünki məqsədimiz yalnız Rəbbin qarşısında deyil, insanların da qarşısında doğru sayılan işləri görməkdir.

al II sif. – al, qrmızı. Bu kəlmə "Kodeks Kumanikus"da (CC) ayrıca "al xallı" anlamında da işlənməkdədir.

al ~ (-ma, -mağa, -ıyım, -ayım, -ıyıx, -ınqız, -mağın, -masın, -manqız; -dım, -dınq, -dı, dıx, dıq, -dınqız, -dılar; -dı esə, ~dılar esə, -madım, madınq, -madı, -madıx, madınqız, -madılar; -ıpmen, -ıpsen, -ıptır, -ıpbiz, -ıpsiz, -ıptırlar, -ıp esənq, -ıp esələr, -ıp edi, -ıp edir, -ıp edilər, -ıp edi esə, -ırmen, -ırsen, -ır, -ırbiz, -ırsiz, -ırlar, -man, -mam, -massen, -mazsın, -mas, -maz, -mastır, -mazbiz, -massiz, -mazsiz, -maslar, -mazlar; -ır edim, -ır edi, -ırlar edi, -may, -maylar, -ıy edim, -ıy edi, -ıy edilər, -ıyırmen, -ıyır**a** sen, -ıyır, -ıyırbiz, -ıyırlar, -mıyırsiz, -mıyır, -mıyır edim, -acaxmen, -acax, -ğaymen, -ğaysen, -ğay, -ğaybiz, -ğaysiz, -ğaylar, -mağaysen, -mağay, -mağaybiz, -mağaylar; -ğıy edi, -ğay edik, -ğıy edinqiz, -ğıy edilər, -ıp edir, -sam, -sanq, -sa, -salar, -masam, -masa, -masalar, -salar edi, -sarmen, -sar, -sarbiz, -sarlar, -mısar, -mısarlar, -sar edi, -ğan, -ğanbiz, -ğandır, -ğandırlar, -ğannınq, -ğanğa, -ğannı, -ğanda; -ğanlar, -ğanlarnınq, -ğanlarğa, -ğanlarnı, -ğanınq, -ğanınqnı, -ğanına, -ğanın, -ğan edi, -ğan esə, -ğan bolğaymen, -ğan bolğay, -mağan, -max, -maxtır, -maxnınq, -maxqa, -maxnı, -maxtan, -maxı, -maxnınq, -maxına, -maxın, -maxından, -maxlar, -maxlarnınq, -maxları, -mamax, -maxı edi; -ıp; -mıyın, -ğınça, -mınça, -ğın, -sın) fel. – almaq, götürmək, qəbul etmək: **Bargaymen Jerusalemğa da öçün alğaymen Krisdosnunq.** Yerusəlimə (Qüdsə) gedəcək və Məsihin qisasını alacağam. **Xol yazıxı bilə yazixlımen: Artıx alıp, eksik beripmen, alıp yaşırıpmen, kişininqkinə xıyıpmen, sadağa bermiyirmen, aldapmen, zirgel etipmen, urupmen, xanatıpmen, yazıx da uyat yergə xol uzatıpmen, ne xadar bolupmen dinsizlik, cansızlıx etmə, etipmen, ol xadar canıma xıyıpmen ki, bir boğunumnu sağ da yazıxsız Tenqrigə saxlamıyırmen, meğa Tenqrigə.** Əlimlə günaha batmışam: çox alıb, az vermişəm, alarkən gizlədir, özgə malını qorumurdum, sədəqə vermir, dələduzluq, zoraklıq edir, döyür, qan tökür, zina və əxlaqsız yerlərə əl uzadırdım. Nə qədər allahsızlıq, insafsızlıq varsa, hamısını etmişəm. Canıma o qədər qəsd etmişəm ki, indi Tanrı qarşısında sağ-salamat bircə dənə də əzam qalmayıb.

ala ism. – xala.

alaça (-lar) // **yalaça** (-lar) sif. – ala, alaca, ala-bula, xallı.

alaça-bulaça (-lar) // **yalaça-bulaça** (-lar) sif. – ala-bula, alaca-bulaca

alaf (-ımnı) ism. (< laf fars).- söz, ifadə, danışıq: **Sen menim alafımnı işittinq mi?** Sözümü eşitdinmi?

alax-xulax zrf. – ala-yarımçıq (qulaq asmaq): **Ketti alax-xulax xoymıyın dekretni.** Əmri ala-yarımçıq eşidib getdi.

alaman (-dan; -ı, -lar, lardan) ism. – alman. Etnonim. Germandilli xalqlqrdan birinin adı. Almaniyanın əsas əhalisinin adı.

Alaman (-ğa) x. ism. – Almaniya

alan ism. – alan. Etnonim. Əski qıpçaqdilli türk soylarından birinin adı. Bu gün bir çoxları bu etnonimi yalnış olaraq bugünkü osetinlərə şamil edirlər.

alani (-dir) ism. (< lani ər.) – açıq, aşkar, aydın, açıq-aşkar, məlum: **Bu iş ari bitiklərdə alanidir.** Bu müqəddəs kitablardan açıq-aşkar məlumdur. **Krisdos yarğuçınınq manisi bilə alani etti surp Avedarandan ki, barça, kimesə kimgə borçlu esə, tölöv etkəy yaxşı könqüldən** (Mxitar Qoşun "Törə Bitiqi" kitabından). Məsih öz müqəddəs "İncil"ində açıq-aydın bildirir ki, kimsə kiməsə borclu isə, borcunu könül xoşluğu ilə qaytarmalıdır.

alaniyet Bax: **alani**

alar (-dır, -drlar, -nınq, -nınqdır, -ğa, -nı, -da, -dadır, -dan, -dandırlar) // **anlar** (-nı) əvz. lll şəxsin cəmi. – onlar: B**arçası, xaysı ki aşarlar edilar alar sartın** (Məz. 128/129: 8). Yoldan keçən onlara belə deməz. **Ortaçaxlılarnınqdır yarğu, ortaçaxlı alardır, kimlər ki yazıxlarından xaytıp, pokutovat etiptirlər, alarnınq ölçsər Tenqri yazıxın, pokutasin.** (Mxitar Qoşun "Törə Bitiqi" kitabının XVI əsedə redaktəyə məruz qalmış hissəsindən). Məhkəmə orta vəziyyətdə olanlar, yəni mülayimlər üçündür. Ortadaklar və ya mülayimlər tövbə edərək günahlarını yuyanlardır. Tanrı onların günah və tövbələrini ölçür. **Közü Eyəmizninq üstünə toğrularnınq da xulaxları anınq üstünə alğışlarınınq alarnınq (**Пс33 / 34: 16). Rəbbin üzü şər iş görənlərə qarşıdır, yer üzündə onlardan nişanə qoymayacaq. **Zera alardandırlar ki, kiriyirlər övdən övgə da yəsir etərlər xatınlarnı, yığılıp tolğanlar yazıx bilə, yürügənlər türlü-türlü qusançlıqqa (**ll Tim 3: 6). Bunların arasında evlərə soxulub zəif iradəli qadınları əsir edən adamlar var. Belə qadınlar günahla yüklənmiş müxtəlif ehtiraslarla sövq edilir.

alartıp Bax: **ağartıp**

alay // **alay ox** (-dır) a. s. – beləcə, beləliklə: **Üç igitninq xoltxası, xaysı ki ot içinə Biy Tenqrini haybatlıy edilər. Alay ox biz da haybatlıyıx Biy Tenqrini.** Odlarla əhatə olan üç dəliqanlının Tanrını mədh edən duasıdır. Biz də beləcə Rəbbimiz Tanrını mədh edirik. **Alay ox, neçik yüzləmə, keziyir adam, həlbət, heç yergədən buşurğanıyır, xazğanıyır da bilməs, kimgə yığıştırıyır // Egər ki ne türlu da sürəttə yürür adam, həlbət, boş çalışır, xazğanır da bilməs ki kimgə yığar** (Məz. 38/39: 7).

Beləcə, insan kölgə kimi dolaşır,
Həqiqətən, o boş yerə çarpışır,
Var-dövlət yığır, kimə qalacağını bilmir.

alayı əvz. – bütün bunlar, bunların hamısı: **Anqar Tenqridən alayı berinip.** Onlar – bunların hamısı (bütün bunlar) Tanrı tərəfindən verilib.

alayoxom bağ. – eləcə də, o cümlədən: **Sövündü xannı xannınq da badrıarqı barçası bilə, alayoxom Frangnınq axpaşı, vartabedləri.** Sevindilər xanlar xanı və patriarx hamı ilə, eləcə də Roma yepiskopu və vardapetləri (ilahiyyatçıları).

alaysa bağ. – belə isə, belə olan halda, madam ki, belədir: **Ayttım: "Boş yergədən, alaysa, aruvlattım yürakimni menim, yuvdum arılık bilə xolumnu**

menim da boldum men aşaxlanğan kün uzun da azarlanmaxım menim ertə manına?" (Məz. 72/73: 13). Dedim: "Belə isə, mən boş yerə qəlbimi təmizləmişdim, günahsızlıq içində əllərimi yumuşdum?"

alçax (-ı, -men; -ına) sif. – 1. alçaq. Hündürlüyü, ucalığı az olan, bəstəboy, gödək, yavaş, asta (alçaq səs) aşağı, kiçik (rütbəli): Məcazi mənada: pis, xarab, keyfiyyətsiz; rəzil, şərəfsiz, namərd: **Men alçaxımen barça arılarnınq, berildi bu başxış gurkçilərgə avedaranel etmə tergövsüz ululuxun Krisdosnunq.** Mən – bütün müqəddəslərin ən kiçiyiyəm və mənə bütpərəstlərə Məsihin sonsuz böyüklüyünü müjdələmək şərəfi mənə qismət olub. **Men kendimmen alçaxı arakellarninq** (l Kor. 15: 9). Çünki mən həvarilərin ən kiçiyiyəm (və Allahın cəmiyyətini təqib etdiyim üçün həvari adlanmağa layiq deyiləm). **Zera Tenqri bulğattı ya xatıştırdı tenni da alçaxına dağı artx hörmat berdi** (l Kor 12: 24). Görünən üzvlərimizin isə buna ehtiyacı yoxdur. Lakin Tanrı aşağı tutulan üzvü daha çox dəyərləndirdi. **Yoxsa bunı sımarlarmen, dügül ki maxtağaymen, zera düguül ki yaxşığa, yoxsa alçax neməgə suxlanıyırsız (**1 Kor 11 :17). Sizin toplantılarınız xeyirdən çox zərər gətirdiyinə görə aşağıda yazılan əmrlərdən çıxış edərək sizi tərifləmirəm. **Manqa bulay körüniyir ki, bizni arakelərni, barından alçax etti Tenqri, neçik ölümgə bormlu bolğanlarni ki, körüm boldux dunyada da friştələrgə da adamilərgə. Biz essiz Krisdos üçün da siz eslilər Krisdosqa; biz küçsüz da siz küçlü; siz hörmətləngənlər da biz alçax (**1Kor 4: 9, 10). Çünki mənə elə gəlir ki, Allah biz həvariləri ölümə məhkum olunanlar kimi ən sonda nümayiş etdirdi. Biz də həm dünya, həm mələklər, həm də insanlar üçün bir tamaşa olduq. Biz Məsih naminə ağılsızıq, sizsə Məsihdə ağıllısınız! Biz zəifik, siz güclüsünüz! Siz şərəfli adamsınız, bizsə hörmətsiz! **Alçax bolğaylar** h**eç bolsunlar alar, neçik suv ki, tökülür (**Məz. 57/58: 8). Alçaq olanlar, qoy, su kimi axıb yox olsun. **Biy tağıtır sağışın dinsizlərninq, alçax etər Biy (sağışın yığınlarnınq da heç etər Biy sağışın buyruxçılarnınq) (**Məz. 32/33: 10). Rəbb millətlərin məsləhətini puç edər, xalqların məqsədini heç edər. **Da ne türlü ki tanqlamadılar ki, Tenqrini bolğay edilər bilmə, çıxara berdi alarnı Tenqri alçax eskə –** x**ılınma tiyişsizlikni (**Rom. 1: 28). Tanrını şüurlarında saxlamağı yanlış saydıqları üçün Tanrı da onları yanlış düşüncələrə təslim etdi ki, ədəbsiz işlər görsünlər. **Zera bilməssiz ki, surplar dünyanı yarğularlar? Egər ki sizinq bilə yarğulanır esə dunya, alaysa dügülsiz arzani alcyax yarğuğa?** (1 Kor. 6: 2). Dünyanı müqəddəslərin mühakimə edəcəyini bilmirsinizmi? Madam ki dünyanı mühakimə edəcəksiniz, belə xırda işləri mühakimə etməyə ixtiyarınız çatmırmı?

alçaxla ~ fel. – alçaltmaq, aşağılamaq, rüsvay etmək, təhqir etmək, əskiltmək

alçaxlan ~ (-ıyır) fel. – əskilmək, aşağı tutulmaq, rüsvay olunmaq, rəzil duruma salınmaq

alçaxlat ~ (mıyım, -ıyırmen) fel. – alçaltmaq, aşağılamaq, rüsvay etmək, təhqir etmək, əskiltmək: D**a alçaxlatmıyım niyətimni menim da nemə, xaysı ki çıxar erinlərimdən menim, anı heç etməndir (**Məz. 88/89: 35). Öz əhdimi pozmaram (əhdimi aşağılamaram), dilimdən çıxan sözləri dəyişmərəm.

alçaxlıx sif. – alçaqlıq, rəzillik: S**açılır alçaxlıx bilə da turur hörmət bilə; saçılır küçsüzlük bilə da turur xuvat bilə** (l Kor. 15: 43). Əkilən toxum hörmətsiz, dirilən gövdə izzətlidir; əkilən toxum zəif, dirilən gövdə qüvvətlidir.

alda ~ (-ma, -mağa. –masın, -dım, -dı, -dılar, -pmen, -rmen, -r, -rlar, -aldıyırmen, -aldıyır, -aldıyırlar, -ğay, -mağay, -mağaybiz, -sa, -malı, -ğan, -ğannı, -max, -maxın, -p) fel. – aldatmaq, yalan söyləmək, yanıltmaq, fırıldaq işlətmək, barmağa dolamaq: **Xaytardı yürəklərin alarğa – koralmamağa joğovurtun kendininq da aldama xulların kendininq (**Məz. 104/105: 25).

Rəbb düşmənlərinə fikir göndərdi ki,
Xalqına nifrət etsinlər,
Qullarına qarşı fırıldaq işlətsinlər.

Da sözüm da qarozum dügül ki aldamalı esli sözlər bilə, yoxsa faydası bilə cannınq da xuvatı bilə (1 Kor 2: 4). Mənim sözüm də, vəzim də müdrikliyin yalan sözlərindən deyil, Ruhun qüdrətini göstərməsindən asılı idi. **Zera da er eminlikimninq, kimgə da men umsandım, xaysı yer edi ötmakimni menim, arttırdı etmə manqa aldamaxnı** (Məz. 40/41: 10).

Hətta etibarlı saydığım ən yaxın dostum,
Çörəyimi yeyən mənə xəyanət etdi.

Xol yazıxı bilə yazixlımen: Artıx alıp, eksik beripmen, alıp yaşırıpmen, kişininqkinə xıyıpmen, sadağa bermiyirmen, aldapmen, zirgel etipmen, urupmen, xanatıpmen, yazıx da uyat yergə xol uzatıpmen, ne xadar bolupmen dinsizlik, cansızlıx etmə, etipmen, ol xadar canima xıyıpmen ki, bir boğunumnu sağ da yazıxsız Tenqrigə saxlamıyırmen, meğa Tenqrigə. Əlimlə günaha batmışam: çox alıb, az vermişəm, alarkən gizlədir, özgə malını qorumurdum, sədəqə vermir, dələduzluq, zoraklıq edir, döyür, qan tökür, zina və əxlaqsız yerlərə əl uzadırdım. Nə qədər allahsızlıq, insafsızlıq varsa, hamsını etmişəm. Canıma o qədər qəsd etmişəm ki, indi Tanrı qarşısında sağ-salamat bircə dənə də əzam qalmayıb.

aldamaxlıx (-nı) ism. – yalan, hiylə, məkr, riya, ikiüzlülük: **Hillalıx, ustatlıx; şaytan bulğadı sövüknünq içinə aldamaxlıxnı da aruvsuzluxnu.** Sevgiyə zina, hiylə və napaklıq qatdı İblis.

aldamaxsız // **aldamasız** sif. – yalansız, yalan qarışmamış, riyasız, ikiüzlülükdən kənar: **Zera başı buyruxnunq sövüktür aruv yürəktən da yaxşı estən da aldamaxsız inamdan (**1 Tim 1: 5). Bu əmrin məqsədi pak ürəkdən, təmiz vicdandan və riyasız imandan gələn məhəbbətdir. A**ldamasız yarğu Tenqrininqdir** (Mxitar Qoşun "Törə Bitiqi"ndən). Hiyləsiz məhkəmə Tanrıdandır.

aldan ~ (-ma, -mağa, -ma, -manqız; -ıyır, -dım, -dı, -dılar, -madm, -madı, -maslar, -ğaybiz, -ğay, -mağaysen, -saq, -sax, -mısar edi, -maxqa, -maxnı, -maxtan, -maxı, -maxından; mamax) fel.– aldanmaq, yanılmaq, səhv etmək: **Artıx edi alarğa tanmaxlıxnınq ağırlıxı, zera kləmiyin edi da ustatlıx bilə aldanmaxlıx edi.** Onlar üçün inkar etmənin ağırlığı aldanmaqdan daha çoxdur, çünki aldanma istəksizliyə və hiyləyə yol açdı.

aldanmamax fel. və f. i. – aldanmamaq, yanılmamaq: **Aldanmamax üçün adam eslilikindən da aldamaxı bilə, xaysılarınınq ki Krisdos bilə eslilikləri bar** (Kol. 2: 2) **Aldanmamaq üçün** idrakın verdiyi kamil etimədın bütün zənginliyinə nail olsunlar, Məsihi dərk etsinlər.

aldanq ~ Bax: **aldan** ~

aldat ~ (-ıp) fel. – aldatmaq, yanıltmaq: X**açan ki Atam atamzını da Evanı yarattı, alarnı aldatıp uçmaxtan sürdürdüx da andan beri adamlarğa biz boldux duşman.** Nə zaman ki (Tanrı) Adəm atamzı və Həvvanı yaratdı, aldadıb cənnətdən qovdurduq və ondan bəri insanlara biz düşmən olduq.

aldavuçı (-dan, -lardan, -sı) // **aldovuçı** // **aldovuçu** sif. və ism. – hiyləgər, bic, fırıldaqçı: A**ldandım aldavuçıdan da boldum yasır xarnı üsnə yürügəndən.** Mən hiyləgərin hiyləsinə uydum və qarnı üzərində sürünənin əsirinə çevrildim.

aldır ~ // **aldur** ~ fel. – aldırmaq, almağa məcbur etmək, almağa dilə tutmaq: **25 axçasın aldırdılar ol ziyan üçün.** Onu ziyan qarşılığında 25 axça almağa dilə tutdular.

aldırt ~ fel. – aldırtmaq: **Bardı ekinçi burmistirgə, xaysı xızını xullar bilə aldırtıp.** Qızı pristavlar vasitəsilə aldıran burqomistrin yanına ikinci dəfə getdi.

alef ism. – yəhudi əlifbasının ilk hərfinin adı. Bu ada alban mətnləri içərisində yalnız "Zəbur"un tərcüməsinin yer aldığı əlyazmalarda rast gəlinməkdədir.

aleluia (-sı) // **aleluya** (-sı) nida. (yəh) – dini mətnlərdə tez-tez rast gəlinən və mənası "Yəhvanı (Tanrının) mədh edin!" anlamna gələn nida.

alət (-lər) ism. (< azərb. < ər) – alət: B**ahalı çekmənlər u igi alətlər biylarninq bolğay u ax cekmənlar u ketanlar çerüvçilərninq bolğay.** Bahalı mahud və keyfiyyətli alətlər bəylərindir, ağ mahud və kətanlar isə əsgərlərindir.

alfa ism. – yunan əlifbasının ilk hərfinin adı

alğan nemə ism. – maddələr arası münasibət, həmcinclik, qarşılqlı əlaqə:

> **-Nedir alğan nemə?**
>
> **-Algan nemədir ki, belgili etər xarşıdağı tuydurğannı kendininq, xaysı ki bardır, neçik Ata aytmax bilə körgüziyir ki, oğlu bar da Oğul aytmax bilə belgili etər ki, atasi bar** (Qriqori Hamamanın "Alban qrammatikası"ndan).
>
> -Nədir qarşılıqlı əlaqə?
>
> -Qarşılıqlı əlaqə odur ki, qarşı tərəf barədə şəhadət verilir. Necə ki, Ata sözlə təsdiq edir ki, oğlu var və necə ki, Oğul sözlə təsdiq edir ki, atası var.

alğasalan ~ (-ma, -yırmen, -yırlar, -ğanlarnız -max) // **alhasalan** ~ (-ma; -ıyırmen) fel. –karıxmaq, özünü itirmək, təəccüb etmək, çaş-baş qalmqa, çaşmaq: **Baxqın niyətinqə seninq, zera toldular övləri alğasalanğanlarnınq yerdə egirlik bila**. (Məz. 73/74: 20).

Özün bizimlə bağladığın əhdə bax!
Zorakılıq yuvaları karıxmışların evlərinə,
Ölkənin hər zülmət yerinə dolub.

alğasalanmax f. ism. – çaxnaşma, vəlvələ, iztirab, talaş, təşviş, qorxu

alğasalanmaxsız sif. – qorxu bilməyən, cəsur, qorxmaz

alğış // **alqış** ~ (-tır, -nınq, qa, -nı, -ta, -tan; -ım, -ımnınq, -ıma, -ımnı, -ımda; -ınq, -ınqnınq, -ınqa, -ınqnı, -ınqdan; -ı, -ıdır, -ınınq, -ına, -ın -ını, -ında, -ından, -ımız, -ımızını, -ımızda; -ınqız, -ınqızınınq, -ınqızğa, -ınqızn, -ınqızda, -ınqızdan, -lar, -larnınq, -larğa, -larnı, -larda, -larım, -larımız, -larım -larınqznı, -ları, ~larınınq, -larına, -ların, -larında) ism – alqış, şükür, həmd, mədh, xeyir-dua, tərənnüm, nəğmə, dua: **Ağındı Tenqri alğış bilə da Biyimiz bizim avazı bilə bırğınınq (**Məz. 46/47: 6). Tanrı alqış ilə ucaldı, Rəbbimiz şeypur səsi ilə yüksəldi.

Alğışlıyım Biyni hər sahat, hər sahat alğışı anınq ağzıma menim (Məz. 33/34: 2). Hər zaman Rəbbə alqış edəcəyəm, Ona dilim daim həmd söyləyəcək. **Axtırğay erinlərim menim alğışınqnı seninq, xaçan övrətsənq manqa toğruluxunqnu seninq** (Məz. 118/119: 171).

Qoy dilimdən həmdlər tökülsün,
Mənə qaydalarını öyrətmisən.

Evet neçik alğışlıyıx alğışınn Eyəmizninq yerdə yat? (Məz. 136/137: 4).Axı, yad ölkədə Rəbbin nəğmələrini necə oxuyaq? **Men hər sahat umsanıyım da arttırıyım alğışınqni seninq** (Məz. 70/71: 14).

Mənsə hər zaman Sənə ümid bağlayacağam,
Sənə həmd oxuduqca oxuyacağam.

Baxtı ol alğışına aşaxlanğanlarnınq da heç etmədi xoltxaların alarnınq (Məz. 101/102: 18).

Yoxsulların duasına qulaq asacaq,
Yalvarışlarına xor baxmayacaq.

Ne türlü aytğaymen barça alğışınqnı seninq eşikinə xızınınq Sionnunq da sövüniyim xutxarğanınqa seninq (Məz. 9: 15).

Sion qızının darvazalarında qoy
Sənə edilən həmdlərimdən danışım,
Səndə xilas taparaq şadlanım!

Alınqız salmosnu da berinqiz alğışnı, salmos aytınqız anqar avaz bilə tatlılıxnınq (Məz. 80/81: 3).

Məzmur oxuyun, alqış (həmd) deyin,
Dəfi, xoş avazlı liranı və çəngi çalın.

Bu türlü salmos aytıyım sanqa menqi menqilik da beriyim sanqa alğışımnı kün kündən artından (Məz. 60/61: 9).

Mənsə məzmur oxuyub, adını həmişə tərənnüm edəcəyəm,
Hər gün əhd etdiyim təqdimləri verəcəyəm!

Bolur alğış berüçi alarğa (İbr. 11: 6). (O var və) Ona alqış söyləyənlərə mükafat verir. **Ornuna süvükümnünq menim çıxara berirlər edi meni, evet men alğışta bolur edim (**Məz. 108/109: 4). Sevgimin əvəzinə mənə ittiham yağdırırlar, mən isə dua etməkdəyəm. **İsyit, Tenqri, xoltxama (alğışıma) menim (alğışıma, Tenqri, yalbarğanıma) // Yalbarmaxımda menim) sanqa, xorxusundan duşmannınq xutxar boyumnu (canımnı) menim (**Məz. 63/64: 2).

Ey Allah, eşit səsimi, Sənə şikayət edirəm,
Həyatımı düşmən vahiməsindən qoru.
Pislərin fəndlərindən,
Şər iş görənlərin vəlvələsindən
Məni qoru.

alğışçı ~ (-sı) – duaçı, dua edən: **Na hali men da neçik ini alğışçısı Biylikininq köplüxündən bu azğınxnı çıxardım da sunıyırmen ülüşlü bolma sizninq bilə birgə haybatına Anınq, xaysı ki atalaptır inanğanlarına kendininq, nedən bolğay haybat menqi menqilik.** Bax, mən də duaçların ən kiçiyi kimi Onu böyüklüyünü mədh edirəm, öz dilimlə söyləyib təqdim edirəm, digərlərini də dəvət edirəm, necə ki bizə vəd olunub.

alğışla ~ (-ma, -mağa, -yım, -ğın, -sın, -yalım, -nqız, -sınlar, -dım, -dnq, -dı, -dıx, -dınqız, -dılar, -madınq, -madılar, -rmen, -rsen, -r, -rbiz, -rsiz, -rlar, -mandır, -mas, -r edinq, -r edi, -r edix, -rlar edi, -ıy edi, -ıy edilər, -ğaymen, -ğam, -ğaysen, -ğasın, -ğay, -ğaybiz, -ğaz, -ğaysınqız, -ğasız, -ğaylar, -mağaylar, -sanq, -sarmen, -sarsen, -sar, -sarbiz, -sarsiz, -sarlar, -ğan, -ğandır, -ğanbiz, -ğandırlar, -ğanqa, -ğanımdan, -ğanında; -mağan, -mış, -max, -maxtır, -maxqa, -maxnı, -maxta, -maxtan, -maxı, -maxınınq, -maxın, -maxında, -maxından, -p) **alqışla** ~ fel. – alqışlamaq, şükr etmək, həmd etmək, tərənnüm etmək: **Evet, tirilər, alğışlıyıx seni, Biy, neçik da men (**Yeş. 38: 19).

Bu gün Sənə etdiyim kimi dirilər,
Yalnız dirilər Sənə şükür edər.

Biyik bolğın, Biy, xuvatınq da seninq, alğışlıyıx da salmos aytıyıx xuvatınqa seninq (Məz. 20/21: 14).

Ya Rəbb, qoy Sənin uca qüdrətini görək!
Əzəmətini məzmurlarla tərənnüm edək!

Alğışlanqız Biyni, ogünqgüz Tenqrini. Alqışlayın Rəbbi, öyün Tanrını. **Inandılar sözinə anınq da alğışladılar alğışın anınq (**Məz. 105/106: 12).

O zaman Rəbbin sözlərinə inandılar,
Onu həmdlə tərənnüm etdilər**.**

Zera alğışlasarsen sen toğrunu, Biy, neçik yaraqlı biyənçlikinq bilə seninq tacladınq bizni (Məz. 5: 13).

Ya Rəbb, salehə xeyir-dua verirsən,
Lütfünlə sipər kimi bizi hifz edirsən.

Köni, ki alğışlamax bilə alğışlyım seni da arttırmax **bilə arttırıyım seni (**İbr. 6: 14). Sənə mütləq xeyir-dua verəcəyəm və nəslini çoxaldacağam. **Alğışlamax bilə sarnıyım Biygə da duşmanlarımdan menim abralıyım (**Məz. 17/18: 4).

Həmdə layiq Rəbbi çağıracağam,
Düşmənlərimin əlindən qurtulacağam.

alğışlan ~ (-ınqız, -dı, -dılar, -madılar, -ıptır, -ıp edilər, -ırlar, -ğay, -ğaylar, -sa, -ğan, -ğanqa, -ğanlar, -maxta, -maxtan, -maxı, -maxından, -ıp) fel. – alqşlanmaq, şükr edilmək, həmd edilmək, tərənnüm edilmək: **Yoxsa boyu anınq tirlikinə kendininq alğışlanğay, tapunğay sanqa, xaçan yaxşı etsənq sen anqar... (**Məz. 48/49: 19).

Sağ ikən özünü xoşbəxt saysa da,
Uğur qazananda tərifləsə də...

Anqar alğışlanğaylar barça milləti yerninq da barça cınslar san bergəylər anqar (Məz. 71/72: 17).

Onun vasitəsilə insanlar xeyir-dua alsın,
Onu bütün millətlər bəxtiyar adlandırsın!

Bu türlü alğışlanğay barça adam, xaysı ki xorxar Eyəmizdən (Məz. 127/128: 4). Rəbdən qorxan insan belə xeyir-dua alacaq: **Kelinqiz, Atamdan da Mendən alğışlanğanlar, menqərnqiz menqilik tirlikni, bu uçmaxnı (**Mat. 25: 34). Gəlin, dünya yaranandan bəri sizin üçün hazırlanmış olan Cənnəti irs alın.

alğışlanız Bax: **alğışlanqız**

alğışlanmax ism. – alqışlanma, şükr, həmd, xeyir-dua: **Salmağın başxışnı ki, sendədir ki, berildi sanqa markarelik bilə alğışlanmaxtan babaslıxqa (**1Tim. 4: 14). Ağsaqqallar əllərini sənin üzərinə qoyanda sənə peyğəmbərlik sözü ilə edilən şükrə, səndə olan ruhani ənama etinasızlıq etmə.

alğışlat ~ (-tı) fel. –alqış etdirmək, şükr etdirmək, həmd etdirmək, tərənnüm etdirmək

alğışlavuçi ism. – alqışlayıcı, həmd edən, şükr edən, tərənnüm edən

alğışlı (dır, -sen, -siz, -dırlar) // **alhışlı** sif. – müqəddəs, əziz, alqşlı, həmd edilən, şükr edilən, tərənnüm edilən: **Uludir Biy da alğışlıdır asr da ululuxuna anınq yoxtur ölçöv (**Məz. 144/145: 3).

Rəbb əzəmətlidir, bol həmdə layiqdir,
Onun əzəməti insan ağlına (ölçüyə) sığmaz.

Alğışlısız siz Eyəmizdən ki, etti köknü da yerni (Məz. 113/115: 23, 15). Rəbdən, göyləri və yeri Yaradandan xeyir-dua alasınız! **Uludır Biy da alğışlıdır asrı şəhərinə Tenqrimizninq bizim, tağına ari anınq** (Məz. 47/48: 2). Şimala tərəfdə böyük Padşahın şəhəri – müqəddəs (Sion) dağı ucalığı ilə gözəldir (tərənnüm ediləndir). **Biy Tenqri alğışlı, alğışlı Biy hər kün** (Məz. 67/68: 20). Bizi qurtaran Tanrıya – hər gün qayğı yükümüzü çəkənə alqış olsun!

alif Bax: **alef**

alıçı Bax: **aluçı**

alim-satim (-da) ism. – alış-veriş, ticarət: **Yoxesə faydalı alım-satım ulu Tenqrigə xulux etməxlixtir yetkinçəlik bilə birgə** (l Tim. 6: 6). Əlindəki ilə kifayətlənərək mömin olmaqsa (Tanrıya qulluq etməksə) ən böyük qazanc, ən böyük ticarətdir.

alın I (-larına), **aln** (-ıma, -ımadırır, -ımda; -ınqa, -ınqadır, -ınqda, -ına, -ınadır, -ınasen, -ından, -ımızğa, -ımızda, -ınqızğa) ism. – alın, üzün saçla qaş arasndakı hissəsi: **Bu Zadiq suçlu dügül bu kisyigə ne bir türlü, zera bu Telijicninq oğlu meni urdu da xolumni yaraladı, andan sonqra men da ani urup edim alnına…** Bu Zadiqin bu kişi qarşısında heç bir suçu yoxdur, çünki bu Telijicin oğlu məni vurub qolumu yaraladı, ondan sonra mən də onu alnından vurdum.

alın II zrf. - ön tərəf, qarşı tərəf, ön, qarşı, öndə, qabaq, ərəfə, hüzur: **Xastağa tiyməstir ant: ölümü alnınadır** (Mxitar Qoşun "Törə Bitiqi"ndən). Xəstəyə and içməyə dəyməz, çünki o, ölüm ərəfəsindədir. **Xullux etinqiz Eyəmizgə xorxu bilə da sövününqüz alnına anınq titrəməx bilə (**Məz. 2: 11). Rəbdən qorxub Ona xidmət edin, qarşısında həm titrəyin, həm sevinin.**İlgərtin körər edim Biyni alnımda menim hər sahat ki, edi sağımda menim ki, sesğanmağaymen (**Məz. 15/16: 8). Qarşımda Rəbbə əbədilik üz tutmuşam, sağımda olduğu üçün sarsılmaram. **Dügül ki sen, Tenqri, klərsen törəsizlikni, turmaslardırlar Sendə yamanlar, törasizlər turmağaylar alnına közünqnünq seninq (**Məz. 5: 5).

Təkəbbürlülər qarşında dayana bilməz,
Bütün şər iş görənlərə nifrət edirsən.

Da xaçan ki sarnasa alnınqızğa bitikni, etinqiz ki, Lavotigetsilərninq yıxövünə da sarnağay; da favotigetsilərninq xatına ki, siz də sarnağaysız (Kol 4: 16). Bu məktub aranızda oxunduqdan sonra onu Laodikeyalılar cəmiyyətində də oxudun, Laodikeyadan gələn məktubu isə siz də oxuyun. **Bolğay sanqa biyəncçli sözləri**

ağzımnınq menim da sağışları yürəkimninq menim alnınqa seninq har sahat, Biy, boluşuçım menim da xutxaruçım menim! (Məz. 18/19 15). Ağzımdan çıxan sözlər, Qəlbimdəki düşüncələr hüzurunda qəbul olunsun. Ya Rəbb, ey Qayam və Satınalanım! **Toğrular şükürləsinlər atınqdan seninq, turğaylar toğrular alnına yüzünqnünq seninq** (Məz. 139/140: 14).

Salehlər Sənin isminə şükür oxuyacaq,
Əməlisalehlər hüzurunda yaşayacaq.

Bundan sonqra biz də, ki bu xadar çöp-çövrəmizgə birlənip bar köplüxü tanıxlarnınq, barça öktəmlikni keri salıyıx da povşednıy yazıxlarnı, tözümlük bilə yuralıx uruşqa ki, alnımızğa bar bizim (İbr. 12: 1). Buna görə bu qədər böyük şahidlər buludu ilə əhatə olunduğumuz üçün biz hər bir yükü və bizi asanlıqla çaşdıran günahı tərk edib qarşımızdakı yarışda dözümlə qaçaq.

alın ~ (-mağa –ıyıx, -dı, -dılar, -ıpsiz; -ır, -massen, -massiz, -ıyırmen, -ıyırlar, -ğaysız, -mağay, -sa, -sarbiz, -ğansiz, -ğan, -ğansen, -ğandır, -ğanı, -ğanına, -ğanın, -mağan, -ğan bolğay, -max, -maxnı, -maxı, -ıp) fel. – alınmaq, qəbul edilmək: A**nqlanqız, barçanqız, kimlər unutupsiz Tenqrini. Bolmağay ki, alınğaysiz da kimsə bolmağay ki, xutxarğay (**Məz. 49/50: 22). Ey Tanrını unudanlar, buna diqqət edin! Yoxsa sizi parça-parça edərəm, heç birinizi xilas edən olmaz. **Bilirmen bir adam Krisdosta, əvəl ne ki 14 yıldan, – egər ten bilə mi, bilmən, yaxot tensiz mi, bilmən, Tenqri bilir, – Ki alındı anınq kibik 3-ünçi kökka dirə... alındı uçmaxqa da işitti söz aytovsuz ki, tiyməstir adamğa sözləmə (**Il Kor 12: 2). Məsihdə olaraq on dörd il bundan əvvəl – bədəndəmi, yoxsa bədəndən xaricmi, mən bilmirəm, Allah bilir – götürülüb göyün üçüncü qatına aparılan bir insanı tanıyıram... Cənnətə alınıb (aparılıb) orada dillə ifadə olunmayan, insanın danışması qadağan olunan sözlər eşitdi. S**onqra biz də ki, tiri xalğan bolsarbiz, alar bilə birgə alınsarbiz bulut bilə utrusuna Eyəmizninq obloğqa da ol türlü hər sahat Eyəmiz bilə bolsarbiz (**1 Sal 4: 17). Ondan sonra sağ qalan bizlər Rəbbi havada qarşılamaq üçün onlarla birgə buludlar içində götürülüb-aparılacaq və beləcə daim Rəblə olacağıq. **Zera satın alınğansiz (**1 Kor. 6: 20). Çünki satın alınmısınız. **Satun alınıpsız; bolmanqız xullar adamlarğa (**1Kor. 7: 23). Satın alınmısınız, insanlara qul olmayın!

alına Bax: **al** I

alındır ~ (-ıyırmen) fel. – heyrətləndirmək, təəccübləndirmək

alış ~ (-sınlar, ~ıptır, -ıp edilər, -sa, -max) fel. – dost münasibətləri qurmaq, ailə qurmaq: **Evet tözümlükləri yox esə, alışsınlar; zera yaxşıraxtır alışmax, ne ki xızınmax (**1 Kor. 7: 9). Əgər özlərini saxlaya bilmirlərsə, qoy ailə qursunlar. Çünki ehtirasdan yanmaqdansa ailə qurmaq daha yaxşıdır. **Bu türlü eki toğma xardaş oğlanları alışıp edilər.** İki doğma qardaşın övladı bu cür evləniblər. **Zera egər ki xatun alsanq, yazıx dügüldür; ya egər ki alışsa gojs, yazıx etməs** (1Kor. 7: 28). Amma arvad alsan günah deyil. Bakirə qızın da ərə getməsi günah deyil.

alış-beriş (-i) ism. – dəyiş-düyüş, dəyişdirmə - al-ver, alış-veriş, ticarət: **Borniglik buzulğan esindən adamnınq da keri bolğanlarnınq konuluqtan anda, xaysılari ki aslamlı alış-beriş kibik sağışlarlar Tenqrigə xulux etmə anı (**1Tim. 6: 5). Zinakarlıq pozğun düşüncəli, həqiqətdən məhrum, Tanrıya qulluğu

(ibadəti) alış-veriş (qazanc) mənbəyi kimi zənn edən adamların fasiləsiz mübahisələridir.

alışın ~ (-ma, -dılar, -ğan, -ğandır) fel. – alışmaq, öyrəşmək, adət etmək, uyğunlaşmaq: **Sen alışınma. Krisdos bağışladı manqa ekinçi yarıxnı açmax bilə közümni xolu bilə Bandəlevonnunq, xulununq kensininq da yarıxlatti esimni yanqırtmax bilə Ari Cannınq, zera seninq tenqrilarinq soxurdurlar, e xan, da bolmaslar kimesəgə yarıx berməgə.** Sən uyğunlaşma. Məsih gözlərimi qulu Panteleonun əli ilə açaraq, mənə ikinci dəfə nur verdi və ağlmı Ruhül-Qüdslə yenilədi. Sənin isə, ey xan, tanrıların kordurlar və kimsəyə işıq verməzlər.

alışmax (-tan) f. ism. – evlənmə, ailə qurma: **Ki tıyılsarlar xatın alışmaxtan da ayırılsarlar aşlardan, xaysın ki Tenqri totattı menqərməgə inanğanlarğa da kimlər ki yetip esələr könülükünə** (1Tim. 4: 3). Bu yalançılar evlənməyi qadağan edir və bəzi yeməklərdən çəkindirirlər. Amma Allah bu yeməkləri iman edib həqiqəti dərk edənlərin şükürlə qəbul etməsi üçün yaradıb.

alışmaxlıx ism. - evlilik, nigah, ailə bağı: **Haybatlıdır alışmaxlıx barça bilə da aruv töşək; evet itlərni da borniglərni yarğular Tenqri (**İbr. 13: 4). Qoy hər kəs nigaha hörmətlə yanaşsın. Qoy ər-arvad yatağı murdarlanmasın. Çünki Tanrı əxlaqsızları və zinakarları mühakimə edəcək.

alışmamax f. ism. – evlənməmə, nigahdan çəkinmə, subay qalma, subaylıq, nigahsızlıq: **Alışmax üçün da tullux üçün da alışmamax üçün.** Evlilik, dulluq və subaylıq haqqında.

alıştır ~ (-mağa, -ıptır, -mıyır, -ğaymen, -max, -ıp) fel. – alışdırmaq, öyrəşdirmək, uyğunlaşdırmaq: **Biy, alıştır meni yaxşılıxqa, buz yazıxımnın yazovun.** Rəbbim, məni yaxşılıq erməyə alışdır, günahlarım barədəki yazıları (siyahını) poz (sil).

alıştırmax f. ism.. – dəyişdirmə, dəyişmə, dəyiş-düyüş etmə Bax: **alış-beriş**

alma l (nınq, -nı, -lar, -larnınq, -larnı) ism. - 1.alma Meyvə adı; 2. almacıq. Gözün alt , yanaqların üst tərəfindəki sümüklü çıxıntı; 3. kürə

alma ll fel. (< **al** ~)

almax (-nınq, -ı) f. ism. – alma (**xatun almax)**, evlənmə: **Xatun almax ya ergə barmax.** Arvad alma ya ərə getmə.

almaxlıx (-qa, -ı -lar, -lardan) f.. i. – alma (almaq), tutma (tutmaq), qəbul (qəbul etmək), işğal, ələ keçirmə (ələ keçirmək):

-Almaxlıx kim kimdən?

-Oğul toğmax bilə ilgəri kelir Atadan da Can axınma bila kenə ol Atadan (Qriqori Hamamanın "Alban dilinin qrammatikası" kitabından)

-Varislik kimdən kimə?

-Oğul doğuşu ilə Atadan, Ruh isə süzülmək yolu ilə yenə Atadan.

Boyu üsnə almaxlıxı Onesim xulnunq xaçmaxın da xoltxa anınq xutxarılmaxı üçün inam ötləş (Fil. 1: 10). Həbsdə ikən ruhani atası olduğum oğlum Onisimlə bağlı səndən bir xahişim var. **Xaytip, ol ki, Tenqrilik sartın xayğurdunquz, ne xadar kerəkli nemə etti sizdə, ya xoltxa, ya öçəşməx, ya xorxu, ya tarlıx, ya nenavist, ya öç almaxlıx! Zera barçağa sundunquz boyunquznu sizinq aruv bolmağa bu nemədə (**ll Kor 7: 11). Baxın, Tanrı istədiyi tərzdə çəkdiyiniz bu kədər sizdə nə qədər böyük cəhd, təmizə çıxmaq arzusu, qəzəb, qorxu, həsrət, qeyrət,

ədalətpərvərlik yaratdı. Bu işdə hər cəhətdən saf olduğunuz barədə zəmanət verdiniz.

almas (-nınq, -lardan) // **almas taş** ism. – almaz, brilliant: **Bir yüzük süvrü almas**
taşı bilə 20 axçalıx. 20 axça dəyərində almaz qaşlı üzük.

almuxadəm sif (< əl-müqəddəm ər.) – seçkin, üstün, əla

alnı Bax: **alın**

alnına Bax: **alın** (alnına)

alnılarna Bax: **alın** (-larına)

alnınqa Bax: **alın** (alnınqa)

alpan ism. – alban. Qafqaz Albaniyasının aparıcı etnosu. Albaniya (Qafqaz) əhalisinin ümumiləşdirici adı: **Xaytıp tvağannınq 455-indən 988-inə dirə yənə yapux ettilər ermenilər bilə da 988-də yənə bulardılar barça krisdan milləti, ermenidən başxa da habaştan da asoridən, da alpan milləttən başxa, xaysı ki ermeni bilə tutarlar.** Tvağanın 455-ci ilindən 988-ci ildək (ortodokslar) monofizitlərlə mübahisə etdilər və 988-ci ildə bütün xristian milləti bunlardır - ermənilərdən (haylardan), həbəşlərdən, aysorlardan və alban millətindən başqa ki monofozotlərlə baxışları üst-üstə düşür. **Evet ki baduhas edi yazıxlılarğa, yoxsa işi Tenqrininq edi, körklülük boldu adamlarğa ki bir alçax tildən köp da türlü-türlü xuvatqa ayırıldı. Imşax sözlü Helen milləti, hroznıy sözlü Franğ milləti, yürəkləngən kibik Honin milləti, xoltxa kibik Asori, körklülük bilə Alpan milləti, kültkülü Kut milləti, aldağan kibik Ekipdaçi milləti, açıx Parsi milləti, tez sözlüvüçi Hndi milləti, tahimli sözlövüçi Ermeni milləti.** Bəli, günahlara görə cəza Tanrının insanlara görkü idi ki, bir tək dil çox və cürəbəcür dillərə ayrıldı. İncə sözlü ellin (yunan) milləti, qəzəbli firəng (latın) milləti, ürəkli (cəsarətli) hun milləti, dua kimi aysor (Aşşur), gözəllik timsalı alpan (alban) milləti, gülməli qot (alman) milləti, yalançı qibti (kopt) milləti, ac-yalavac fars milləti, tez-tez danışan hind milləti, xoşagəlimli arami milləti.

Azərbaycanda yaşayan və sonradan qazaxların, qırğızların, özbəklərin, eləcə də qaraqalpaqların etnogenezində yaxından iştirak etmiş soylardan biri olan albanların (alpanların) adı ilk dəfə miladdan sonrakı yazılı mənbələrdə qeyd edilsə də, onlar eradan əvvəl IV əsrin sonlarında baş vermiş olaylarla əlaqədar yad edilirlər. Azərbaycan türklərinin etnogenezində yaxından iştirak etmiş albanlar əsasən Quzey Azəbaycanda, o cümlədən Qərbi Azərbaycanda (bugünkü Ermənistanda), eləcə də Dağıstanda və bugünkü Gürcüstanın Borçalıdan Tiflisə qədər uzanan geniş ərazilərində məskun olmuş və bu ərazilərdə yaşayan digər türk soylarını – qarqarları, utiləri, massagetləri, dondarları və sairə, eləcə də bir sıra qafqazdilli tayfaları - udinləri, çilbləri, qatları, leqləri, ubıxları, herləri və s. öz ərafında birləşdirərək, tarixi mənbələrdə "Albaniya" adı altında yad edilən dövlət qurmuşdular. "Kitabi-Dədə Qorqud"da albanlardan türk xalqlarından biri kimi söhbət açılır və əsərin baş qəhrəmanlarından Qazan xan alpanların, yəni albanların başçısı kimi yad edilir: **Ağ-boz atlar çapdırur alpanlar gördüm, ağ işıqlı alpları yanıma saldum** (KDQ). Ağ-boz atlarda çapan albanları gördüm, ağ, işıqlı igidləri yanıma aldım. **Hey, nə oturursan? İtüni ulatmayan, çətügini mövlatmayan alpanlar başı Qazan oğlancuğu ilə sərxoş olub yaturlar** (KDQ). Hey, niyə

oturmusan? İtini hürdürməyən, pişiyini miyoldatmayan albanların başçısı Qazan xan oğlancığı ilə sərxoş olub yatırlar.

Qədim albanların adı bu gün Qubanın "Alpan" kəndinin adında yaşamaqdadır. Qədim albanların birbaşa varisləri olan bu kəndin sakinləri türkdürlər və Azərbaycan türkcəsində danışırlar.

Albanların ən azı erkən orta əsrlərdən Azərbaycan hüdudlarını aşaraq Türküstan tərəflərə də yayıldığını söyləmək olar. Məsələ burasındadır ki, VI əsr müəllifi İordan İskitlər ölkəsinin çox böyük ərazini əhatə ediyini, hunların, sirlərin və albanların gedib çatdıqları uzaq hüdudlara qədər uzandığını yazır. Bu məlumatdan açıq - aydın görünür ki, albanlar da iskitlər kimi Türküstanın son hüdudlarına qədər, yəni Çinə qədər yayılmışdılar. Təsadüfi deyil ki, bu gün qazaxların "alban" adlandırılan qolu məhz Çindəki Uyğur Muxtar Vilayəti ərazisində, başqa sözlə, Şərqi Türküstanda və Monqolustanda, eləcə də Qazaxıstanın Çinlə sərhəd bölgələrində yaşayırlar. Alban-türk xalqının qazax türklərinin etnogenezində yaxından iştirak etdiyini sübut edən məlumatları görkəmli qazax maarifçisi Çokan Vəlixanovun "Seçilmiş əsərləri"nin 4-cü cildinin 326-cı səhifəsində, qırğızların etnogenezində oynadıqları rol barədə məlumatları isə Abromzonun "Qırğızıstan arxeoloji və etnoqrafik ekspedisiyası" məcmuəsinin 1960-cı il, 4-cü buraxılışında dərc edilmiş "Qırğızların etnik tərkibi..." adlı məqaləsində tapmaq olar. Karmışevanın "Tacikistanın özbək-lokay xalqı" kitabının 16-cı səhifəsindəki 2-ci cədvəlində isə albanların özbək türklərinin etnogenezində oynadığı rol barədə mütəxəssisləri maraqlandıra biləcək məlumat bulunmaqdadır. Jdanko özünün qaraqalpaqların tarixi etnoqrafiyasına həsr etdiyi kitabının 41-ci səhifəsində albanların qaraqalpaq türklərinin də etnogenezində iştirak etdiyini bildirir. “Alpan” (alban) etnoniminin əsasında “alban” termini durmaqdadır ki, bu da sözügedən kəlmənin etnonimə çevrilməmişdən öncə müəyyən bir silkə aid olduğunu göstərməkdədir.

alpavud (-nu) // **alpovud** // **alpovut** ism. – zadəgan, əyan, üstün soylu, xan və ya bəy qulluğunda duran önəmli şəxs, mülkədar: **Bar edi bir … xatun, alpavud.** Bir … zadəgan qadın var idi.

alpavudlux // **alpavutlux** ism. – zadəgan silki, saray əyanları: **Esavdan çıxıptır alpavutlux, xaysı ki “zemlaninlər” ündəlir.** “Torpaq mülkədarları” adlandırılan əyanlar idumey başçıları İsavdan törəmişlər. **Az biri birin alpavudlux oldürmədilar.** Əyanlar bir-birini az qırmadılar.

alpovud // **alpovut** Bax **alpavud**

altembas Bax: **altunbas**

altı (-dan, -sıdır, -sına, -sınadır –sında) say. – altı: E**kinçi kününə ertə, xaysı ki yunvarnınq altısıdır** Yanvarın 6-sına təsadüf edən ikinci günün səhəri. **Cnunt yunvarnınq altısınadır. Milad yanvarın 6-sındadır. Yunisninq on altısında** İyunun 16-da. **Altısına yunvarnınq** Yanvarın altısında.

altıküng (-də) ism. – altıbucaqlı: **Asıyıx bu taşnı da dügül altıküngdə, evet minqlərdə virobonıy rozumniıada Biyimiz Jisus Krisdosnunq bizim.** Bu daşı təkcə altıbucalıda deyil, Rəbbimiz İsa Məsihin minlərcə üzüyünə taxarıq.

altıkünçlü sif. – altı bucaqlı, altı künclü: **Egər ki bolmasa altıkünçlü keskən, ostritsa bolıyır yarıx uçlarından.** Əgər kəsici alət altı künclü olmasa uclarından qığılclm çıxar.

altıxanatlı sif. – altıqanadlı: **Altıxanatlı friştələr.** Altıqanadlı mələklər.

altımbas Bax: **altembas**

altımış Bax: **altmış**

altın (-dır, -nınq, -ğa, -nı, -dan, -ımnı, -ından) // **altn // altun** ism. və sif. – altun, qızıl: **Yarğuda oltursanq, orunç alma altın ya inci** (Mxitar Qoşun "Törə Bitiqi" kitabından). Məhkəmədə oturarkən rüşvət alma; nə qızıl, nə də inci (mirvari). **Tirilgəy da berilgəy anqar altınından Arapistannınq (**Məz. 71/72: 15). Yaşasın (xan), qoy ona Ərəbistan qızılı verilsin! **Oğul bolğıy edi da künda 10 xantar altın tas etkiy edi, bolmas edi menim malımnı tügətməgə.** Əgər mənim oğlum olsaydı və gündə 10 qantar qızıl xərcləsə idi, mənim var-dövlətim tükənməzdi.**Yaxşıdır manqa örenki ağzınqnınq seninq, ne ki minqləri altınnınq da kümüşnünq (**Məz.118/119: 72). Ağzından çıxan qanun mənim üçün minlərlə qızıldan, gümüşdən daha qiymətlidir.

-Da xaysılardırlar peşələngən teprənməgən barlıxlar?

-Temir-baxırlar, xorğaşınlar, kümüşlər da altunlar da kimlər ağaçlardan da özgə materialardan da özgə bularğa oxşaşlar köplər.

-Bəs, süni surətdə düzəldilmiş tərpənməz varlqlar hansılardır?

-Dəmir, mis, qurğuşun, gümüş və altunlar, eləcə də bəzi ağac növləri və başqa materiallardan düzəldilmişlr və onlar kimilər.

altınbas Bax: **altunbas**

altınçı I (-lar) // **altınçi** ism. – altunçu, sərraf, zərgər

altınçı II miq. s. – altıncı

altın-inçi (-dən) ism. – qızıl-mirvari, qırqızıl, zərziba: **Kiydirdi kendininq xızını xanlıx tonlar bilə, altıninci bilə, bahasız taşlar bilə.** Öz qızına xanlara layiq donlar, qızıl-mirvari, qiymətsiz daşlar geydirdi. **Balxıyır başı axır taşlardan da altin-incidən, neçik günaş.** Onun başı ağır aqırqızıldan, bahalı daş və mirvaridən günəş kimi parlayırdı.

altın-kümüş ism. – altun-gümüş, qızıl və gümüş, zərgərlik məmulatıları: B**olmağay damahlanğaysız altınğa-kümüşkə.** Nabadə altun-gümüşə tamah salasınız ha.

altınla ~ (-dılar**) // altunla** ~ fel. – qızıldan üzlük çəkmək, üzünə qızıl çəkmək: **Ol yıl xorannınq ulu badgerkin 2-incyi altınladılar. O il səcdəgahın (altarın) üzünə ikinci dəfə qzıl çəkdilər.**

altınlı sif. – qızıllı, altunlu: **Tursar xaniça sağında seninq, kiyiniş bilə altunlu tüzülgən da şöhrətlaəgən** (Məz. 44/45: 10). Məleykə olacaq qız sağ qoluna girib, ofir qızıllarına bürünüb. O**l türlü xatınlar da, kiyinişi bilə xonarhlıxnınq, köz kötürməx bilə da sekinlik bilə, korkaytma boyların bolmağay ki, altınlı orunmax bilə da tizməxi bilə incilərninq, ya tonlarnınq korkaymaxı bilə (**1Тим 2: 9). Qadınlar da ədəbli görkəmlə, abır-həya və ağıl-kamalla bəzənsinlər. Dəbdəbəli saç düzümü ilə, qızıllarla, mirvarilərlə və yaxud bahalı paltarlarla deyil.

altınsuvla ~ Bax: **altunsuvla ~**

altışar say. – altı dənə, altı-altı

altmış // **altımış** // **altmiş** say. – altımış: **Yegdanə altımış xızıllıx.** Altmış qızıl sikkəlik sinəbənd.

altmışar say. – altmış dənə, altmış-altmış

altn Bax: **altın**

altun ~ (-nunq, -ğa, -nu, -dan, -lar, -larnı, -lardan, -u, -una, -un; -umuz, -unquz) ism. və sif. – altun, qızıl: Açı**p xaznaların bernaladılar Krisdosnu: altun berdilər nemik xanğa, temyan berdilər neçik kahanağa, zmur berdilər neçik ölümlügə.** Öz xəzinələrini açıb Məsihə xana verilən tək altun, kahinə verilən tək büxur, ölümlü insana verilən tək ətirli qətran verdilər. **Xanı kümüş üsnə hem altunnunq üsnə xızıl aytıyır** O**,** gümüşü ağ, qızılı isə qırmzı adlandırır. **Coharnı, altun da menstruumnu kügürt suvu ündiyir.** Fəlsəfə daşı, qızıl və menstruumu o, kükürdlü su adlandırır. **Aytıyır altunnu, xaysı coharı aşira pilisopalarnınq bolıyır** O fəlsəfə daşı vasitəsilə əldə edilən qızıl barədə danışır. **Yazdırdılar altun bilə aruv altundan.** Qızılla, xalis qızılla yazdırdılar. **Korkayttırıy edim xatunlarnı kiyiniş bilə altundan, incidan, türlü-türlü kiyinişlərdən.** Mən qadınları altun, inci (mirvari) və müxtəlif keyimlərlə bəzədim. **Yaxşıdır etmə yalmujna, ne ki xazna xoyma altundan, zera yalmujna ölümdən xutxarır veçnıy** Sədəqə vermək xəzinə toplamaqdan daha yaxşıdır, çünki sədəqə əbədi ölümdən qurtarır. **Altun xoran.** Qızıl səcdəgah (altar). **Xanatları kügürçinninq kümüşlu da yağırları aras anınq rənginə altunnunq** (Məz. 67/68: 14) .Qanadları gümüş kimi bərq vuran, tükləri isə qızıl kimi parlayan göyərçin. **Safi altun.** Saf altun. **Alğın satun mendən altun sinəgən otta ki,** x**ocalanğaysen (**Vəhy. 3: 18). Zəngin olmaq üçün Məndən od içində xalis olan qızıl al.

altunbas // altınbas // altrnbas // altembas ism. – qızıl saplarla işlənmiş incə naxışlı qalın ipək parça

altunçı // **altunçi** Bax: **altınçı** 1

altun-inçi Bax: **altın-inçi**

altun-kümüş (-tən, -ünqnü, -ləri) Bax: **altın-kümüş**

altunla ~ (-ğan) Bax: **altınla** ~

altunlan ~ (-ğan) fel. – qızıl təbəqəyə bürünbək, altunlanmaq, qızıllanmaq

altunlu Bax: **altınlı**

Altunsözlü x. ism. – Altunsöz (qızıl xıridarı, sözü qızıl qədər qiymətli). Bu ləqəblə Ravenn arxiyepiskopu Petros (380-450) tanınmışdır: **Bedros Altunsözlü**

altunsovlu Bax: **altunsuvlu**

altunsuvla ~ (-ğan), **altınsuvla** ~ (-ğan) sif. – qızıl təbəqə ilə örtülmüş. Səthinə qızıl təbəqəsi çəkilmiş

altunsuvlu // **altnsuvlu** // **altunsovlu** sif. – qızıl təbəqəli, qızıl örtüklü, qızıl qabıqlı

aluçı (-dır, -nınq, -ğa, -dan; -lar, -larnınq, -ları) // **alıçı** (-dan) ism. – alıcı: D**amah, haybat sövüçi ya könüsüz lixva aluçı** (lTim. 3: 8). Tamahkar, şöhrətpərəst, ədalətsizcəsinə faiz alan. **Biy Tenqrimiz bizim, sen işitir edinq alarğa, Tenqri, sen arıtuçı bolur edinq, öç aluçı üstnə barça işlərninq alarnınq (**Məz. 98/99: 8). Ya Rəbb olan Tanrımız, Sən onlara cavab verdin, pis əməllərinin cəzasını versən də bağışlayan Tanrı olduğunu onlara göstərdin. **Cuvutluxtan artıx**

barça tenqdaşlarmdan ki, menim cınsımdən edilər, artıx öç aluçı edim menim atalarımnınq adatı üçün (Qal. 1: 14). Yəhudi dinində soydaşlarım arasında yaşıdlarımın bir çoxundan daha irəlidə idim. Ata-babalarımın adət-ənənələrinin təəssübkeşi (qisas alıcısı) idim.

alvax Bax: **avlax**

amal Bax: **əməl**

amanat Bax: **əmanət**

amen // amən (-ni) // **amenn** // **ammən** // **ammen** nida - (< yəh, ər.) – amin! Duaların doğruluğunu təsdiq edici nida: **Egər ki bolmasa, egər alğışlasanq canınq bilə da bolğay anda biliksiz, neçik aytkay seninq maxtağanınqa amenni? Zera ne ki aytıyırsen, ol bilməstir (**1Kor. 14: 16). Təlim görməmiş adamın vəziyyətini nəzərə al. Sən yalnız ruhən şükür duası edirsənsə, o sənin şükranına necə «Amin!» desin?

amən // **ammən** Bax: **amen**

ana (-dır, -nınq, -ğa, -nı, -da, -dadır, -dan. -m, -mnnq, -mnınqmen, -ma, -mnı, -mda, -mdan, -nq, -nqnınq, -nqa, -nqnı, -nqda, -sı, -sısen, -sıdır, -sınnq, -sına, -sın, -sında, -sından, -mız, -mıznınq, -mızğa, -mızdan, -nqıznınq, -nqızğa, -lar, -ları, -larınınq, ~larına, -ların, -larından) ism. – ana: **Sionğa aytırlar ana da adam toğdu anda da kendi himlərin xoydu anda Biyikləngən** (Məz. 86/87: 5). Sion barədə deyiləcək: "Ana. Onların hamısı bu yerdə doğulub, Haqq-Taala buranı sarsılmaz edəcək". **Hörmətlə atanqnı seninq da ananqnı seninq ki, sanqa yaxşı bolğay da uzun ömürlü bolğaysen üsnə yer yaxşılıxınınq, xaysi ki Biy, Tenqrinq seninq, bersər sanqa (**Qan. 5: 16). Tanrının, Rəbbin sənə əmr etdiyi kimi ata-anana hörmət et ki, ömrün uzun olsun və Allahın, Rəbbin sənə verəcəyi torpaqda xoş güzəranın olsun. **Baxqın manqa da yarlıxa manqa ki birginəsi anamnınqmen da miskinmen** (Məz. 24/25: 16).

Üzünü mənə sarı çevir və lütfkar ol,
Çünki anamın birdənəsiyəm
Və miskin vəziyyətdəyəm.

Yat boldular yazıxlılar analarından, aldandılar xoynundan, sözlədilər yalqan (Məz. 57/58: 4).

Pis adamlar ana bətnindən belə, azğındırlar,
Çaşıblar, doğulan gündən belə, yalançıdırlar.

anabad (-nınq, -ğa, -nı, -da, -dan, -larnınq, -larnı, -larda) // **yanabad** (-nınq, -ğa, -da // -ta) ism. (ort. frs.) – çöl, səhra, düz, düzənlik: **Öçəşti Xızıl tenqizgə da xurudu, yol körgüzdü alarğa antunt aşıra, neçik anabad aşıra (**Məz. 105/106: 9). Onun məzəmmətindən Qırmızı dəniz qurudu, çöldən keçdikləri kimi onları dərin yerdən keçirtdi. **Yoxesə dügül ki, köplərgə alardan biyəndi Tenqri, zera bir oqurdan xırıldılar anabadda anda (**1 Kor. 10: 5). Amma Tanrı onların çoxundan razı qalmadı və cəsədləri çölə sərildi. **Tuzlarınq seninq tolunsun semizlik bilə, semizləngən qorqluqu anabadnınq** (Məz. 64/65: 13).

Düzlərin sürülərlə dolur,
Dərələrini taxıl bürüyür.

anadad Bax: **anabad**

Anağ // **Anaq** x. ism. – Anaq. Əslən türk-Arsaq sülaləsindən və Parfiya şahları nəslindən olan zadəgan, müqəddəs Qriqorinin atası və ilk alban katalikosu Qriqorisin (Cərcis peyğəmbərin) ulu babası: **Surp Krikor Lusavoriçninq atası Anağ.** Maarifçi müqəddəs Qriqorinin atası Anaq.

analı-oğullu zrf. – analı-balalı, analı-oğullu: **Analı-oğullu aldadılar Sahaqnı, ayttılar: "Muna sanqa Esav kiyik keltiriptir"** (Yar. 27:1-29). Analı-oğullu (sözü bir yerə qoyub) İshaqı aldatdılar, dedilər: "Budur, oğlun İsav sənə maral (ov) əti gətirib".

analıx (-nınq, -qa, -ından) ism. – analıq, analıq hissi, ana qayğısı, ana məhəbbəti, anaya məxsus (anadan qalma) miras: **Etsin Allah üçün, Tenqri üçün etsin kendinə atalıx da analıx.** Qoy Allah xətrinə, Tanr naminə ona ata-ana qayğısı göstərsin (ona atalıq və analıq etsin).

ananınqki sif. – ananınki, anaya məxsus olan: **Tutundu anasın ananınqki ağır zamanlarna baxma, neçik xastalıxına, alay xartlıxına.** Ananın ağır zamanlarında, istər xətələndikdə, istərsə də qocalığında ona (anaya) qulluq etməyə boyun oldu.

anar Bax: **anqar**

anaraq (-nınq) // **anarağ** sif. – pozğun, sapıq, zinakar, əxlaqsız

anarağlıx ism. – pozğunluq, sapıqlıq, zinakarlıq, əxlaqsızlıq

anartas Bax: **tasbolmaxlıx**

anasduac ism. (ort. frs.) – ateist, kafir, Tanrının varlığına inanmayan: **Anasduac cuhutlar.** Kafir yəhudilər.

anaşəhər (-idir) ism. – paytaxt, baş şəhər, ana şəhər

anasız ism. –anası olmayan, anadan yetim, yetim Bax: **atasız**

anəkə ism. – anacan. Anaya müraciətin əzizləmə forması

ancu Bax: **anda**

ança bağ. və zrf. – elə, belə, eləcə, beləcə, eləcə də, belə ki, o qədər, bir o qədər: **Dağı yaman başladı meni xanga yamanlama ança ki, başıma keltirdi ki, xan buyurdu ki: "Eltinqiz da kesinqiz Xigarnı** (Müdrik Akixar haqqında rəvayət)**.** Və başladı məni xana yamanca pisləməyə, belə ki, iş mənim ölümümə qədər gəlib çıxdı və xan buyurdu: "Xiqarı aparın və tikə-tikə doğrayın". **Buyurdu yalanaçlatma da tövdürtmə temir tayaxlar bilə, ancya ki, söväkləri köründü.** Onu çılpaq edib dəmir dayaqla elə kötəkləməyə əmr etdi ki, sümükləri görünsün. **Anğa keltirirmen ki, ölülərin Tenqrininq közündən çıxarırmen.** Mən onları elə bir vəziyyətə gətirəcəyəm ki, Tanrı onların ölülərinə də nifrət edəcək. **Adam neçə küfür berir, ança Tenqrini tanar**. İnsan nə qədər küfr söyləyirsə, bir o qədər də Tanrını danmış (inkar etmiş) olur. **Neçə köp bolsa, ança igidir.** Nə qədər çox olsa, bir o qədər yaxşıdır. **Zera kləmən biliksiz bolma sizgə, xardaşlar, tarlıxımız üçün bizim bolğan Asiyada, zera artıx küçümüzdən çıxarı ağırlandıx anqar ança ki, umsasiz da boldux tirliktən (**II Kor. 1: 8). Ey qardaşlar, Asiya vilayətində çəkdiyimiz əziyyətlərdən bixəbər olmağınızı istəmirəm. Gücümüzdən daha artıq bir yük altında qaldıq. Hətta yaşamaqdan belə, ümidimizi kəsmişdik.

ançax I zrf. – o qədər, bir o qədər, həmin zaman, o anda, cəmi, cəmisi, üs-üstə, toplam, ancaq-ancaq, ancaq, təkcə, yalnız, artıq: **Xaçan bu 3 nemə dünyadan eksilsə, ançax dünyanınq buzulmaxıdır.** Bu üç şey dünyadan haçan əskilərsə,

dünyanın nizaməda o anda pozular. **Bizim çörüv asrı az edi, ançax 4 minq adam bar edi.** Bizim ordu aşırı dərəcədə (həddən artıq) az idi, ancaq-ancaq (cəmisi) 4 min adam olardı. **Öç saxlap ançax sağış etər öldürməgə Qayınnınq xardaşın alır.** Ürəyindəki qisas hissi ilə yalnız (ancaq) və yalnız bir iş görmək istəyən - (ancaq) qardaşnı öldürməyi düşünən Habili misal çəkir. **Hali bildim ki, yarlığadi Biy Tenqri da alğışladı meni da hali ançax dügülmen tul da ne züryatsız.** Mən indi başa düşdüm ki, Tanrı mənə rəhm etmiş və mərhəmət göstərmişdir və indi mən artıq nə dulam, nə də züriyyətsiz. **Evet egər öldüx esə Krisdos bilə, inanırbiz ki, tirilgəybiz də anınq bilə. Bilipbiz, ki, Krisdos turuptur ölüdən, bundan sonqra ölməs ançax da ölüm anqar dağı biylik etməs (**Rom. 6: 8, 9). Əgər Məsihlə ölmüşüksə, Onunla yaşayacağımıza da inanırıq. Çünki bilirik ki, Məsih ölülər arasından dirildiyinə görə bir daha ölməyəcək və ölüm Ona artıq hökmranlıq etməz.

ançax II ədat. – ancaq, təkcə, yalnız: **Tek ançax Tenqri boluştı da aldılar Yerusalemni.** Onlara təkcə Tanrı yardım etdi və onlar Qüdsü ələ keçirdilər.

and Bax: **ant**

anda I əvz.– onda. "O" (ol) şəxs əvəzliyinin təkinin yerlik halı: **Tenqri inamlıdir da yoxtur anda egirlik, toğru da könüdür Biy (**Qan. 32: 4). Tanrı haqqdır və Onda əyrilik yoxdur (əyrilik ona xas deyil), doğrudur və ədalətlidir. **Anda tinər barça tügəlliki Tenqrilikninq ten sartın** (Kol 2: 9). Çünki Tanrının tam bütövlüyü bədəncə onda (Məsihdə) yaşayır.

anda II zrf. – ora, orada, o yerə, o yerdə, o zaman: **Sırtmax hadirlədilər ayaxlarıma menim da aşax ettilər boyumnu menim, xazdılar alnıma menim terən çuğur da tüştülər kendiləri anda** (Məz. 56/57: 7).

Yolumda tələ qurub canımı üzdülər,
Mənə quyu qazdılar, amma özləri ora düşdülər.

Anda fərəh bolıyıx biz anqar (Məz. 65/66: 6). Orada biz bunlara sevindik. **Oğlum, xayda seni ündəməsələr hörmətləp, anda barma da kimesə sendən söz sormasa, anda cuap bermə** (Müdrik Akixar haqqında rəvayət). Oğlum, o yerə getnə ki, hörmət göstərib səni dəvət etməyiblər, nə qədər ki, bir şey soruşmayıblar, cavab vermə (nə zaman soruşarlar onda cavab verərsən). **Açınqız manqa eşikni toğruluxnunq ki, kirgəymen anda da xosdovanel bolıyım Eyəmizgə** (Məz. 117/118: 19).

Salehlik darvazalarını üzümə açın,
Qoy oradan keçib Rəbbə şükür edim.

Salmos Tavitninq. Yenqməx üçün. Xaçan edi ol ançax anabadda anda Cuhutluxta (Məz. 62/63: 1). Davudun məzmuru. Qələbə üçün. Yəhuda səhrasında olanda. **Barır egəç çerüvgə (çerövgə) da öldürgəy anda kişi...** Orduya gedərsə və orada adam öldürərsə...

anda-bunda zrf. – orada-burada, ora-bura: **Bu, yürüp anda-bunda, xaçan ki ol hayvanlarnı tapma bolmadi, bardı Samuel markaregə ki, anqar aytkay, xayda tapulsar** (1 Pad. 9: 3-6) O, ora-bura vurnuxub, heyvanları tapa bilmədi. Bundan sonra Samuel peyğəmbərin yanına getdi ki, haradan tapmaq lazım olduğunu o söyləsin.

andagi // **andaki** sif. – ondakı, ona xas, ona aid olan: **Arakəllər üçün tanıx: andagi tirliktən bolmalı.** Həvvarilər barədə şəhadət: Ondakı həyatdan əsər olmalı.

Xaysılarınınq ki xaranqğulanıptır yürəkləri alarnınq da yatlanıptırlar andagi tirlikindən Tenqrininq, biliksizlik üçün ki, bardir alarda, soxurluxları üçün yurəklarininq alarnınq. Ürəklərinə qaranlıq çökənlər və ondakı Tanrıya xas həyata yadlaşanlar (həyatdan uzaqlaşanlar) öz biliksizlikləri və ürəklərindəki mərəzləri üzündən belə etdilər. **Ne xadar dağı artıx artarlanğanmızğa bizim hali xanı bilə anınq xutulğaybiz anınq bilə öçəşməxtən andaki (**Rom. 5: 9). Beləcə Onun qanı ilə indi saleh sayıldığımıza görə Onun vasitəsilə də Ondakı qəzəbdən (Tanrının qəzəbindən) mütləq xilas olacağıq.

andan (-dır, -siz) əvz. – ondan. "O" (ol) şəxs əvəzliyinin təkinin çıxışlıq halı: **Ya kim berdi anqar ötünç da alğay ornuna andan? Zera andan da anınq bilə da andadır barça. Anqar haybat menqilik! Amen** (Pom. 11: 35, 38). Kim Ona bir şey verdi ki, əvəzini Ondan istəyə bilsin?» Çünki hər şeyin mənbəyi Odur, hər şey Onun vasitəsilə və Onun üçün var oldu. Ona əbədi olaraq izzət olsun! Amin. **Men turdum xan andan üsnə Sionnunq (**Məz. 2: 6). Mən Sion üzərində xanlığı Ondan aldım.

andaş Bax: **antdaş**

andiç ~ (-məgə, -tim, -tinq, -ti, -tilər, -iy edi, -iyir, -iyirbiz, -iyirlər, -kənni, -kənlərgə, -məx, -məxkə, -məxtən -ip) // **andic** ~ (-tim) // **andıç** ~ (-tim, -tım, -tı) fel. – and içmək: **Xoydum ant tanqlanğanlarıma menim, andiçtim Tavitkə, xuluma menim...** (Məz. 88/89: 4).

Öz seçdiyimlə əhd kəsmişəm,
Qulum Davud üçün belə and içmişəm…

Bir kez andictim arilikimə menim ki, Tavitkə men yalğanlanmıyım (Məz. 88/89: 36).

Müqəddəsliyim naminə bir dəfə and içmişəm:
Davuda yalandan söz verməyəcəyəm.

Neçik andiçtim öçəşmaximdə menim ki, kirgəylar tincyliximə menim (Məz. 94/95: 11).

Buna görə qəzəblənib and içmişəm:
"Onlar Mənim rahatlıq diyarıma girməyəcəklər"

andiçkən Bax: **antiçkən**

andiçtir ~ fel. – and içdirmək, and içməyə məcbur etmək: **Ludvikni, hörmətləp, yeberdi volno övgə, andiçtirip kensin ki, artıx xılıçnı kötürməgəy anınq üsnə.** O, bir daha ona qılınc qaldırmayacağı barədə and içdirib Lüdoviki hörmətlə azad etdi və evə yola saldı.

andıç ~ Bax: **andiç** ~

andıçkən Bax: **antiçkən**

Andioq I (-nunq, -qa, -ta) // **Antioq** (-nunq) // **Antiox** (-nu) // **Yandioq** x. ism. (yun) – Antioxiya (Antakya). Selevkilər dövründə Suriya şahlığının paytaxtı. Hazırda bu şəhər Türkiyənin Xatay elində yerləşir və Antakya kimi tanınır. Ümumilikdə isə bu adı qədimlərdə 16 irili-xırdalı şəhər daşımışdır: **Yoxsa ol sahat keldi Gepas Andioqqa, xarşı turdum anqar, zera kök neçik ki, yanqılğan kibik edi** (Qal. 2: 11). Kefa Antakyaya gəldikdə isə şəxsən ona qarşı çıxdım, ona görə ki tənqidə layiq idi.L**uğas avedaraniç peşəsi bilə otaçı, hakim edi, 72 arakellərdan edi da sonqra Bolos arakelgə şagert boldu. Buyruxu bilə Bolos arakelninq**

yazdı Avedaranın kendininq 17 yıldan sonqra hampartsumundan Jisus Krisdosnunq Andioq kerməninə asori tildə. İncil katiblərindən Lukanın peşəsi həkim idi. 72 həvvaridən biri idi və sonra həvvari Pavelin şagirdi oldu. İsa Məsihin qeybə çəkilməsindən 17 il sonra onun buyuruğu ilə Antakya şəhərində assur dilində öz "İncil"ini yazdı.

Andioq II Bax: **Andioqos**

andioqaçi (-lərgə) ism. – antakyalı (antioxiyalı)

Andioqos // **Andioq** (-nunq) x. ism. (yun) – IV Antox Yepifan. Böyük Antioxun ikinci oğlu və Suriya padşahı. Tarixdə Qüds (Yerusəlim) məbədini talan edən və 40 mindən artıq yəhudini məhv edən hökmdar kimi əbədiləşmişdir: **Andioqos padşah aldı Erusalemni.** Antiox padşah Qüdsü aldı (ələ keçirdi).

andox zrf. – elə ora, geri, geriyə, yenidən, təzədən, eləcə də, həmçinin: **Evet ki aşaxlandım men, neçik oğlan urulmış töşlərindən anasınınq kendininq da xaytğanı anınq andox anqar** (Məz. 130/131: 2). Bəli, ovunub səsimi kəsmişəm, ana qucağından ayrılan, sonra da geri dönən körpə kimiyəm. **Çıxqay can alardan da xaytkaylar andox topraxqa da ol kündən tas bolğay barça sağışları alarnınq** (Məz. 145/146: 4). Onlar canı çıxan kimi torpağa geri dönər, niyyətləri bircə anda yox olar. **Egər ki kimesə körsə seni ki, biliklikinq bar, olturğan bujnitsada, dügül ki sumenası esininq anınq ki muxanatlıx bilə birləniptir,andox yasalğay yeməgə xurbannı? (**I Kor. 8: 10). Əgər vicdan məsuliyyəti zəif olan şəxs görsə ki, bilik sahibi olan sən də həmçinin büt evində süfrəyə oturmusan, bütlərə təqdim olunan qurbanın ətini yeməyə cürət etməzmi?

androniq ism. (< androniqos yun) – kişilərə qalib gələn, ərənləri yenən

Anğarya x. ism. (yun) Ankara. Türkiyənin hazırki paytaxtı

anğınça zrf. – onca, o qədər ki, o vaxta qədər. "Ol" əvəzliyindən törəmədir: **Da yarğuçi bolmağay 1 yartın işitkəy, könününq ya egrininq, gileyin angınça ki, yüz də yüz eksi da turmıyın** (Mxitar Qoşun "Törə Bitiqi" kitabından). Qoy, hakim bir tərəfin, - istər haqlı tərəf olsun, istər haqsız, - sözlərinə nə qədər ki, onların hər ikisi üz-üzə durmayıblar, qulaq asmasın.

anğren (-lər) ism. (ort. frs.) – qanuna hörmət etməyən şəxs, qamunu pozan adam

anğurya Bax: **anquryalı**

Anğurya Bax: **Anqarya**

anğuryalı // **enquryalı** ism.– ankaralı, Ankara sakini: **´Çöraxçi anguryalı cuvut.** Ankaralı yəhudi çörəkçi.

anğustiae (lat) Bax: **totxarlıx** və **zabunlux**

animuş (-tan, -u, -un, -ların) ism. (lat) – ruh, şüurlu ilkin başlanğıc

anı əvz. – onu, onun. "O" (ol) əvəzliyinin yönlük və bəzi hallarda yiyəlik hallarındakı forması: **Xaçan kördi Herodes ki aldadılar anı tatarlar, yürəkləndi.** İrod tatarların onu aldatdıqlarını görüb, acıqlandı. **Anqar ağzım bilə menim sarnadım da biyiklətiyim anı tilim bilə menim** (Məz. 65/66: 17). Ağzımla Onu səslədim, dilimlə Onu mədh etdim.

anın Bax: **anınq**

anınkibik Bax: **anınqkibik**

anınq əvz. – onun. “O” (ol) əvəzliyinin yiyəlik halındakı forması: **Xırığından köknünqdir çıxqanı anınq, tinçlixi anınq çax xırığına anınq da kimsə bolmas ki, yaşınğay xızovundan anınq** (Məz. 18/19: 7). Bir qırağından göyün çıxır, göylərdə dövrə vurur, heç nə istisindən gizlənə bilmir onun. **Yedilər da yerni öptülər anqar barça semizləri yerninq, alnına anınq tüşkəylər barçası ki, enərlər topraxqa (**Məz. 21/22: 30). Bütün dünya zənginləri yeyib-doyacaq, Rəbbin hüzurunda səcdə qılacaq. Torpağa düşənlərin hamısı – özlərini ölümdən saxlaya bilməyənlər Onun hüzurunda diz çökəcəklər. **Da keçirdi Israyelni arasından anın (**Məz. 135/136: 14). Və keçirdi İsraili arasından onun. **Sapqın yamandan da etkin yaxşılıxnı, xolğın eminlikni da bar artından anınq (**Məz. 33/34 15). Şərdən kənar dur və yaxşılıq elə, sülh dilə və ardınca get onun. **Çağırınqız Tenqrigə, barça yerlər, salmos aytınqız atına annq da berinqiz haybatnı alğışına anınq** (Məz. 65/66: 1, 2). Ey bütün dünya əhli, cuşa gəlib Tanrıya nida edin, şərəfli ismini onun tərənnüm edin, Onun adına şərəflə həmd edin! **Boyum anınq bilə tiridir da oğlum xullux etkəy anqar (**Məz. 21/22: 31). Ruhum Onun ilə yaşayır və oğlum (gələcək nəsillərim) Ona qulluq edəcək. **Böliyim da men zağalsız anınq bilə da saat bolıyım törəsizlikimdən menim (**Məz. 17/18: 24). Onunla mən kamala çatmışam, özümü günahdan qorumuşam. **Xoydu xaramğuluxnu yapovun kendininq da çöp-çövrəsina anınqdırlar otaxları kendininq da xaramğuluxlar suvları çax bulutqa dirə havanınq** (Məz. 17/18: 12). Gizlənmək üçün ətrafını zülmətə bürüdü, tufan qoparan qara buludlardan Özünə çardaq qurdu. Hüzurundan Onun şəfəq saçdı, odlu közlər və dolu buludları yardı. **Ot alnına anınq yaltrasar da çövrəsinə anınq dufan asrı (**Məz. 49/50: 3).

Önündə Onun yandırıb-yaxan alov var,

Ətrafında Onun şiddətli tufan qopar.

anınqki (-dir, -dirlər, -ninq, -gə, -ni, -n, -ndən, -lər, -lərgə, -lərni, -lərdən) – onunki, ona məxsus: **Anınq üçün törə tügəllənir könülüknünq tügəllikin barça adamilərgə anınqkin berməgə** (Mxitar Qoşun “Törə bitiqi”ndən). Ona görə qanunlar təkmil olmalıdır ki, ədalət yerini tapsın və hər kəsinki özünə verilsin.

anınqkibik (-ninq, -kə, -ni, -tən, -lər, -lərninq, -lərninqdir, -lərgə, -lərni, -lərdən) // **anınkibik** zrf. – onun kimi: **Evet yazdım sizgə ki, xoşulmağaysiz, egar ki kimesə xardaş ündəlgən ya borniq bolsa, ya grabaşd, ya aqah, ya pampas etüçi, ya cimri, ya kuç bilə yırtuçı, anınqkibik bilə ötmək ta yemagin** (l Kor 5: 11). Əslində mən sizə yazmışdım ki, siz özünü bacı-qardaş adlandırıb, lakin əxlaqsızlıq edənlərlə, tamahkarlıq, bütpərəstlik, böhtançılıq, əyyaşlıq və yaxud soyğunçuluq edənlə ünsiyyətdə olmayın. Belələri (onun kimiləri) ilə bir yerdə çörək belə, yeməyin. **Siz də anınqkibik kimsələr edinqiz, yoxsa yuvundunquz, arındınqız, yoxsa artarlandınqız atına Eyəmizninq bizim Yisus Krisdosnunq da Canı bilə Tenqrimizninq** (l Kor 6: 11). Sizlərdən bəzisi onun kimi idiniz. Amma Rəbb İsa Məsihin adı ilə və Tanrımızın Ruhu ilə yuyulub təmizləndiniz, təqdis olundunuz və saleh sayıldınız. **Evet men bir neməni bundan işkə keçirmədim. Da yazmadım bunı ki, manqa annqkibik nemə bolğay** (l Kor 9: 15). Amma mən bu hüquqların heç birindən istifadə etməmişəm. Bunları yazmıram ki, mənə də belə (onun kimi) edəsiniz.

anlandır ~ Bax: **aylandır** ~

anlar əvz. – onlar Bax: **alar** və **anqlar**

anlarnnq – onların

anlat ~ Bax: **anqlat** ~

ansıxrıst (-nı) // **ansıxirist** // **ansıxırıst** // **ansıxrist** (-ninq) // **ansıxrısd** // **ansıxrisd** // **ansıqrisd** // **ansıxrəst** // **antixrist** (-ninq) ism. (antichristus lat) – antixrist, Dəccal. Xristian və müsəlmanların qiyamətdən öncə peyda olaraq bütün bəşəriyyəti aldadacağına və sapıqlığa, əxlaqsızlığa, küfrə sürükləyəcəyinə inanılan dini personaj. Xristianların inamına görə onu İsa Məsih, müsəlmanlara görə isə İsa Məsih və Mehdi Sahub əz-Zaman öldürəcəklər.

ansız zrf. – istəmədən, qeyri-iradi, biixtiyar, özündən asılı olmayaraq Bax: **anqqsızın** və **anqsızım**

ansızım // **ansızın** zrf. – birdən-birə, gözlənilmədən, qəflətən, qəfildən, bir anda: **Xardaşlar, egər ki ansızım, kes-kenetə tüşkəy kimesə sizdən ne yazıxqa da esə, siz ki duxovnıylarsız, toxtatınqız anınqkibikni can ivaşliki bilə, saqt bolunquz boyunquzğa ki, siz da sinəlməgəysiz** (Qaı. 6: 1). Qardaşlar, əgər gözlənilmədən sizlərdən bir adam bir təqsir üstündə tutulsa, siz ruhanilər onu həlimlik ruhu ilə bərpa edin. Sən də sınağa düşməmək üçün özünə fikir ver. **Salma yapuxluxqa alarğa, kimlər ki toğrudurlar yürəkləri bilə, ansızım salğaylar alarğa da xoramağaylar** (Məz. 63/64: 5). Ürəkləri düz olan günahsız insanlara pusqu qurduqları yerlərdən qəfildən, çəkinmədən atırlar. **Evet ne türlü boldular pusta, ansızım xırıldılar, eksildilər, tas boldular torəsizliklari üçün kendilarininq** (Məz. 72/73: 19). Doğrudan da, onları sürüşkən yerə qoymusan, onları məhvə yuvarlayırsan. Onlar bir anda yox olacaqlar, dəhşət içində itib-batacaqlar. **Ansızım yügürsərlər azsaxlar, neçik yednorojeu da ağır tillilərninq sözü yenqillənsər** (Yeş. 35: 6). Axsaqlar ceyran kimi hoppanacaq, lalların dili sevinclə nəğmə deyəcək. Bax: **anqsızım**

ant (-tır, -nınq, -qa, -qadır, -nı, -ta, -tan, -ım, -ıma, -ımnı, -ınqa, -ınqnı, -ı, -ına, -ın, -ını, -ımızğa, -lar, -larımnı, -ları, -larına, -ların) // **and** ism. – and: **6-ıncı ki, yarğununq işi ant bilə tügəllənir, evet ki, Tenqridən buyurulmadı ant içməgə. Yoxesə yamanlıx artıptır bu zamanda, a krisdanlar tügül ki yalğız yarğu alnına ant içər, yoxsa hər yerdə hər kez heç nemədən, da anınq bilə Xutxaruçumuznunq buyruxun heç etərlər, da biz klədik ki, Tenqrininq boyruxun heç etkənlərgə törə u ganunk berkitip xoydux yarğuda.** Altıncısı odur ki, Tanrı and içməyə icazə verməsə də məhkəmələr and içməklə bitir. Bununla belə, zamanəmizdə pislik və yamanlıqlar çox artmışdır, xristianlar isə Rəbbimizlə olan əhdlərinə xilaf çıxaraq, həm məhkəmədə, həm də harada gəldi və hər hansı bir önəmsiz səbəb üzündən and içirlər. Biz də Tanrı qanunlarını pozanlar üçün məhkəmə hüququ və qanunları yaratmağı qərara aldıq. **Dağı da ant üçün ki, ne türlü kerək ant içməgə.** Bir də and barədə. Andı necə içmək lazımdır. **Tügül ki boyrux berip aytırbiz, yoxsa övrəniptirlər yaman antlar içməgə, anınqkibiklərgə törə u qanunk toxtatırbiz. Ulu xorxulu buyruxun Tenqrininq köriyirbiz emdigi vaxtta adəmilərninq ayax tibinə, zera asrı artıptır heç nemə üçün ant içmək, xaysın ki Biyimiz Krisdos buyuruptur ki, heç ne bir kez də ant içməgəylər, bügün köriyirbiz, sahal iş üçün da heç nemə üçün mahalədə u hezem arasına u talaşqanda asrı yaramas antlar içərlər, tügül oğlanlar, yoxsa**

xartlar da, tügül aşxarağanlar, yoxsa köp kez kahanalar da. Da xaçan ki yarğu işi yoluxsa aralarına, tözməslərdir yarğu alnına barğınça ya yarğucı buyurğınca, talaş arasına, barırda yarğuçığa köp kez antlar içərlər xorxulu antlar bilə, da xaçan kelsələr yarğuğa da yarğuçu buyursa könülük üçün ant, da ol çaxta utru bolurlar ki, barça dünyaninq aslamı üçün ant içmənbiz, da klərlər munınqki sözlər bilə ki, kendi kendilərin törə saxlovucu körgüzgəylər. Da kimsə tabalasa ki, törədən burun nek antlar içər edinqiz?– «Anınq üçün ki, inanmaslar edi bizgə»,– da pambasel etərlər Krisdosnunq törəsin ki, ne üçün buyurmadı ant içməgə? Oxşarlar anınqkibiklər soxurlarğa ki, soxurnunq körməkliki xarmalamaxtır. Anınqkibiklərgə bolur aytmağa ki, Krisdos xoymadı çarəsiz törə, yoxesə çarəli. Egər ki çarəsiz iş bolsa edi, törə xoymas edi ki, barça kendininq ari vartabedliki bilə ol türlü bu yergəni da bu türlü klədi ki, biz könü krisdanlar bolğaybiz, ol türlü heç kerək bolmağay bizgə ant **içmək bizim könü u toğru teprənişimiz üçün.** And içmək barədə biz hökmlə danışmırıq, fəqət bunun üçün qayda – qanun qoymaq istəyirik, çünki bu, get – gedə pis bir vərdişə çevrilir. Tanrının böyük və sərt buyuruğuna insanların önəm vermədiyini, boş yerə and içməmək barədə İsa Məsihin hökmünə baxmayaraq, insanların, yeri gəldi-gəlmədi, and içdiklərini, bunu küçədə, mübahisə edəndə və hər boş şey üçün etdiklərini görürük. Özü də bunu təkcə uşaqlar yox, həm də yaşlılar, təkcə adi insanlar yox, həm də ruhanilər edirlər. Aralarında hər hansı bir mübahisə yarandıqda məhkəməyə gedib çatmalarını və ya hakimin onları and içməyə məcbur etməsini gözləmədən ən dəhşətli şeylərə and içirlər, məhkəmə qarşısına çıxdıqda və bunu onlardan hakim tələb etdikdə dərhal etiraz edir və deyirlər ki, heç nəyin müqabilində and içməyəcəklər. Özlərini qanunun keşikçisi kimi göstərməyə çalışırlar. Bu an onları kimsə "Belə isə, yolda niyə and içirdiniz?" – deyə məzəmmət edərsə, dərhal cavab verirlər: "Çünki onlar bizə inanmırlar". Ardınca da Məsihin and içməyi yasaqlayan qanununun qarasına deyinirlər: "Axı, O, and içməyi niyə yasaqlayıb?" Onlara cavab vermək olar ki, Məsih edilməsi mümkün olmayan yox, mümkün olan qanunlar qoyub. Əgər onlar icrası imkansız qanunlar olsaydı, o onları qoymazdı. Çünki o, öz elmi ilə bizim gerçək imana sahib xristian olmamıza, əməlisalehliyimiz və inancımızın kamilliyi səbəbindən and içməyə ehtiyac hiss etməməmizə nail olmaq istəyirdi. **Xaytıp ant içti Tenqri Tavitkə könülük bilə, dağı munqar oxşaş işlər. Da arakəl ant içti, aytıp: «bazıp sizgə ant içərmen, xardaşlar». Xanlar da könülük üçün ant içərlər, alay ox ulu biylər ki, toxtalğay ki, tiyişlidir ant içməx, artıxsı yarğuda. Xaytp, megnel etərmen Tenqrininq antını. Övrətir bizni arakəl, aytıp: barça utru bolğan adəmilərgə biri birinə toxtalğan işninq ucu anttır, xaysın ki klədi Tenqri, 2 teşkirilməs neməni ortada xoyup, ant bilə da kendi boyından ant içmək bilə, tutunur alğışnı bermägə. Da aytkanımız bu türlüdür ki, adəmilərgə u artıxsı xanlarğa övrənciktir ant içmək kendi boylarından, xaysı bilə ki, tügəllikin işninq möhürlərlər, ol türlü Tenqri də bu oxşa işni boyına aldı dügül ant içmək bilə, yoxesə körgüzmək bilə ki, adəmilər ant bilə kendilərininq işlərin toxtatırlar. Ol türlü Tenqrininq tutunmaxı da yalğansızdır. Xaytıp aldı Tenqri adəmininq tarbiyatın tügül ki, Tenqri adam tarbiyatınq alıp da bizim övrəncikimizgə tüşti. Yoxesə, bizim övrəncikimizni körüp, övrətti bizni yaxşı**

xılınmaxka. Ol türlü Aprahamnınq da törə bilədir ki, xoydu xulu üsnə tanıxlıx üçün. Ol türlü Tenqri Noy vaxtına kendi yayını tutundı xoymağa köktə tanıxlıx üçün ki, dünyağa şağavatlımen. Klərmen aytma ki, ne türlü bolur ant içmək. 2 türlü orinağdır ant: biri xosdovanutiundur, birsi dinini tanımaxtır. Din tanmaqnınq antı budur ki, xoyğay xolunu xaç üstünə ya yıxöv üstünə da hrajarel bolğay ari yöxövdən; ya aytkay alay: kendi krisdan dügül, egər ol iş alay tügül esə. Kim bu türlü ant içsə, alay tut ki, dinin tandı, xaysı ki tiyməstir krisdan kişigə munınqki antnı üstünə kötürməgə, egər ki ölümgə də keltirsələr ya övün buzmağa kləsələr. Xaytıp xosdovanutiun antı budur ki, xoyğay xolunu xaç, ya Avedaran, ya yöxöv üstünə da bilgəy ki, Tenqri yapuxnu bilicidir, da aytkay: «Bilir Tenqri, da bu xaç u Avedaran u surp yöxöv ki, könüdür aytqanım»,– da aytqay alay ki, bularnınq hörməti u zorqu üçün ki, yalğan aytman,– bu türlü ant xosdovanutiundur, xaçan ki Tenqrini yapux bilici aytır, Avedarannı Krisdosnınq sözü aytır da yöxövni Krisdosnınq övün aytır. Da xaçan ki kimsə kləsə ant içməgə, xosdovanutiun ant içkəy, bolmağay ki, kimsə dinin tanmax antın içkəy, munu ögüt berip aytırmen, boyrux bermməndir. Egər ki dəvikarlar 2-si də krisdan bolsa, biri birinə utru bolup, da din tanmax antını kləgəy berməgə, yarğuçu sürgəy alnından da berməgəy ol antnı içməgə angınca ki, poşumanlıxka kelgəylər, xosdovanutiun antın bergəylər. Və demişdi: "Özümə and olsun!" Və İbrahim də qulundan and içməsini tələb etmişdi. Eləcə də Tanrı Davudun önündə haqqa and içmişdi və s. Həvvari Pavel bizi öyrədərək deyir: "Qürur hissi ilə önünüzdə and verirəm, qardaşlar". Xanlar da, böyük bəylər də sədaqət andı içirlər ki, bu da andın gərəkliliyinə, xüsusən də məhkəmədə vacib olduğuna dəlalət edir. Beləliklə, Tanrıya and içməyi izah edirəm. Həvvari (Pavel) öyrədir: "Təsdiqini tapan and insanlar arsındakı hər cür mübahisəyə son qoyur" və Tanrı bunu xoş qarşılayır, amma bununla yanaşı iki şeyə - öz canına içilən anda və Tanrıya içilən anda diqqət yönəldir. Söyləniləni belə anlamaq lazımdır: İnsanlarda, xüsusən də xanlarda mütləq həqiqəti təsbit etmək üçün and içmək adəti olduğu kimi, buna bənzər bir şeyi Tanrı da öz üzərinə götürmüşdür, amma and içmək üçün yox, insanlara and içməklə sözlərində və əmllərində düz olduqlarını sübut etmələrinin mümkün olduğunu göstərmək üçün. "Onun andı yalandan xalidir" Tanrı kəlamının mənası budur. Tanrı insanların qayda – qanunlarına ona görə uymadı ki, onlara tabe olsun. Adətlərimizə əməl etməklə bizə əməlisalehliyi öyrətdi. Eləcə də İbrahim qulunu and içməyə məcbur edəndə qanuna uyğun davranmışdı. Eynən Tanrı da Nuh zamanında bütün dünyaya mərhəmətli olduğunu göstərmək üçün öz oxunu (göy qurşağını) göyə yerləşdirməyə boyun oldu. İndi də keçirəm and içməyin qaydalarına. Andın iki növü var: şəhadət və mürtədlik. Mürtədlik (dindən çıxmaq) andı zamanı əllər xaçın və ya kilsənin divarları üzərinə qoyulur və kilsədən üz döndərilir və ya da deyilir: "Əgər filan iş filan cür deyilsə, mən də gerçək xristian deyiləm". Bunu belə başa düşmək lazımdır ki, bu cür and içənlər dinindən çıxırlar, halbuki, gerçək xristianlar, onu öldürmək və evini başına uçurmaqla hədələsələr də, bu cür and içməzlər. Şəhadət andı isə odur ki, Tanrının hər şeyi gördüyünün fərqində olaraq, əli xaçın və ya İncilin üzərinə qoyub deyirsən: "Bunun şərəfinə və qüdrətinə and içirəm ki, yalan söyləmirəm". Belə and şəhadət andıdır, çünki bu zaman Tanrının qeyblərdən xəbərdar olduğu,

İncilin Məsihin sözü, kilsənin isə onun məbədi olduğu təsdiq edilir. And içmək istəyən, qoy, şəhadət andı içsin, amma heç kəs heç vaxt mürtədlik andı içməsin. Bunu hökm kimi yox, tövsiyyə edərək söyləyirəm. Əgər çəkişənlərin hər ikisi xristiandırsa və ortadakı ziddiyyət mürdətlik andını gərəkli edirsə, qoy hakim onları hüzurundan qovsun və tövbə etməyənə qədər onlara and içməyə imkan verməsin, yalnız bundan sonra şəhadət andı üçün vaxt təyin etsin. Hakim and içmək üçün imkan verməyə tələsməməlidir, o öncə məsələni andsız həll etməyə çalışmalıdır, yox, əgər andsız keçinmək mümkün deyilsə, onda hakim əvvəl andın necə içilməli olduğunu, bunun necə ağır iş olduğunu izah etməli, yalnz bundan sonra and vaxtını təyin etməlidir. Xırda – para işlərə görə anda dəvət etmək, dünyanın bütün nemətləri müqabilində olsa belə, and içmək məsləhət deyil. **Dağı da bolmağay ki, az nemə üçün ant bolğay, zera egər dünyaninq igilikin də bersələr edi, tiyməs edi ant içməgə. Egər ki haqarağ bolğaylar ki, yarlıbiz, da anınq üçün kləgəy ant içməgə, tiyəsidir ki, buyurğaylar, borcnunq yarımın tölöv etkəy da ant içməgəy.** Əgər kimsə kimisə borcuna görə və ya hansısa başqa məsələyə görə məhkəməyə verərsə və nə onun, nə də qarşı tərəfin şahidi yoxdursa, məhkəməyə müraciət edənin and içməsinə ehtiyac yoxdur, şikayət edilən isə, əgər dürüst adamdırsa, and içməyə məcburdur. Əgər kiminsə yalandan and içmək və ya kimisə yalandan and içməyə məcbur etmək istədiyi hakimə məlum olarsa, o, yalanın təntənəsinə mane olmaq üçün anda yol verməməlidir.

Qeyd: Yuxarıda gətirilən misallar bütünlüklə Mxitar Qoşun "Törə Bitiqi"ndən götürülmüşdür.

antdaş ism. – anddaş, birlikdə and içən tərəflərdən hər biri, bir-biri qarşısında and içmiş şəxslər

antiçkən (-ninq, -ni, -i, -inə, -lər, -lərninq, -lərni, -ləri, -lərin) // **andıçkən** (-ni, -lərgə) // **andiçkən** (-ni) ism. – məhkəmə iclaslarının daimi iştirakçısı, müşahidəçi, məhkəmədə hakimin yanında oturub həmsədr funksiyasını yerinə yetirən, yardımçı hakim, hakimin köməkçisi: **Eki inamlı antiçkən.** İki güvənilən müşahidəçi (hakim köməkçisi).

antiçkənlix ism. – məhkəmədə müşahidəçilik, yardımçı hakimlik:

antixrist *см.* **Ansıxrıst**

antic ~ Bax: **ant iç** ~

antqına // **antkina** ism. – kiçik and, qısa and içmə

Antroniq (gə) // **Antronigos** x. i. (yun.) – Bibliyada adı çəkilən tarixi simalardan və ilk xristianlardan biri. Onun adı sonrakı dövrlərdə bəzi xristian xalqlar arasında, o cümlədən albanlar və ermənilər arasında geniş yayılmış adlardan idi. Bax: **androniq**

antsız sif. və zrf. – andsız, and içmədən: **Əvaəldən yarğuçı cəht etməx kerək ki, antsız yarğuğa uç etkəy.** (Mxitar Qoşun "Törə Bitiqi"nə XVI əsrdə edilmiş əlavədən) Hakim məhkəmni əvvəl andsız sonuclandırmağa cəhd etməlidir.

anq ~ (-ma, -mağa, -ğın, -ıyıx, -alıx, -ınqız, -mıyım, -ma, -mağın, -dım, -dınq, -dı, -dıx, -dılar, -madınq, -madın, -madı, -madılar, -ıpmen, -armen, -ar, -arbiz, -arsiz, -arlar, -man, -mam, -mamdır, -mas, -ar edi, -arlar edi; -ıyırmen, -ıyır, -ıyırbiz, -ıyırsiz, -ıyırlar, -ğaymen, -ğaysen, -ğay, -ğaybiz, -ğaysiz, -ğaylar, -mağaymen, -mağaysen, -mağay, -mağaysiz; -ğıy edi, -ğıy edilər, -sam, -sanq, -sa, -sax, -sanqız, -

salar, -masam, -masalar, -sam edi, -salar edi, -sarsen, -mısarmen, -mısarsen, -ğan, -ğanlarnı, -mağan, -max, -maxqa, -maxıma, -maxınq, -maxınqdan, -maxı, maxına, -maxınqızını, -ıp) fel. – yada salmaq, xatırlamaq, zikr etmək: **Anq meni, Biyim menim Yisus Krisdos, yazıxlı da arzanisiz xulunqnu, yarıxlı da uçmaxınqda seninq.** Rəbbim mənim İsa Məsih, məni - öz günahkar və layiq olmayan qulunu nurlu cənnətində yada sal. **Anq, anqmağan yamannı Biy, ol sahatnı ki, xaçnı tirgizüçii eninq üsnə kötürdünq. Yada sal, qəddarlağı yadında saxlamayan Rəbbim, o saatı ki, can verən xaçı çiyinlərin üzərinə qaldırmışdın. Xutxaruçım menim sensen, aylan manqa da anqğın meni xanlıxınqa seninq.** Xilaskarım mənim, öz (göylərdəki) Xanlığında nəzərlərini məndən əsirgəmə və məni də yada sal. **Anqma ilgərgi yazıxlarımnı menim ari atınq üçün seninq.** Müqəddəs adın naminə mənim keçmiş günahlarımı yada salma (unut).**Tek yalğız ki yarlılarnı anqalıx, xaysı ki men də cahtlandım anı etma (**Qal. 2: 10). Yalnız yoxsulları yad etməyimizi istədilər, mən də məhz bunu icra etməyə səy göstərdim. **Anqıyıx kecçə atınqnı seninq, Biy!** Gecə ikən adını xatırlayırıq, ya Rəbb! **Maxtarmen sizni ki, barça neməni menim anqarsiz da ne türlü ki, sımarladım sizgə, sımarlağanımnı tutqaysız (**l Kor. 11: 2). Hər işdə məni xatırladığınız və sizə tapşırdığım təlimlərə sadiq qaldığınız üçün sizi tərifləyirəm. **Zera kimesə yoxtur ki, ölümdə anqğay seni ya tamuxta tapunmax etkəylər sanqa?** (Məz. 6: 6). Çünki səni ölüb-gedən insan xatırlamaz. O necə ölülər diyarından (cəhənnəmdən) Sənə şükür etsin? **Yöğöştırmağaymen yığınların alarınq xanlı da anqmağaymen atların alarınq erinlərimdə menim (**Məz. 15/16: 4). Yad tanrıların ardınca qaçanların dərdi artacaq. Onlar üçün qan təqdimləri vermərəm, adlarını dilimə gətirmərəm (yada salmaram). **Zera boşatuçi bolsarmen egirliklərinə alarınq da yazıxların alarınq da törəsizliklərin alarınq dağı da anqmısarmen (**İbr. 8: 12). Çünki təqsirlərinə qarşı mərhəmətli olacağam, günahlarını daha yada salmayacağam.

anqa əvz. – ona. "O" (ol) şəxs əvəzliyinin təkinin yönlük halı

anqar əvz. – o, o (şey), "O" (ol) işarə əvəzliyi qismində şıxış edir və işarə edilən şeyi həmin şeyin adı çəkilmədən ifadə edir. Bu halda o, işarə əvəzliyi kimi çıxış edir: **Bunı bilirmen da toxtalıpmen Krisdosta Yisusta ki, nemə yox murdar anınq bilə, tek andan başxa ki, kimesə sağınğay neməni murdar, anqardır murdar** (Rom. 14: 14). Rəbb İsada olaraq əminəm ki, heç bir şey özlüyündə murdar deyil. Amma nəyisə murdar sayan adam üçün o şey (o) murdardır. **Yol körgüzgin manqa izinə buyruxunqnunq seninq, zera anqar biyəndim** (Məz. 118 /119: 35). Mənə əmrlərinin yollarını göstər, bu yollardan (ondan) zövq alaram. **Aytmağay duşmanım menim ki, yenqildim anqar, ya xıstıruçılarım menim fərəhləngəylər ki, men seskəndim** (Məz. 12/13: 5). Qoy düşmənim söyləməsin ki, ona üzərimdə qələbə çalmağa imkan vermişəm və qoy sevinməsin ki, ruhdan düşmüşəm. **Xoca oğlu yılan yedi – ayttılar ki hakimliktir anqar; yarlınınq yedi esə – ayttılar, açlıxtan yedi** (Alban atalar sözü). Varlının oğlu ilan yedi, dedilər ki, dərmandır (həkim məsləhətidir), kasbın oğlu yedi isə, dedilər ki, acından yeyib.

anqdır ~ (-dı, -ır, -ıyırmen, -ır edi) fel. – yadına salmaq, xatırlatmaq: **Anınq üçün anqdırıyırmen sanqa küçəytmə başxışın Tenqrininq ki, bardır sendə**

alğışlağanımdan menim (ll Tim. 1: 6). Bu səbəbdən sənin üzərinə əl qoymağımla Allahın sənə verdiyi ənamı alovlandırmağını xatırladıram

anqğıç (-ıdır) // **anqğiç** // **anğıç** (-qa, -tan) ism. – nərdivan, pilləkan: **Inam açxıçdır köktəgi uçmaxnınq da anqğıçıdır biyiklikninq ki, ne türlü minməx kerək da açıp uçmaxnı kirmax kerak.** İnam göylərdəli cənnətin açarı və Ucalığa (Tanrının hüzuruna) aparan nərdivandır ki, onunla qalxdıqdan sonra qapıları açıb cənnətə girmək olar.

anqıl ~ (-masn, -dı, -dx, -madı, -ır, -mas, -ıyır, -ıyırsiz, -ıyırlar, -ğay, -ğaylar, -mağay, -ğan, -max, -maxqa, -maxıma, -maxınq, -maxına, -maxın, -maxınqızını) fel. – anılmaq, yada salınmaq, xatırlanmaq, adlanmaq, tanınmaq: **Evet borniglik da barça murdarlıx ya akahlıx anqılmasın sizinq aranqızğa, ne türlü ki, tiyişlidir arilərgə.** Zina, hər cür murdarlıq, eləcə də tamah aranızda heç xatırlanmamalıdır da. Müqəddəslərə yaraşan budur. **Ol sahattan Tenqrininq adamı anqıldı.** O vaxtdan onu Tanrı adamı adlandırdılar (O vaxtdan o, Tanrı adamı kimi anıldı). **Sendan aşıra krisdan anqıldıx.** Sənə xatir biz xristian kimi tanındq.**Nek anqılıyır da sizinq aranqızğa borniglik da anınqkibik borniglik ki, yoxtur gurkçilər arasına da, neçik ki kimesə atasınınq xatunun alğay (**1Kor. 5: 1). Danışırlar (xatırlanır) ki, aranızda cinsi əxlaqsızlıq baş verir: sizdən bir nəfər ögey anası ilə yaşayır. Belə cinsi əxlaqsızlığa hətta bütpərəstlər arasında da rast gəlmək mümkün deyil! **Da ayttılar: "Kelinqiz, tas etiyix alarnı cinstən da anqılmağay atı İsrayelninq da dağın" (**Məz. 82/83: 5).

Və deyirlər: «Gəlin, onları millət olmasın deyə məhv edək,
İsrailin adı xatırlanmasın deyə onları yox edək».

Şükürləndi, sındırdı da aytti: "Budur menim tenim ki, sizinq üçün; bunı etinqiz menim anqılmaxıma" (1 Kor. 11: 24). Şükür edib onu böldü və dedi: «Bu Mənim sizin üçün verilən bədənimdir. Bunu Məni xatırlamaq üçün edin». **Salmos aytınqız Eyaəmizgə, arilәri anınq, xosdovanel bolunquz anqılmaxına arilikindən anınq (**Məz. 29/30: 5). Ey Rəbbin möminləri, Onu tərənnüm edin, müqəddəsliyini yada salın, Ona şükürlər edin. **Tanıxtır manqa Tenqri, xaysına ki tapunurmen canım bilə menim Avedaranına Oğlununq anınq ki, ne türlü anqılmaxınqızını sizinq etərmen hər sahat (**Ром 1: 9). Oğlunun Müjdəsini (İncilini) yaymaqda bütün qəlbimlə ibadət etdiyim Allah şahidimdir ki, mən sizi necə daim yada salıram.

anqılmaxlıx (-ına) f. ism. – xatirə, yada salma, xatırlatma: **Salmos aytınqız Eyəmizgə, arilәri anınq, xosdovanel bolunquz anqılmaxına arilikindən anınq (**Məz. 29/30: 5). Ey Rəbbin möminləri, Onu tərənnüm edin, müqəddəsliyini yada salın, Ona şükürlər edin.

anqluçi ism. –xatırlanılan, yada salınan, anılan:

Anq, anq, anqıluçi menqilik, men tas bolğannı, xaysi ki barça yazıxlılar üçün bunu üstünqə kötürdünq, yarlıxovuçı Biy. Yada sal, yada sal, ey əbədi xatırlanan, mən yolunuazmışı, bütün günahkarlara görə bunu öz üzərinə götürdün ey rəhimli Rəbb.Bax: **anqlovuçi**

anqınq Bax: **aninq** (üçün)

anqla ~ (-ma, -mağa, -mada, -malarğa, -malarda, -ğın, anqlıyıx –nqz, -dım, -dınq, -dı, -dıq, -dnqız, -dılar, -madı, -madılar, -r, -rbiz, -man, -mam, -massen, -mas,

-masbiz, -maslar, -r edi; -ıyırmen, -ıyırsen, -ıyır, -ıyırbiz, -ıyırlar, anqlıy edi, anqlıy edilər, -ğaysen, -ğay, -ğaybiz, -ğaysiz, -ğaylar, -mağay, -mağaysiz, -mağaylar, -sax, -sar, -sarbiz, -mısarbiz, -mısarsiz, -ğan, -mağan, -max, ~maxqa, -maxnı, -maxtan, -maxı, -maxına, -maxlar, -p, -mıyın) fel. – anlamaq, başa düşmək: **4 iş bar ki, adam oğluna yaraşır: sifətininq çireyin közü bilə körər, avaznı xulaxı bilə işitir, aşnınq tatlıxın burnu bilə anqlar, aşnı ağzı bilə aşar.** Adəm oğluna yaraşan dörd iş var: sifətin gözəlliyi, gözlə görər, səsi qulağı ilə eşidər, aşın dadını burnu ilə anlar, aşını ağzı ilə yeyər. B**unı anqlap bilinqiz ki, barça bornig, ya murdar, ya akah, xaysı ki malına tapunuçıdır, yoxtur dediçstvosu xanlıxına Krisdosnunq da Tenqrininq.** Bunu anlayıb biliniz ki, bütün zinakar, murdar və ya tamahkarlar maddiyyat düşkünüdürlər və onlara Məsihin və Tanrının xanlığında (dərgahında) yer yoxdur.

anqlağanlat ~ (-ıyırmen) Bax: **anqlat** ~

anqlamax l f. ism. – anlama, başa düşmə: **Bu buyrux alay anqlamax kerəktir salaçılar üçün tatarnınq.** Bu fərmanın (buyuruğun) yalnız tatar kəndlilərinə aid olduğunu anlamaq lazımdır.

anqlamax ll (-nı, -lar,) ism. – anlayış, düşüncə, şüur, fikir: **Anqlamax bilə.** Anlayışla.

anqlamaxlıx Bax: **anqlamax** ll

anqlan ~ (-ır, -ırlar, -maz, -mazdır, ~mas, ~ıy edi, -ıyır, -ıyırlar, -ğay; -sar; -ğan, -sar) fel. – anlaşılan olmaq, anlaşılmaq, başa düşülmək, dərk edimək: **Tenqri... anqlanmaz barlıxına körə, evet xuvatına körə xolunur.** Tanrının... varlığı anlaşılan deyil, fəqət qüdrətli olduğuna görə yalvarılandır (dua edilndir). **Ne türlü nemədir anqlovlular? Cucap: xaysi ki seziklənməslər, sezikkə tüşməzlər da ya xarmalanırlar, tek fikirninq xuvatı bilə anqlanırlar.** Anlayışlar (fikirlər, düşüncələr) necə bir şeydir? Cavab:Elə şeydir ki, (duyğu üzvləri ilə) sezilmirlər və ya qavranılmırlar, yalnız düşüncənin (fikrin) qüvvəsi ilə dərk edilirlər. **Beşinçi ağır da yenqil, isi da sovux, xaysı ki xarmalamax bilə anqlanır** Beşinci – ağır və yüngül, isti və soyuq, hansılar ki qavranma (duyğu üzvləri ilə sezilmə) vasitəsilə dərk edilir. **Hər 40 kün bir yil anqlansar...** Əgər hər 40 gün bir il kimi qəbul edilərsə (başa düşülərsə)... **Egər ki til bilə belgirtməsənqiz sözni, neçik anqlanğay söz? Ki bolursiz andan sonqra, neçik yel bilə sözləgəylər** (1 Kor. 14: 9). Əgər siz dilinizlə anlaşılan sözlər söyləməsəniz, dediyinizi necə başa düşərlər? Siz havaya danışmış olarsınız! **Zera körünməgənləra anınq başlanğanından dünyəninq yaratılğan bilə anqlanıp körünıyirlər, budur ki menqiliki da xuvatı da Tenqriliki ki, tapmağaylar heç nemə cuvap bermə (**Rom. 1: 20). Dünyanın yaradılışından bəri Allahın gözə görünməyən xüsusiyyətləri, yəni əbədi qüdrəti və ilahiliyi Onun yaratdıqları vasitəsilə üzə çıxır. Buna görə də (Tanrını) tapmayanlara (tanımayanlara) heç bir cavab vermə.

anqlanmasız (-dır) sif. – anlaşılmayan, dərk edilməyən: **Anqlanmasızdır Tenqri. Evet xuvatqa körə nişanlattılar ari atalar ki, Üçlüx da Birdir.** Tanrı anlaşılan (dərk edilən) deyil. Lakin müqəddəs atalar qüvvələri yetən səviyyədə dəqiqləşdiriblər ki, O Üçlükdür və təkdir.

anqlar Bax: **anlar**

anqlat ~ (-ma, -mağa, -qın, -tım, -tınq, -tı, -tıx, -tı esə, -ırmen, -armen, -ırlar, -mandır, -mas; -qay, -qaybiz, -mağay, -sar, -qan bolsa) // **anlat** ~ (ıyırmen) // **anqlağanlat** ~ fel. – anlatmaq, başa salmaq, şərh etmək, izah etmək: **Söz alnına xoyulğan nemədir, bir neməni anqlatmas, alay söz alnına xoyulur körklü aytmax üçün sözlərni.** (Bu ədat) söz önünə qoyulan hissəcikdir (nitq hissəsidir), (ayrılıqda) heç bir məna vermir, yalnız söz önünə qoyularaq onu qüvvətləndirir (gözəlləşdirir). **Oşta sizgə anqlattım oğurlux üçün.** İşdə oğruluğun nə olduğunu sizə anlatdım. **Şükürlümen, Eyəm, Sendən (Şükürlü bolıyım Sendən), Biy, bar yürəkim bilə (menim), anqlatırmen (aytıyım) barça tamaşalarınqnı seninq (**Məz. 9: 2).

Bütün ürəyimlə Rəbbə şükür edəcəyəm,

Bütün xariqələrini anladacağam (deyəcəyəm).

Anqlatırlar Tenqrigə da friştələrinə. Anlatdılar (danışdılar) Tanrıya və mələklərinə. **Bu ilgəri etkəndən sonqra manqa bardım men xanıma da anqlattim Natannınq yamanlıxın.** Zəhləmi tökdükdən sonra mən öz xanımın yanına getdim və ona Natanın etdiyi pisliklər anlatdım.**Egər anqlattı esə atnınq ziyanlı xılıxın, ol çaxta ges ziyanın tolamax kerək törə yanına** Əgər o (atı satan), atının quduzluğunu anlatmışdısa, o zaman qanuna görə (atı alana) ziyanın (yalnız) yarısını ödəməlidir. **Bunı anqlatkin tanıxlatıp alnına Tenqrininq ki, bölməgəylər söz yığıştruçi kerəkməs heç neməgə yıxılmaxına işitkənlərninq (**ll Tim. 2: 14). Bunları imanlılara izah et. Sözlərin mənası barədə dava etməməyi Allahın önündə onların öhdəsinə qoy; çünki bu fayda verməz, dinləyənlərə isə ziyan vurar **Bolur mı anqlatmağa munı, xaysın ki siz aytıyırsiz, açmağa üstümə menim?** Söylədiklərinizi mənim misalımda izah etmək mümkündürmü?

anqlattır ~ fel. – anlatdırmaq, kimin vasitəsi iləsə izah etmək, başa saldırmaq

anqlavuçı ism. və sif. – anlayışlı, müdrik, dərrakəli, söz başa düşən: **Tiyişlidir yarğuçılarğa ki, lataları bilə tügəl bolğay da anqlı u axıllı da saat bolğay, bolmağay ki, töräni anqmıyın kimsəgə egrilik etkəy** (Mxitar Qoşun "Törə Bitiqi"ndən). Hakimlər gərək yetkin yaşlarda olsunlar, dərrakəli, müdrik və diqqətli olsunlar ki, qanunları bilməmələri üzündən kimsəyə ziyan vurmasınlar.

anqlov ism. – anlayış, dərrakə, ağıl:

anqlovlu (-ğa, -lar, -lardırlar) sif. – anlaşılan, başa düşülən, dərk edilən, şüurla qavranılan: **Ne türlü nemədir anqlovlular? Cuap: xaysı ki, seziklənməslər, sezikkə tüşməzlər da ya xarmalanırlar, tek fikirninq xuvatı bilə anqlanırlar.** Anlaşılan necə şeydir? Cavab: O şeylərdir ki, duyğu üzvləri ilə sezilməzlər, yalnız (təkcə) fikrin qüdrəti ilə dərk edilirlər.

-**Nedirlər tensizlər?**

-**Anqlovlulardırlar.**

-Maddi olmayanlar nədir?

-Dərk edilənlərdir.

anqlovsuz sif. – anlaşılmayan, şüurla dərk edilməyən

anqlovuçı ism. və sif. – anlaqlı, dərrakəli, müdrik, hər şeyi başa düşən: **Tensiz anqlovuçi friştələr.** Bədənsiz, anlaqlı mələklər.

anqmax f. ism. – yada salma, xatırlatma, anma: **Yoxsa yazdım sizgə, xardaşlarım, aznı köptən neçik ki anqmax bilə sizgə başxış üçün, ki, beriliptir**

manqa Tenqridən (Rom. 15: 15). Amma Allahın mənə bəxş etdiyi lütflə bəzi məsələləri sizə xatırlatmaq üçün bu sözləri cəsarətlə yazmışam.

anqmaxlıx (-qa, -nı, -ınq, -ı) ism. – xatirə, abidə, nişanə: **Şəhərin buzdunq da tas boldu anqmaxlıxı alarnınq çaxırıx bilə** (Məz. 9: 7). Şəhərlərini təməlindən darmadağın etdin, bir nişanə qalmadı. **Etmə yarlığamaxnı duşmanlarımızını atalarımızğa bizim da anqmaxlıx ösiyətni arilikininq kendininq** (Luk. 1: 72). Düşmənlərimizdən və bizə nifrət edənlərin əlindən bizi xilas etdi. Beləcə ata-babalarımıza mərhəmət göstərib Öz müqəddəs Əhdini xatırladı. **Toxtattınq bu ari xurbannı anınq üçün ki, biz də yişadağ anqmaxlıx etkəybiz boşatlıxı üçün bizim yazıxlarımızninq.** Sən bu abidəni (xatirəni) ona görə qoydun ki, bizlər günahlarımızı bağışladığını heç vaxt unutmayaq və daim xatırlayaq. **Munı etərbiz nişanağ ki, atanız Apraham Ismayelni xurban etti, munı anqar anqmaxlıxqa etərbiz** Bunu biz atamız İbrahimin öz oğlu İsmayılı qurban verməsinə bir xatirə kimi edirik.

anqsızım // **anqsızın** zrf. – birdən-birə, gözlənilmədən, qəflətən, qəfildən, bir anda: **Biy Tenqrim, saxla meni, xulunqnu seninq, şağavatlı xolunq bila... anqsızın yaş yaşnamaxtan da otlu yıltrımdan.** Ey Tanrı, ey Rəbbimiz bizim, Öz səxavətli əlinlə... məni gözlənilməz şimşəkdən, odlu ildırımdan qoru. Bax: **ansızım**

anquçı ism. – xatırlayıcı, xatırladıcı

apa Bax: **appa**

Apana x. ism. (< Avana, Aмana yəh.) – Suriyada çay. Mənbəyini Aman yüksəkliklərindən götürür. Adı Bibliyanın lV Padşahlar kitabının 5-ci bölümünün 12-ci ayəsində keçir.

apeğa (-nınq, -ğa, -nı, -sı, -lar, -larnı, -lardan, -larına) // **hapeğa** (-nnq, -ğa, -nı, -lar, -larnınq, -larğa, -ları) ism. (aram. ?) – rahib. Monastırda yaşayıb rahibliyə girmə (saç kəsdirmə) mrasimindən keçərək monastr nizamnaməsinin tələblərinə uyğun olaraq tərki-dünya həyatı keçirməyi əhd etmiş şəxs: **Qriqor hapağa Biy-Ata oğlu İlovlu vankta bolğan.** İlovlu Monastrında olan rahib Qriqori Bəy Ata oğlu. **Apeğa kiyinişi.** Rahib geyimi (paltarı). **Apeğalarnınq yeri.** Rahiblərin məskəni (monastr). Bax: **çidovuçı, xarabaşlı, xatunsuz kişi, yalğız**

Apeğail // **Abiğail** x. ism. (< Aviqail, Aviqal yəh.) – Avigeya. Öncə Güney Yəhudanın ən varlı torpaq sahiblərindən olan Navalın, onun ölümündən sonra isə Həzrət Davudun (ə) arvadı olmuş qadın. Həzrət Davuda (ə) Daluia (Daniyal) adlı oğul doğmuşdur. Adı Bibliyanın ll Padşahlar kitabının 3-cü bölümünün 3-cü ayəsində, eləcə də l Salnamələr kitabının 3-cü bölümünün 1-ci ayəsində yad edilir.

Apel (-ninq, -ni) **// Hapel** (-ninq, -ni) x. ism. (< Havel yəh.) – Habil. Həzrət Adəmlə (ə) Həvvanın ikinci oğulları. Böyük qardaşı tərəfindən öldürülmüşdür: **Biy, oxşaş Eski Törəgə Zaqariağa körə, yöpsün bizdən temyan xurbanın, neçik xurbanın Apelninq, Noynunq da Aprahamninq.** İlahi, bizim də qurbanlarımızı, eynən Əhdi-Ətiqdə Zəkəriyyənin yazdığı kimi, Habil, Nuh və İbrahimin qurbanlarını qəbul etdiyin kimi qəbul et.

Apesa x. ism. (<**Avişay** yəh.) – Avessa. Həzrət Davudun (ə) qardaşı oğlu.

Apesdan x. ism. (orta fars ?). – Abesdan. "Müdrik Axikar haqqında rəvayət"in baş qəhrəmanı Axikarın (Xiqarın) arvadının adı. Bu ada alban mətnləri içərisində sadəcə sözügedən əsərin alban variantında rast gəlinməkdədir.

Apet (-ninq, -tən) x. ism. (< Yefet yəh.) – Yafəs. Həzrət Nuhun üç oğlundan biri: **Noynunq 3 oğlu bar edi, atları – Sem, Qam, Apet. Ya neçə millət çıxtı kiçi oğlundan Apettən, xaysi ki bizim atamızdır?** Nuhun 3 oğlu vardı, adları: Sam, Ham, Yafəs. Bizim ulu babamız olan Yafəsdən, bəs, neçə millət törəmişdir? **Burungi oğlu Sem, Qam, Apet, xaysı ki çıxtı Xaqan cınsı.** Birinci oğlu Sam, Ham və xaqanlar nəslinə başlanğıc verən Yafəs.

Qeyd: Alban tarixçilərinin təsəvvürlərinə əsasən, Azərbaycanda xaqanlıq institutunun təsisi və dövlətçilik tarixinin başlanğıcı Nuh tufanından sonraya təsadüf edir və bilavasitə Nuh əleyhissəlamın adı ilə bağlanır. Azərbaycanın və ümumiyyətlə türklərin ilk xaqanı kimi isə Həzrət Nuhun (ə) oğlu, samilərin Yafəs, türklərin isə Olcay (və ya Bulca, Abulca) adı ilə tanıdıqları şəxsin adı çəkilir. Vlll əsrdə yaşmış alban tarixçisi Musa Kağankatlı özünün "Alban tarixi" kitabında Yafəsin soyu və bu soyun hakimiyyəti altında olan torpaqlar barədə çox maraqlı və qiymətli məlumatlar verməkdədir: "Qardaşlar Nuhun təkidi ilə bir-birini qarət etməyəcəkləri barədə and içdikdən sonra Nuhun Yafəsə təyin etdiyi sahə şimalda Midiyadan Qadriona qədər uzanıb, Midiyanı Babildən ayıran Dəclə çayının aşağı axarına çatırdı".

Bu məlumatdan göründüyü kimi, Vlll əsr alban tarixçisi, Yafəsə verilən torpaqlardan söz açarkən, Midiyanın adını çəkir. Midiya isə eramızdan əvvəl Vll - V əsrlərdə Azərbaycan ərazisində mövcud olmuş dövlətin adıdır. Müəllif bununla sadəcə sözügedən əraziyə işarə etmişdir. O, kitabının "Yafəs və Arandan başlayaraq lll Vaçaqana qədər Albaniyada hakim olan hökmdarların siyahısı" adlı Vll fəslində Yafəsi Albaniyanın, yəni Azərbaycanın ilk xaqanı kimi təqdim edir, ondan hökmdar kimi söz açır. Kitabının ll fəslində, Yafəsin soyundan və bu soyun hakim olduğu ölkələrdən danışarkən, Musa Kağankatlı yenə də Azərbaycanı birinci sırada göstərir və ilk iki yerə Atropatena və Albaniyanı, yəni Azərbaycanın cənub və şimalını yerləşdirir.

Ümumiyyətlə, bu ardıcıllıq eyni mövzuya toxunmuş əksər xristian müəlliflərin əsərlərində də müşühisə edilir. Bu baxımdan lV əsr tarixçisi Pamfilanın oğlu Yevseviyin yazdıqları da maraq doğurur: "...Bunlar isə Nuhun üçüncü oğlu Yafəsin soyundan olan xalqlardır. Midiyadan Speriyaya, okeandan Akvelona qədər onlar belə düzülmüşlər; midiyalı-lar, albanlar, qarqarlar.., sarmatlar.., meotlar, iskitlər, tavriyalılar.., bastaranlar... Yerləşdikləri ölkələr isə bunlardır; Midiya, Albaniya, Meotiya, Sarmatiya, Taorvaniya, İskitlər ölkəsi..."

Bənzər fikrə Portlu İppolitdə də rast gəlirik. O da Yafəs oğullarından söz açaraq onların torpaqlarını sıralayarkən Midiya və Albaniyanın adını ilk sırada çəkir. XlX əsrin görkəmli Azərbaycan tarixçisi və maarifçisi Abbasqulu Ağa Bakıxanovun yazdığına görə,Yafəs türklərin ilk hökmdarı olmuşdur. O, Xlll - XlV əsrlər müəllifi Həmdullah Müstövhi Qəzvininn "Tarixi-Qozide" və XV əsr müəllifi Xondəmirin "Xülasətül-Əxbar" əsərlərinə istinad edərək, Yafəsin oğulları barədə ətraflı məlumat vermiş, onun birinci oğlunun adının Türk olduğunu qeyd etmişdir.

Yafəsin şahlığının mərkəzi kimi Azərbaycan ərazisini göstərən xristian tarixçilərdən fərqli olaraq, müsəlman tarixçilər bu mərkəz kimi "Şərq ölkələri və Türküstsnın" adını qeyd etməkdədirlər. Bu baxımdan XlV əsrin böyük Azərbaycan tarixçisi Fəzlullah Rəşidəddin və onun məşhur "Cami ət-Təvarix" əsəri də istisna

deyildir: “Türk tarixçiləri və yüyrək dilli salnaməçilər bildirirlər ki, Nuh əleyhissəlam, - Allah ona rəhmət eləsin, - yer üzünün adamlar yaşayan hissəsini oğlanları arsında böləndə şərq ölkələrini, Türküstanı və ona yaxın yurdlarla birlikdə böyük oğlu Yafəsə verdi. Yafəs türklərin təbirincə Olcay xan ləqəbini aldı. O, səhrada yaşayırdı. Olcay xanın yaylağı və qışlağı Türküstan torpaqlarında idi: Yaz aylarını o, İnanc şəhərinin yaxınlığında olan Ortaq və Kurtaqda keçirir, qışlayanda isə yenə o tərəflərdə - Qaraqorum adı altında məşhur olan Qaraqumdakı Borsuk adlanan yerdə olurdu. Həmin yerdə iki şəhər vardı: Biri Talas, o biri Karı Sayram və bu sonuncu şəhərin qırx böyük qızıl qapısı vardı. İndi orada müsəlman türklər yaşayır, həmin yer Kunçi mülklərinin yaxınlığındadır və Kaydudan asılıdır... Olcay xanın paytaxtı da burada yerləşirdi”

Apetar // **Apettar** x. ism. (< Oved-Edom yəh.) – Avedar. Adın qədim yəhudi dilindən hərfi tərcüməsi “ilahə Edomun qulu” anlamına gəlir. Avedar Həzrət Davudun (ə) şəxsi mühafizə xidmətində qulluq edən bir fələstinli idi. Rəvayətə görə, Ozanın ölümündən sonra Davudun (ə) göstərişinə əsasən, içrisində Tanrının on buyuruğunun yazıldığı müqəddəs səhifələrin bulunduğu sandıq üç ay ərzində onun evində qorunmuşdur: **Apetar, xul biyikləngən.** Apetar **-** yüksək mənsəbə yetişmiş qul.

Apin x. ism. (< Yavin yəh.) – Yavin. Sami dillərindən tərcümədə “ağıllı” anlamını verməkdə olan bu adı yəhudilərə məğlub olmuş Aşşur (Assuriya) hökmdarı daşımışdır: **Et alarnı, neçik Matiamnı, neçik Sisaranı, neçik Apinni xainlərinə Gisonnunq** (Məz. 82/83: 10). Başlarına gətir Mədainliərə etdiklərini, Qişon vadisində Sisranın, Yavinin başına gətirdiklərini.

Apiron (-nunq) // **Arpiron** (-nunq) x. ism. (< Aviron yəh.) – Aviron. Koreyin Həzrət Musa (ə) və Həzrət Haruna (ə) qarşı qaldırdığı üsyanın fəal iştirakmlarından olnuş yəhudilərdən biri: **Açıldı yer da yuttu Tatannı da yapti taborların Apironnumq (**Məz. 105/106: 17). Torpaq yarılıb Datanı uddu, Aviramla yoldaşlarını yerə batırdı.

apirorus ism. (< apiros yun.) – xalsedon. Mineral növü: **Karbunkul – ermeniçə biqincaqoyn, urumça aytıyırlar “vengel rospaloniy”, zera anqar oxşaştır, tuymas otnu da anınq üçün Pliniuşta** (Upliniuşta) **ündəliyir apirorus (apyrotos) bitikində 37. K**арбункул, ermәncə “biqincaqoyn” , yunanca “vengel rospaloniy” **(**yandırılmış kömür) adlanır, çünki ona **(**yandırılmış kömürə) bənzəyir. O, oddan qorxmur və bu səbəbdən Pliniyin 37-ci kitabında onu “apirorus” (yanmayan) adlandırılır.

Apisolom (-ğa) // **Apisolomon** x. ism. (< Avişalom yəh.) – Avessalom. Hərfi mənada “sülhün atası” anlamına gələn ad. Albandilli dini mənbələrdə Bu ad altında Həzrət Davudun (ə) Hevronda doğulan üçüncü oğlundan söhbət gedir: **Salmos Tavitninq, ne zaman ki xaçıp edi yüzündən Apisolom oğlununq kensininq (**Məz. 3. 1). Davudun məzmuru. Oğlu Avşalomun qarşısından qaçanda.

appa // **apa** ism. (< abba yun., aram.) – ata, qoca, müqəddəs ata, keşiş, abbat rahib: **Zera almadınqız canın aul bolmaxnınq, ekinçi xorxuğa, yoxsa aldınqız canın oğul yazılmaxnınq, xaysı bilə ki, çaxırıybiz: “Atalar Atasi! Appa!” (**Rom. 8: 15). Axı siz kölәlik ruhunu almadınız ki, yenə də qorxu içində yaşayasınız;

övladlıq Ruhunu aldınız. Elə o Ruhun vasitəsilə Allaha «Abba, Ata» deyə nida edirik.

Apraham (-nınq, -nınqdırlar, -ğa, -nı, -dan) // **Apraxam** (-nınq) // **Apreham** //**Abraam** // **Avram** x. ism. (< yəh. – Abraham İbrahim. Həzrət İbrahim (ə): **Taranınq oğlu boluptır appa Apraham ki, Adam atamızdan sonqra 3186 yılına, Xaran şəhərindən Qalteasos Ulusundan da boluptır sünəti 99 yılına.** Taranın (Azərin) oğlu – ulu babamız Adəmdən 3186 il sonra dünyaya gəlmiş ulu ata İbrahim əslən Haldeyanın Harran şəhərindən idi və 99 yaşında sünət olunub.

april // **abril** // **aprilis** // **aprilus** ism. (<**aprilos** yun.) – aprel. Ilin on iki ayından biri və dördüncüsü.

Aptiu (-nı) x. ism. (< Ovidiya // Obadyahua // Obadya yəh.) – Ovidiy. Bu ad yəhudi dilindən tərcümədə "Rəbbin qulu" anlamına gəlir. Ovidiy xristianların 12 kiçik peyğəmbər hesab etdikləri peyğəmbərlərdən biri idi. Bu adı VIII əsrdə yəhudi dinini qəbul edən Xəzər xaqanı Bulan da dinini dəyişdirdikdən sonra daşımışdır.

ar I ism. və zrf. – yer, tərəf, rahat yer.

ar II Bax: **or**

ar III Bax: **es**

ar IV Bax: **ari** l (-dəgi)

ar ~: çar arğan Bax: **çurğağan-çararğan**

ara I (-ğa, -da, -nqa, -sı, -sına, -sna, -sınadır, -sınaydı, -ın, -sında, -sından, -mıza, -mızda, -mızdan, -nqızğa, -nqızda, -nqızdan, -larına, -larından) zrf. – ara, orta, mərkəz, çat, fasilə: **Xamışlıx arasi.** Qamışların arası. X**aya arasi, tağ arası.** Qaya arası, dağ arası. **Tağ arası, xayda ki kiçi suv axar ya derə.** Kiçik çayın axdığı dağ arası və ya dərə. **Xanatları kügürçinninq kümüşlü da yağırları arası anınq rəngina altunnunq (**Məz. 67 / 68: 14).Qanadları gümüş kimi və tüklərinin arası isə qızıl rəngli göyərçin. **Uyatınqz sizinq üçün aytırmen: ol xadar yoxtur kimesə esli aranqızga ki, bolğay qonuluqnı bildirmə xardaşları arasına kensininq? (**1Kor 6: 5). Mən bunu sizi utandırmaq üçün deyirəm. Yəni öz bacı-qardaşlarınız arasında hakim olmaq üçün sizlərdən bir nəfər müdrik adam tapılmadı? Bax: **bel, iç** I**, orta** I

ara II: **yarağ-yasağ ara** Bax: **yarağ-yasağ**

araba (-ğa, -nı, -da, -sı, -sına, -lar, -larğa, -larnı, -ları, -ların) ism. – araba: **Tanqlama erlərni da tanqlama yarağlılarnı, arabaların da atların da barça xuvatın paravonnunq boğdu tenqizdə** (Çıx. 15: 4). Fironun döyüş arabalarını, ordusunu da dənizə atdı. Döyüş arabalarının başçıları (Qırmızı) dənizdə boğuldu. **Bular arabalar bilə da bular atlar bilə, yoxsa biz atına Eyəmizninq bizim sarnıyıx (**Məz. 19/20: 8). Bəziləri döyüş arabaları, bəziləri atları ilə öyünür, bizsə Allahımız Rəbbin adı ilə öyünürük. Çıx**tınq sen arabanqa seninq, atlanğanınq seninq xutxarılmaxlıxtır çıxqanınq seninq.** Çıxdın sən öz arabana. Atlanmağın sənin xilasındır.

Araba ism. – Araba. Göydəki bürclərdən birinin adı: Araba bürcü. Alban mətnlərində böyük ayı bürcünün adı: **Araba yolduzu (beşyolduzu).** Araba bürcü (beş ulduzu).

arabaçı (-larnı) ism. – arabaçı: **Arabaçılar üsnə biy.** Arabaçıların başçısı.

arakəl (-men, -dir, -ninq, -nınq, -gə, -ni, -nı, -də, -i, -lər, -lərninq, -lərninqdir, -lərgə, -lərni,
-lərdə, -lərdən, -lərim, -lərimninq, -lərinq, -lərinqə, -ləri, -lərininq, -lərinə, -lərin, -lərində) ism. (aram) – göndərimiş, məmur edilmiş, həvvari. Həzrət İsanın (ə) şagirdlərinə və ardıcıllarına "arakəl" (həvvari) deyirdilər: **Šahat ki, yoxtur erkimiz xızxardaşlarnı-xatınlarnı yürütmə birgəmizgə, ne türlü özgə arakəllər da xardaşları Eyəmizninq, da Gepa?** (1 Kor. 9: 5). Məgər digər həvarilər, Rəbbin qardaşları və Kefa kimi imanlı bacı və arvadımızı yanımızda gəzdirməyə ixtiyarımız yoxdur?

aralıx (-larına) ism. – aralıq, iki şey arasında boşluq, boş yer, iki yerin arası, ortalıq, orta, ara

Aram (-nınq) x. ism. – Aram. Nuh oğlu Samın oğlu və Taranın (Azərin) qardaşı. Saranın atası, Həzrət İbrahimin əmisi və qaynatası: **Sara Aramnınq xızı edi da Tara da Aram eki toğma xardaşlar edi.** Sara Aramın qızı idi və Tara ilə Aram iki doğma qardaş idilər.

Aramasd // **Aramast** // **Aramazt** x. ism. (orta fars) – Ahura Məzda (Hörmüz). Avestaya görə, xeyir tanrısı. Əksi: Anqra Manyu (Əhrimən): **Günəş – ermeniçə Aramazt.** Günəş – ermənicə Aramazt (Hörmüz). **Aramazt – gunəş, xaysi ki ermenilər ündiy edilər, Zruan – acəmlər ündiyirlər.** Aramazt – ermənlər günəşi belə adlandırırlar, əcəmlər isə Zruan (Zərvan) adlandırırlar.

aran (-ğa) ism. – düzənlik: **Eksilgəylar xoylar kütövlərindən da ögüzlər tapmağaylar aranga.** Otlaqlardakı qoyunları əskiləcək, düzənlikdə öküzlərini tapmayacaqlar.

Aran x. ism. (< **Haran** yəh.)– Aran. Şəxs adı: L**ovd appa Aprahamnınq toğmış xardaşı oğlu edi Arannınq** Lut ulu atamız İbrahimin doğma qardaşı Aranın oğlu idi.

arap (-ı, -lar, -larnınq, -lardan) // **arapi** (-lər) ism. - ərəb. Sami xalqlardan biri, Həzrət Məhəmmədin (s) mənsub olduğu xalq: **Anı alğışladı Tenqri ki, arap edi da axardı xoyları bilə birgə.** Tanrı ona xeyir-dua verdi və o qoyunları ilə birlikdə ağardı. **Böləki Etomlularnınq da Ismayellilər, Movap da Araplar** (Məz.82/83: 7). Edomluların və İsmaillilərin, Moavlıların və Ərəblərin bölgəsi.

Arapisdan (-nınq) // **Arapistan** (-nınq, -dan) x. ism. (< Ərəbistan azərb.) – Ərəbistan. Ərəblər ölkəsinin adı: **Haqar, Sinay tağdır, Arapistan, tenqdir bu Erusalemgə, zera xuldur oğlanları bilə kensininq birgə (**Qal. 4: 25, 26). Həcər Ərəbistandakı Sina dağını təmsil edir və indiki Yerusəlimə bənzəyir. Çünki indiki Yerusəlim övladları ilə birlikdə köləlikdədir. **Xanları Arapisdannınq da Sapa bernələrni keltirğaylər anqar... tirilgəy da berilgəy anqar altınından Arapisdannınq (**Məz. 71/72: 10, 15). Səba və Ərəbistan xanları ona bəxşiş versin… Yaşasın padşah! Qoy ona Ərəbistan qızılı verilsin.

Arapiya (-ga) (lat. Arabia, yun. Arabya) – Ərəbistan: **Da barmadım Erusalemğa alarğa, xaysıları ki mendən burun arakəllar edilər, yoxsa bardım Arapiyağa da yana xayttım Tamasğosqa (**Qal. 1: 17). Yerusəlimə, məndən qabaq həvari olanların yanına da getmədim, amma Ərəbistana getdim, sonra yenə Dəməşqə qayıtdım.

arhiaxbaş (-nınq) // **arhiaxpaş** (~nп±, ~ka; ~п) // **arhiahpaş** ism. - arxiyepiskop, metropolit. Xristianlarda dini rütbə, böyük şəhərlərin dini başçısı: **Anası şahərlərninq ya ulu şəhərdə olturğan arhiaxpaş, metropolit...** (Mxitar Qoşun "Alban salnaməsi"ndən) Şəhərlərin anasında (Gəncədə) və ya ulu şəhərdə oturan arxiyepiskop, metropolit...

arhideaqon Bax: **arxideaqon**

arhiebisğobos (-tan) // **arhiyebisqobos** (-nunq) ism. (yun) Bax: **arhiaxbaş**

arxa (-ma, -mnı, -nqa, -sı, -sınınq, -sına, -sın, -sından, -mızğa, -mızna, -ları, -larına, -ların) zrf. – arxa, ard, dal, kürək: **Arxamnı menim urdular yazıxlılar, uzun ettilər kendilərininq törəsizliklərin (**Məz. 128/129: 3). Kürəyimə günahkarlar vurdular, uzun-uzadı davam etdilər qanunsuzluqlarını.

arxap (-lar) ism. - əqrəb: D**a özgə dağın köpayaxlılar, neçik xısxaçlar da arxaplar da**

pavuklar, xarıncalar da sarınçaxlar. Və qarışqa, əqrəb, hörümçək və çəyirtgə kimi başqa çoxayaqlılar.

Arxap ism. – Əqrəb. 12 astronomok bürcdən biri

Arxideakon // **arhideakon** (-dan) ism. – arxidyakon. Xristianlarda dini rütbə

arxın-arxın Bax: **axırın-axırın**

ari I (-yim, -sen, -sin, -dir, -ninq, -gə, -ni, -də, -dən, -nqninq, -nqə, -si, -sin, -sinə, -lər, -lərninq, -lərgə, -lərgədir, -lərninq, -lərninqdir, -lərni, -lərdə, -lərdən, ələrinq, -lərinqninq, -lərinqə, -lərinqni, -lərinqdə, -ləri, -lərininq, -lərinə, -lərin, -lərindən) sif. – təmiz, pak müqəddəs, günahsız: **Ari, ari, ari Biy Tenqri xuvatlı, toludurlar köklər da yer haybatnq bilə seninq! Alğış biyiklikkə! Alğışlı ki, keldinq da kelsərsen atına Eyamizninq!** Müqəddəsdir, Müqəddəsdir, Müqəddəsdir qüdrət sahibi Rəbbimiz Tanrı, Yer və göylər şöhrətinlə sənin dolubdur (izzətlnibdir)! Alqış böyüklüyünə! Alqış ki, gəlmişdin və gələcəksən! **Ari aruv ğoys Asduacacin Mariyam, anasi Krisdosnunq da bizim Tenqrimizninq.** Müqəddəs və təmiz, Tanrı anası Məryəm, Məsihin və Tanrımızın anası. **Inanıymen barçadan ari ari Üçlüxə, Atağa da Oğulğa da Ari Canga.** İnanıram hər şeydən pak olan müqəddəs Üçlüyə (Üç ünquma) – Ataya, Oğula və Ruhül-Qüdsə (Müqəddəs Ruha). **Xutxardı anı onqu kendininq da biləki ari kendininq (**Məz. 97/98: 1). O, sağ əli ilə, öz müqəddəs qolu ilə zəfərlər qazandı (onu xilas edi). **Ari bilə ari bolğaysen (**Məz. 17/18: 26). Təmizlərlə təmiz olarsan. **Ari etti otaxın kendininq Biyiktəgi** (Məz. 45/46: 5). Haqq-Taalanın müqəddəs məskəninə sevinc gətirir. **Eyəmizdəndir boluşluxu ari Israyelninq, xanımıznınq bizim** (Məz. 88/89: 19). Çünki sipərimiz Rəbdəndir, xanımız İsrailin Müqəddəsidir. **Ki xutxardı bizni da ündədi ari ündəlməxkə (**ll Tim 1: 9). Xilas edib müqəddəs olmağa çağırdı. **Taptım Tavitni, xulumnu menim, yağım bilə ari menim yağladım (**Məz. 88/89: 21). Qulum Davudu tapdım, müqəddəs yağımla onu məsh etdim (yağladım). **Tapunğay kök tamaşalarınqnı seninq, Biy, da könülükünqnü seninq yığınlarında arilərninq (**Məz. 88/89: 6).Ya Rəbb, göylər Sənin xariqələrinə şükür etsin, müqəddəslər camaatı arasında sədaqətinə həmd edilsin.

ari II Bax: **arı** I

arian (-larğa) // **arianos** (-lar, -larnınq, -larğa, -lardan) // **ariyan** (-lardan) // **ariyanos** (-larnınq, -larğa) // **arios** (-nunq) ism. – arian. Əsası İskəndəriyyəli alim

və din xadimi Ariy (Ariyanos) tərəfindən qoyulan və Üç ünqumu inkar edən arianizm dini-fəlsəfi cərəyanına və məzhəbinə mənsub olan şəxs: **Artıxsızlıx ariyanoslarnınq – xoyma Tenqriliktə barabarsizlix Atanınq Oğlundan.** Atanı Oğuldan fərqləndirmək arainların bidətidir. **Ne üçün aldınq yüxövnü Nigiyadada arianoslarğa berdinq?** Nə üçün Nikeyadakı kilsəni alıb arianlara verdin?

ari-aruv sif. – tərtəmiz, ən pak, ən saf, müqəddəsdən də müqəddəs, müqəddəslər müqəddəsi

atlı I (-dır, -sı, -lar, -ların) ism. – atlı, süvari, at üstündə olan adam: **Oğlanları Epremninq, semiz da berk atlı, kününə uruşnunq tapunğannı xaytardılar (**Məz. 77/78: 9). Efrayimin atlı övladları ox-kamanla silahlandılar, amma döyüş günü tez geriyə qayıtdılar. **Da atlılar çıxıp da birgələrinə kün uzun xuvalaşış edilər,** Sonra atlılar çıxdılar və bütün gün bir-biri ilə döyüşdülər.

atlı II (-men) sif. Bax: **atlı-çuvlu**

atlı-atınça zrf. – adbaad. Hər kəsi və ya hər şeyi öz adı ilə, bir-bir, adlarını sadalayaraq yazmaq və ya çağırmaq: **Mundan sonqra aytmax kerək atlı-atınça yazı aların, xaysı ki xılınıptır Tenqrininq toxluxundan da eski duşmannınq felindən.** Bundan sonra Tanrının göndərsiyi toxluq üzündən və əski düşmənin

(şeytanın) yoldan çıxarması səbəbindən edilmiş bütün günahları adbaad sadalamaq lazımıdır.

atlı-çovlu Bax: **atlı-çuvlu**

atlı-çuvlu // **atlı-çovlu** // **atlı-cuvlu** sif. – adlı-sanlı, məşhur, tanınmış: **Atlı-çuvlu pilisopalar.** Adl-sanlı filosoflar.

atlı-cuvlu Bax: **atlı-çuvlu**

atlıx I ism. – atlıq. Atın təbiəti, mahiyyəti il bağlı olan şey və hadisələr

atlıx II ism. – ad, ləqəb, ayama O**l xadar artıx boldu friştələrdən, ne xadar dağı artıx alardan atlıx menqərdi (**İbr. 1: 4**).** Mələklərdən nə qədər üstün adı (ləqəbi) irs olaraq aldısa, o qədər onlardan üstün oldu.

Atonis // **Atoniz** x. ism. (yun) – Adonis. Yunan mənşəli şəxs adı. Albanların ən yaxın qohumlarından olan xəzər türklərinin yəhudiliyi qəbul edən hissəsi bu adı "Adonay" kimi tələffüz edir və "Rəbb" anlamında işlədərək Tanrıya şamil edirdilər.

ator (-dan, -um, -u, -udur, -una, -unu, -unda, -undan, -umuzdan, -lar, -larında, -ğa) // **yator** (-undan) ism. (< ?) – stul, kürsü, oturacaq, taxt, çarpayı: **Bir neməsi yox edi: ne bir ator da ne yeri yuxlamağa.** Onun nə çarpayısı, nə də yatmaq üçün bir əşyası yox idi. **Eçmiyəcinninq atorunda.** Eçimədzin kürsüsündə. A**torudur Krisdosnunq.** Məsihin taxtı. X**apundu yatorundan.** Taxtından sıçradı.

av (-ğa, -nı, -ına, -ından) ism. – ov, ov üçün tələ

avadan ism. (< azərb.< frs.) – abadan, abad yer

avadanlıx ism. – avadanlıq: **Ki uslu da axıllı bolay ki, ne türlü avadanlıx aytsam, manqa tüzgəy.** Çünki o oqədər huşlu və ağıllı udu ki, nə kimi avadanlıq söylədimsə, hamısını düzüdü-qoşdu. **100 xızil axça avadanlıx üçün.** Avadanlıq üçün yüz qızıl axça. A**vadanlıx yapqan yerlər.** Avadanlıq düzəldiln yerlər.

avadanlıxlat ~ fel. – avadanlıqla təmin etmək

avadansız sif. – abadlığı olmayan, abad olmayan

avan ism. – pillə, pilləkənin, nərdivanın pillələrindən hər hansı biri:

avandan Bax: **avadan**

avanlıx ism. – qanunsuzluq, özbaşınalıq

avaz I (-dIr, -nınq, -ğa, -nı, -da, -dan; -ım, -ımnınq, -ıma, -ımnı, -ınq, -ınqn, -ınqnınq, -ı, -ına, -ın, -ında, -ından, -ınqızını, -lar, -lardan, -larımızını, -ları, -larına, -ların, -larından) ism. (< azərb. < frs) – avaz, səs: **Ekinçi avazdır, xaysı ki xulax bilə işitilir.** İkinci, səsdir ki, qulaq ilə eşidilər. A**tlarnnq ayaxlarınınq avazı.** At ayaqlarının səsi. **Avaz beriyirmen ya muşxullanıyırmen, xarışılıyırmen.** Qışqırır, həyacan keçirirdim, özümü itirmişdim A**ytılır, xaysın ki avaz bilə oynarlar ya yırlarlar.** Deyilənə görə, musiqi altında oynar və ya mahnı oxuyarlar. **Avazım bilə menim men Biygə sarnadım (**Məz. 141/142: 1**).** Rəbbə fəryad qoparıb haray salıram // Rəbbə yalvararaq haray salıram. **Egər tillərin adamlarnınq sözləsəm da friştələrninq da sövüküm bolmasa, boldum men neçik yez ki, avaz etər, ya neçik simballar ki, avaz etərlar** (I Kor 13: 1). Əgər mən insan və mələk dilləri ilə danışıramsa, lakin məhəbbətim yoxdursa, cingildəyən mis və ya danqıldayan sincəm (Mis və ya sinc kimi səs çıxarıram).

avaz II: **avaz xoyulan** Bax: **əvəl xoyulğan**

avazdaş ism. – samit səs, həmahəng, harmonik, həmfikr, həmrəy: A**vazdaştan ki avazsızdır.** Samit olduğu üçün səssizdir (uzanmayan səsdir). A**ruv ya anıx**

avazdaş, xaysı ki ne bazıx da ne inçkə bolğay. Nə kar, nə də cingiltili olmayan sadə və aydın samit. **Özgəsinə avazdaş.** Özgəsi ilə həmfikir. **Tekrar avazdaş ya ekinçi, xaysı ki bir yazov eki yazovnunq yerin tutqay** (Qriqori Hamamanın "Alban dilinin qrammatikası"ndan). İki hərfin yerini tutan tək hərflə yazıılan qoşa samit. **Xaysi ki eksindəndir: avazlıdan da avazsızdan** (Qriqori Hamamanın "Alban dilinin qrammatikası"ndan).Hansı ki hər ikisindən, həm saitdən, həm də samitdən təşkil olunub. **Aytılır, kimninq yarımı bar, saz, ya nemə muzıka ki avaz bilə yırlarlar yarimavazlı** (Yovhanes Sarğavağın musiqiyə dair risaləsindn) Söhbət ya sazla ifa ediən musiqidən, ya da mahnıda səslənən yarımsəs (diez) notlardan gedir.

avazsız ism. və sif. – samit, səssiz, səssiz-səmirsiz

avçı (dırlar, -nınq, -larnınq) // **avuçı** (-nınq) – ovçu: **Canlarımız bizim xutuldular, neçik çıpçıx sırtmaxından avçılarnınq (**Məz. 123/124: 7). Çıpçıx quşu ovçunun tələsindn qurtulduğu kimi canımz qurtuldu.

avdaş ism. – ov yoldaşı

Avedaran (-nınq, -ğa, -nı, -da, -dan, -ıma, -ımnı, -ı, -ınınq, -ına, -ın, -ında, -ımız, -lar, -larnınq) x. ism. (?) – İncil: **Türk Avedaranı.** Türk İncili (Quran ?).

avla ~ (-ma, -mama, -ğay, -maxın, -mıyın) fel. – ovlamaq: **Köp türlü sırtmaxlar bilə çövrələp avlıyırlar meni.** Ətrafıma çox sayda tələlər qurub ovlayırlar məni.

avlax (-qa, -ta, -lar) ism.– ovlaq, geniş ərazi, sakitlik: **Bu tenqiz ulu da avlax (**Məz. 103/104: 25). Bu dəniz böyük və genişdir.**Çıxardı meni avlaxqa** (Məz. 17/18: 20). Məni geniş bir yerə çıxardı. **Avlax ettinq yürügənimni menim tibimə menim da kuçsüzlənmədilər izlərim menim (**Məz. 17/18: 37). Geniş yer açdın ki, addımlayım, ayaqlarım büdrəməsin.

avlaxlıx ism. – genişlik, sərbəstlik: **Barır edim men avlaxlıxqa, zera buyruxunqnu seninq izdədim** (Məz. 118/119: 45). Geniş bir yerə getmək istərdim, buyuruğuna əməl etdim sənin.

avlaxtırnaxlı ism. və sif. – gendırnaqlı. Dırnaqları geniş olan:

-**Xaysıdırlar avlaxtırnaxlılar?**

-**Ekigə bolunur: kuluşmagəngə da kuluşkəngə** (Qriqori Hamamanın "Alban dilinin qrammatikası"ndan)

-Gendırnaqlılar hansılardır?

-Onlar ikiyə bölünürlər; gülməyənlərə və gülənlərə.

avlan ~ fel. – ovlanmaq

avlu ism. - ərazi, kənd, heyvan saxlanılan həyət: B**öləkləri da avluları Getlərninq (Musa Kağankatlının "Alban tarixi"ndən ?)** Kedarın (Kedar övladlarının) ərazi və sahələri.

avrad (-ı, -ınınq) ism (< arvad azərb.) – arvad, qadın Bax: **xatın**

Avram Bax: **Apraham**

avuçı *см.* **avçı**

avursı Bax: **ağırsız**

avuz Bax: **ağuz**

ay (-nınq, -ğa, -nı, -da, -dadır, -dan, -ıdır, -ınınq, -ına, -ında, -ından, -larnınq, -larğa, -larnı, -ları) ism. 1. ay, Yerin təbii peyki; 2. ay, təqvimi ay, 30 günlük zaman

vahidi: **Aynınq yənqisində, ya toğmaxında, ya kirgənində aynınq.** Yeni doğan ayda, ya ay doğuşunda, ya ayın batışında.

ay ~ Bax: **ayt** ~

aya ~ (-ma, -mağa, -ğın, -nqız, -mıyıx, -dım, -madınq, -madı, -madılar, -rmen, -rsen, -mam, -mas, -mastır, -ayıyır, -sam, -masanqız, -ğay, -ğaysiz. -mağaymen, -mağaysen, -mağay, -mağaybiz, -mağaysiz, -mağan, -max, -maxından, -mamaxı, -p, -mınça) fel. – üzülmək, simiclik etmək, xəsislik etmək, qənaət etmək, əsirgəmək, rəhm etmək, dözmək: Ş**ağavatlanıyırmen, ayıyırmen.** Üzgünəm, heyifslənirəm. **Ayamadı ölümdən canların alarnınq (**Məz. 77/78: 50), Qızğın qəzəbinə yol açmışdı, əsirgəmədən canlarına ölüm vermişdi, **Biy, Biy, Ata da Tenqri, Tenqri tirlikimninq menim, yügünürmen alnınqa seninq da xolarmen sendən, bax miskinliki üsnə xulunqnunq seninq da aya bularğan yazıx bilə boyuma menim** Ya Rəbb, ya Rəbb, ya Ata və Tanrı! Ya Tanrı, qarşında baş əyir və yalvarıram, pis fikirlərimə görə mənə rəhm et.

ayağ Bax:. **ayax** I

ayax I (-qa, -nı, -tan, -ım, -mnınq, -ıma, -ımnı, -ınq, -ınqnınq, -ınqa, -ınqadır, -ınqnı, -ı, -ınınq, -ına, -ın, -ından, -ımız, -ınqız, -lar, -larnınq, -larğa, -larnı, -larda, -larım, -larımnınq, -larıma, -larımnı, -larınq, -larınqnınq, -larınqa, -larınqnı, -larınqdan, -larımız, -larımıznınq, -larımızğa, -larımızını, -larınqız, -larınqızğa, -larınqızını, -ları, -larınınq, -larına, -ların, -larını, -larında, -larından, -lı, -sız) // **ayağ** (-larıma) ism. – ayaq: A**yaxtan çax başqa deg.** Ayaqdan başadək. **Xaçan ki ayaxqa çıxsa, çökməgə övrətkəy da yıxövgə yürüməgə.** Nə zaman ki, (uşaq) ayaq üstə durmağı öyrəndi, qoy ona diz çökərək kilsəyə getməyi öyrətsinlər. **Ol çıxarır sırtmaxtan ayaxımnı menim (**Məz. 24/25: 15). O, ayaqlarımı tələdən xilas edir. **Xarib bolğaylar da yaşına-yaşına kezgəylər alar, ayaxlarıma menim közatkəylər, neçik da xast etərlər edi boyumnu menim (**Məz. 56/57: 7). Xəlvət bir yerə yığılıb ayaqlarımı (hər addımımı) izləyirlər, pusqu qurub canımı almaq üçün gözləyirlər. **Ayaxlarım bilə yazıxlımen: yıxövümə tügəl bolmıyırmen, salmosuma, ertəgi alğışqa, tüş alğışına, tüm haybatına da keçəgi alğışqa, xastalarnı sorma da zindandagilərni barmıyırmen baxma, xariblərni övümə tindirmiyirmen, yalanaçlarnı kiydirmiyirmen, açlarnı, susamışlarnı yedirip içirmiyirmen da barça Tenqrininq yollarından yiraxlanıpmen, meğa Tenqrigə.** Ayaqlarımla birlikdə günühkaram mən: kilsədə olmamışam, Zəbur oxunuşlarına, səhər dualarına, həmd və şükr mərasimlərinə, gecə dualarına getməmişəm, xəstələri və dustaqları ziyarət etməmişəm, qəribləri evimdə qonaq saxlamamışam, çılpaqlara paltar, aclara yemək, susamışlara su verməmişəm və Tanrnın bütün yollarından kənar durmuşam. Odur ki, Tanrının qarşısında günahkaram. **Yügündü ayaxına.** Ayağına düşüb baş əydi (cəvdə etdi). A**yaxınınq yüzünədir sonq ayaxınınq asrı ulu yara da bir dağı tizindən aşağa kiçi yara** Sol ayağında, üz tərəfdə böyük yara var. Daha bir kiçik yara dizdən aşağıdır. **Otuz sekis yıldır ki, ayaxlılarğa san b**eriyirmen. Otuz səkkiz ildir ki, ayağı olanlara sayğı göstərirəm. A**yaxsızlarğa yürüməxlix berdinq.** Ayağı olmayanlara gəzmək bəxş etdin.

ayax II (-ıп, -tan, -ınq, -ı, -ıı, -ııdan, -ları) ism. – piyalə, cam, parç, kasa: **Öçəşlәttilər meni yat ayaxları bilə kendilərininq da gurkləri bilə kendilərininq açıxlattılar meni (Öçəştirdilər meni yatları bilə kensilərininq da gurkləri bilə**

kensilərininq açıttılar meni. Yad piyalələri ilə qəzəbləndirdilər məni və bütləri ilə acıtdılar (incitdilər) məni. **Zera bolmassız ayaxın Eyəmizninq içmə da ayaxın şaytanlarnınq da bolmassız atorundan Eyəmizninq yemə da atorundan şaytanlarnınq** (I Kor10: 21). Siz həm Rəbbin kasasından, həm də cinlərin kasasından içə bilməzsiniz; həm Rəbbin, həm də cinlərin süfrəsindən yeyə bilməzsiniz. **Ol türlü ayaxnı da aştan sonqra aldı da aytti: "Bu ayax yənqi otpusttur menim xanim; buni etinqiz, ne xadar egər içsənqiz, menim anqılmaxıma** (I Kor. 11: 25). Eləcə də axşam yeməyindən sonra kasanı götürüb dedi: «Bu kasa Mənim qanımla bağladığım Yeni Əhddir. Bunu hər dəfə içəndə Məni xatırlamaq üçün edin». **Ne xadar egər yesənqiz bu ötmakni da ayaxnı içsənqiz, ölümün Eyəmizninq aytınqız, negə dinçə kelginçə ol** (I Kor. 11: 26). Çünki hər dəfə bu çörəyi yeyəndə və bu kasadan içəndə siz Rəbbin gəlişinədək Onun ölümünü bəyan edirsiniz. **Içir, Biy, fərah etüçi ayaxı Ari Canınqnınq seninq, xaysı ki susapmen sanqa, içir da fərahlat xaynar sövükünq bilə seninq, çeş da keri et da buz leği çöprəsin yazıxlarımnınq menim.** İçirt, ey Rəbb, öz fərəhverici Müqəddəs Ruhunun piyaləsini, çünki Sənə susamışam, içirt və Sənə qaynar sevgi bəsləyəni fərəhləndir və ətrafımı bürümüş günahları yox et. **Bir yalğız Krisdosnunq ayaxından salınıpmen ki, yapuxnu bilir u adamınınq könqlün da barça yazıxlılarğa berir xaytmaxlıx da yaxşı sıtıx.** Yalnız Məsihin bütün gizlinləri bilən, ürəklərə və insanlara günahlardan geri dönmək (tövbə etmək) imkanı verən piyaləsindən sapdım mən. Bax: **çanax-ayax**

ayax-xol ism. - əl-ayaq

ayaxyolu ism. – ayaqyolu, tualet

ayal ~ Bax: **uyal** ~ (-ıyırmen)

ayamax f. ism. - əsirgəmə, xəsislik, peşimanlıq: **Kim ki saçsa ayamax bilə, ayamax bilə çalğay** (II Kor. 9: 6) Kim ki xəsisliklə səpər, peşimançılıqla biçər.

ayan ~ fel. – xəsislik etməmək, heyifslənməmək: **Sağlıxtan kensininq haybatın üçün anınq ayanmıyın.** Onun şöhrəti naminə öz sağlamlığını heyfslənmədən (xərclədi).

ayan bol ~ fel. – dirilmək, ölüb-dirilmək: **Ari Tenqri, ari kuçlü, ari ölümsüz ki, ayan boldunq (turdunq ölüdən bizim üçün, yarlığa bizgə.** Ey Müqəddəs Tanrı, bizə görə ölülər aləmindən dirilən, müqəddəs və güclü, müqəddəs və ölməz, bizə rəhm et.

ayartma Bax: **ayırt** ~ (-ma)

ayavuçı *см.* **ayovuçı**

ayazlıx ism. – şaxta, şaxtalı hava: **Boldum men neçik tulxux ayazlıxta, zera toğruluxunqnu seninq unutmadım (**Məz. 118/119: 83). Şaxtalı gündəki xəz tuluq kimi oldum, amma qaydalarını (doğru yollarını) unutmuram.

ayb (-nı, -dan, -ımnı, -lar, -ları) ism. (< ayıb azərb.) – ayıb: **atnınq aybı.** Atının ayıbı. **Ulu yüz aybları bilə başların asıp.** Böyük-böyük üz ayıbları ilə başlarını əydilər.

aybla ~ (-ma, -dım, -dılar, -r, -rlar edi, -ğaymen, -ğaylar, -magay, -sa, -ğan, -ğannı, -ğanların, -p) // **ayıbla** ~ // **ayıpla** ~ fel. – ayblamaq, ayıbını söyləmək, utandrmaq, qınamaq: **Köp incitirlər edi kendin atasınınq xulları da ayblarlar edi kendin da kültkü etərlər edi. da çanax-ayaxnınq pomıyın başından aşağa**

toldururlar edi. Atasının nökərləri tez-tez onu incidirdilər, onu ələ salır və qınayırdılar, qab-qacağın çirkabını başdan ayağadək üstünə tökürdülər.

Ayceğçıvrn ism. (aram) – oğlaq bürcünün aramicədən alban (qarqar-qıpçaq) dilinə keçmiş adı

aydavuçı ism. – təqibçi, təqib edən şəxs, qovucu, qovan adam: **Aytmaxı kendi emgəki üçün da küsənçliki üçün da başxış üçün ki, boldu anqar da ki tüşməgəylər Gorntaçilər xozqamaxlarına aydavucyılarnınq.** Özünün əməyi (gördüyü işləri), öz ehtiraslı arzusu və ona verilən ruzi, eləcə də korinflilərin təqibçilərin fitnələrinə uymamaları bardə hekayət.

Aydin x. ism. – Aydın. Albanlar arasında yayğın olan şəxs adlarından biri: **Avram Aydin oğlu.** Avram Aydin oğlu. **Heqnə Aydin sinqəri.** Heqnə - Aydının arvadı. Bax: **Aydın**

aydın ism. – aydın**,** işqlı, nurla, nura boyanmış, nura qərq olmuş: **Tenqrimiz biznim aydini kelgay.** Bizim Tanrımız işıq nura boyanaraq gələcək.

Aydın x. ism. – Aydın. Albanlar arasında yayğın olan şəxs adlarından biri: **Jovanes Aydın oğlu.** Yəhya Aydın oğlu.

ayğır // ayğır at ism. – ayğır

ayirıl ~ Bax: **ayırıl** ~

ayıbla ~ Bax: **aybla** ~

ayıx – ayıq, oyaq

ayıxlıx ism –ayıqlıq, oyaqlıq, gözüaçıqlıq: **Kelip saxlağay bizni muşxulsuz kündüz da keçə ayıxlıxta da tinçliximizdə bizim.** Qoy gəlib bizi gecə və gündüz ayıqlıq və hüzur içində qorusun. **Aytmas: xaysı çıdıyırlar aruvlux üçün, ya ayıxlıx üçün, ya özgə arakinutiun, evet toğrulux üçün.** Demir: olar ki, paklıq üçün, ayıqlıq üçün və ya başqa xeyirli iş naminə dözürlər.

ayın ~ fel. – ayılmaq, oyanmaq: **Ayınınqız artarlıx bilə da yazıx etmənqiz (**1 Kor. 15: 34). Ayılın, saleh olun, bir daha günaha batmayın.

ayını Bax: **yay** (-ını)

ayıpla ~ Bax: **aybla** ~

ayir ~ (-ma, -mağa, -mamağa, -ıyım, -ğın, -ınqız, -ma, -dım, -dınq, -dı, -dıq, -dınqız, -dılar, -ır, -ırlar, -ır edi, -mas, -ıyır, -ıyırbiz, -ıyırlar, -ğay, -ğaylar, -sar, -ğanlarğa, -ğan, -ğandır, -ğanğa. -ğanlarnınq, -mağan, -max, -maxnınq, -maxqa, -maxlar, -mamax, -ıp) fel. ayırmaq: **Dörtkə ayırdılar.** Dörd yerə ayırdılar. **Ayırırlar erlər xatunlarından.** Kişiləri arvadlarından ayırırlar. **Bu tenimni menim... ayırınqız canım bilə menim da men üç kündə oyatırmen anı.** Bu bədənimi... canımdan ayırın və mən üç gündə oyadaram onu. **Ayırın tillərin alarnınq.** Ayırın dillərini onların.

ayırı Bax: **ayrı**

ayırıl ~ (-ma, -mama, -mamağa, -sın, -ınqız, -dı, -dılar, -madı, -ıpbiz, -ır, -ırlar, -mas, -ğaymen, -ğay, -mağaylar, -sa, -sar, -sarlar, -ğan, -ğannınq, -ğanda, -ğan boldular, -ganına, -ğanlar, -mağan, -mağandır, -mağan bolma, -mağanlar, -max, -maxnınq, -maxqa, -maxnı, -maxtan, -maxı, -maxından, -maxları, -mamaxı, -ıp) // **ayrıl** ~ (-dı, -ıpbiz, -ıp esələr, -ır, -ırlar, -ıp) fel. – ayrılmaq: **Sımarlarmen sizgə, xardaşlar, atına Eyəmizninq bizim Yisus Krisdosnunq ayırılma sizgə başxış xardaştan ki, bizmilik sartin yürügəy da dügül sımarlamaxqa körə, xaysı ki**

yöpsündünqüz bizdən (II Sal. 3: 6). Ey qardaşlar, Rəbbimiz İsa Məsihin adı ilə sizə əmr veririk ki, bizdən qəbul etdiyi təlimə görə yaşamayan, avara həyat sürən hər bir bacı-qardaşdan uzaqlaşın (ayrılın). **Tenqrininq atı atılır ayırılmas tarbiyat** Tanrının adı onun bölünməz (ayrılmaz) təbiəti ilə adlandırılr.

ayırıllar Bax: **ayır** ~ (-ırlar)

ayırıldaş ism. ayrılma (bölüşdürülmə) prossesinin tərəfdaşlarından biri.

ayırılmağan sif. - ayrılmaz, parçalanmaz, bölünməz

ayırmax f. ism. – ayırma, bölmə, paylama:

ayirmaxlıx (-lar) Bax: **ayırmax**

ayıruçı ism. – 1. ayırıcı. Bir şeyi növlərə, çeşidlərə ayran; 2. aravuran: **Ayıruçı ya köp sözçi.** Aravuran və çox qeybət qılan (söz aparıb-gətirən).

ayıvsun ~ Bax: **hayufsun** ~

aykün ism. – Ay günü. A. Qarkavetsin fikrincə, bu termin qıpçaqların latın dilində həftənin eyni anlamı verən ikinci günü ilə özlərinin "aynakün" dedikləri cümə gününü eyniləşdirmək cəhdi ola bilər. Lakin onun bu fikri bizə inandırıcı görünmür. Çünki Strabonun yazdığına görə, albanlar xristianlığın qəbulundan öncə ay və günəşə sitayiş edərmişlər və hətta İberiya ilə sərhəddə Ay məbədi də varmış. Odur ki, "aykün" terminini albanların xristianlığaqədərki dini mərasimlərindən birinin keçirildiyi günü ifadə edən termin kimi gözdən keçirmək daha doğrudur.

aylan ~ (-ma, -ğın, -dı, -dılar, -ır, -ıy edilər, -ıyırmen, -ıyır, -ğay, -ğaybiz, -ğaysiz, -mağay. -sa, -sar, -ğan, -ğanı, -max, -maxlar, -ıp) fel. – 1. dönmək, fırlanmaq, çevrilmək: **Aylanıyırmen yaman işlərimdən.** Pis işlərdən dönürəm. 2. hallanmaq. Söhbət qrammatik anlamda isimlərin hallanmasından gedir: **Aylanmaxlar atlarğa.** İsmin halları.

aylandır ~ (-ma, -mağa, -masın, -dım, -dınq, -dı, -dılar, -mas, -ır, -ıy edilər, -ıyırmen, -ıyırbiz, -ıyırlar, -ğay, -ğan,) fel. – 1. döndərmək, fırlandırmaq, çevirlmək, dəyişdirmək: **Artxarı aylandırıp 4 xağıt, taparsen da tamam ayt.** Dörd səhifə çvirib taparsan, bütünlüklə oxu. **Kləgəylər aylandırma avedaranın Krisdosnunq** (Qal. 1: 7) Məsihin İncilini dəyişdirmək istəyirlər. **Heçkə aylandırma.** Heçə döndərmə (heç etmək). **Kemininq burnun aylandırğan ya kemini sürgən.** Gəminin burnunu döndərən (sükançı) və ya gəmini sürən. 2. hallandırmaq. Söhbət qrammatik anlamda isimlərin hallandırılmasından gedir: **Xarıştırma ya söznü teşkirmə, aylandırma.** Qarışdırma (mürəkkəb söz yaratmaq) və ya sözü dəyişdirmək, (yəni onu) hallandırmaq.

aylandırmaxlıx ism. – təhrif, çevirmə, yanlış yozum: **Ki ornu umsəsizlixkə da aylandırmaxlıxqa xalmağay.** Ümidsizliyə və təhrifə yer qoymamaq üçün.

aylanğan f. ism. – dövrə, fırlanma, dönüş, dairə, çevrə, burulğan: **Aylanğanı suvlarnınq.** Su burulğanı (suların burulğan əmələ gətirməsi). **aylıx** I ism. – aylıq. Hər hansı bir prosesin aylarla ifadə edilən müddətinin ifadəsi: **Xaçan altı aylıx boldu Mariam.** Məryəm altı aylıq olanda. **Beş aylıx.** Beş aylıq. **Ari ğoys zədəsiz da Ari Candan yüklü edi 7 aylıx.** Müqəddəs bakirə (Məryəm) zədəsiz (uşaqlıq pərdəsi zədələnməmiş, yəni qız) və Müqəddəs Ruhdan yeddi aylıq yüklü (hamilə) idi.

aylıx Il ism. – aybaşı, qadınların heyz halı: **Aylıxı xatun kişininq.** Qadının aybaşı halı.

Aynabaxt x. ism. – hazırda Yunanıstann mərkəzində yerləşən, "İnebaht" adlanan keçmiş Osmanl liman-şəhəri

aynakün (-nünq, -nünqdir, -gə, -də) ism. – cümə. Həftənin beşinci günü. Müq. et: **kiçiaynakün**

ayos ~ (-nunqdur; -lar) ism. (yun.) – müqəddəs: **Yıxövdə bolğan ayoslar da özgə ari-beriləri barı yıxövlərninq...** Kilsədə olan müqəddəslər və kilsənin digər əşyaları... **Xırx Ajos künü.** Qırx müqəddəslər günü.

ayovlu // ayuvlu sif.. – himayə altında olan, himayə edilən, qorunma altında olan, qorunan

ayovsuz sif. – 1. qəddar, rəhimsiz: **Nek bulay ayovsuz xanlar tökiyirsen?** Niyə bu qədər qəddarcasına qanlar tökürsən? 2. mənasız, boş: **Ayovsuz ya boş.** Boş. və mənasız.

ayovuçı (-nınq. –m, -mız) // **ayavuçı** ism. və sif. – qoruyucu, himayəçi, hami, qayğı çəkən, qayğıkeş, rəhimli: **Ayovuçı, baxuçı.** Qayğıkeş, himayəçi (baxıcı, xəstəyə baxan, uşağa baxan və s.). A**yovuçı yaratqanlarınqı.** Yaratdıqlarını himayə edən, onlara rəhimli olan.

ayrı I // **ayırı** // **xayrı** zrf. –ayrı, başqa, fərqli. Xüsusi, tək, başqası ilə əlaqəsi olmayan: **Bu iş ayrıdır.** Bu iş ayrıdır (başqadır). 2. ayrıca: **Dağı ayrı 20 xızıl yanına bolğan.** (Bundan başqa) üstandə ayrıca daha 20 qızıl vardı. **Borçludur manqa 1 axça, xaysı ki kensinə ayrı işləpmen 3 həftə** (Albanların hüquq sənədlərindən). Ona üç həftə işlədiyim üçün mənə ayrıca daha bir axça borcludur.

ayrı II // **ayırı** // **xayrı** qoş. – qeyri, savayı, başqa, bundan başqa: **Beş axçadan ayrı.** Beş axçadan başqa.

ayrı-ayrı zrf. – ayr-ayrı. Hər biri ayrıca, hər biri təklikdə, bircə-bircə: **8 xağıt ayrı-ayrı yazğan.** Ayrı-ayrı yazılmış 8 vərəq.

ayrıl ~ Bax: **ayırıl** ~

ayruğsu Bax: **ayruxsu**

ayruxsu // ayruğsu // ayruxsı zrf. – xüsusilə, xüsusən, hər şeydən öncə, hər şeydən çox: **Alğışlısen sen, Biy Tenqri, atalarımızdan bizim, ögövlü da ayruxsu biyikləngən atınq seninq menqilik (**Dan. 3: 52). Alqışlanansan sən, ey Tanrı, ey Rəbb, atalarımız həmişə hər şeydən çox Səni mədh etmişlər.

ayt ~ (-ma, -mağa, -mamağa. -ıyım, -qın, -sın, -ayıx, -ıyıx, -alıx, -alıq, -ınqız, -sınlar, -ma, -mağın, -masın, -manqız, -masınlar. -tım, -tınq, -tı, -tıx, -tıq, -tınqız, -tılar, -madınq, -madı, -madılar. -tı esə, -tılar esə, -ıpmen, -ıpsen, -ıptır, -ıptırlər, -ıp edi, -ıp edir, -armen, -ırmen, -arsen, -ırsen, -ar, -ır, -arbiz, -ırbiz, -arsiz, -ırsiz, -arlar, -ırlar. -mam, -man, -mas, -masbiz, -maslar, -ır edim, -ar edim, -ır edi, -ar edi, -ır edix, -ar edix, -ırlar edi, -arlar edi, -ıymen, -ıylar, -ılar, -may, -ıy edinq, -ıy edi, -ıy edilər, -mıy edi, -ıyırmen, -ıyırsen, -ıyır, -ıyırbiz, -ıyırsiz, -ıyırlar, -mıyırsen, -ıyır edi, -ıyır edilər, -qaymen, -qaysen, -qay, -qaybiz, -qaysiz, -qaylar, -mağaymen, -mağaysen, -mağay, -mağaybiz, -mağaylar, -sam, -sanq, -sa, -sax, -sanqız, -salar, -masam, -masanq, -masa, -sam edi, -sarmen, -sar, -sarbiz, -sarlar, -qan, -qandır, -qanğa, -qannı, -qanda, -qandan, -qanım, -qanımdan, -qanınq, -qanınqa, -qanınqnı, -qanı, -qanına, -qanın, -qanından, -qanımız, -qanımızğa, -qanımızn, -qanlar, -qanlarnı, -qanları, -qanlarına, -qanların, -max, -maxnınq, -maxqa, -maxnı, -maxta, -maxtan, -maxı, -maxın, -maxımız, -maxlar, -ıp, -mıyın, -qaçox, -almas edi) fel. –

demək, danışmaq, söyləmək, bəyan ermək, moizə oxumaq, oxumaq, dilə gətirmək: **Aytma netürlülüxün cınsnınq da ulusnunq**. Nə cür xalq və ölkə olduğunu söyləmək.

-Ne aytarsen canınqnı seninq?

-Tensizdir canım menim (Qriqori Hamamanın "Alban dilinin qrammatikası" kitabından).

-Canın (ruhun) haqqında nə deyə bilərsən?

-Maddi deyil (bədənszdir) canım (ruhum) mənim.

Necyik ol kezgi künnü, alay hali də aytıymen O dəfəki gün olduğu kimi bu gün də deyirəm. **Aytıyırmen, hakiyətliyirmen** (Yun. 1: 8). Söyləyirəm, hekayət edirəm. **Aytma, ya açıx aytma, ya səbəpin aytma.** Demə, ya açıq söyləmə, ya da səbəbini dilinə gətirmə. **Ayttim: "Boş (Heç) yergədən, alaysa, aruvlattım (toğrulatıyım) toğrulattım yürəkimni menim, yuvıyım aruvlux bilə xollarımnı (yuvdum arilik bilə xolumnu) menim da boldum men aşaxlanğan (tövülgən // tüvülgən) kün uzun da azarlanmaxım menim ertə (tanq) manına?"** (Məz. 72/73: 13-14).

Dedim: "Məgər boş yerə qəlbimi təmizləmişdim,
Günahsızlıq içində əllərimi yumuşdum?
Həmişə əziyyətə düşürəm,
Hər səhər töhmətə rast gəlirəm"

Xoca oğlu yılan yedi – ayttılar ki hakimliktir anqar; yarlınınq yedi esə – ayttılar, açlıxtan yedi (Alban atalar sözü). Varlının oğlu ilan yedi, dedilər ki, dərmandır (həkim məsləhətidir), kasıbın oğlu yedi, dedilər ki, acından yeyib.

aytıl ~ (-ma, -maga, -dı, -dılar, -ıptır. –ır, -mas. -ıyırmen, -ıyır, -ıyırlar, -mıyır, -ıyır esə də, -ğay, -mağay, -masa, -masa edi, -sar, -ğan, -ğandır, -ğanınınq, -ğanlar, -ğanlarnınq, -ğan bolur, -ğan bolğay, -ğan bolsa, -mağan, -max, -maxnınq, -maxı) fel. – deyilmək, söylənmək, dilə gətirilmək: **Anqlanır ya aytılır.** Anlaşılır ya deyilir. **Aytılır, xaysın ki avaz bilə oynarlar ya yırlarlar.** Deyilənləri musiqinin müşayiəti ilə oxuyarlar, ya da mahnı kimi ifa edərlər.

aytılğan ism. və f. sif. – deyilmiş, söylnilmiş, acıqlama, moizə, cümlə, öyüd, nəsihət: **Aytılğan surp hayrabed Nersesninq ari Errortutiunğa xarşı, xaysın ki borçludur hər krisdan kişisi hər kündə aytmağa beş kez, on eki kez yügünm etip yer öpməx bilə, bolsun ertə, bolsun keçə ya ne vaxt ki kləsənq, ayt.** Müqəddəs patriarx Nersesin söylədiyi və hər bir xristianın istər səhər, istərsə də axşam və ya da özü istədiyi vaxtda səcdəyə qapınaraq, torpağı (yeri) öpərək beş dəfə söyləməli olduğu dua-moizə. De.

aytılmağan f. sif. – söylənilməmiş, deyilməmiş, açıqlanmamış

aytış Bax: **aytuş**

aytovsuz (-sen, -dur) f. sif. - eşidilməmiş, dilə gətirilməmiş, sözlə ifadə edilə bilinməyən: **Evet yalğız seni alğışlıyix titrəməx bilə da inam bilə yuvuxlanıpbiz körümsüz da körümlü aytovsuzluxunqa.** Bəli, yalnız Səni – gözlə görünməyəni, görünsə də sözlə ifadə edilə bilinməyəni biz səy və inam ilə alqışlayırıq.

aytuçı (-dırlar, -nınq, -lar, -larnı) // **aytıçı** (-larnınq) ism. – natiq, məruzəçi, sözçü, danışan, söz söyləyən, çıxış edən

aytuş f. ism. – söz, ifadə: **Yöpsünövlü bolğay, neçik yağmur, avazım menim da engəy, neçik xıravu, aytuşum menim (**Qan. 32: 2). Qoy təlimim yağış kimi tökülsün, sözüm şeh (qırov) kimi düşsün. **İşitip avazına aytuşununq (buyruxununq) anınq (**Məz. 102/103: 20). (Ey) Onun sözünü (buyuruğunun səsini) eşidən (qüdrətli igidlər)! **Bununq üçün biz də ol kündən ki, işittix, tiyilməsbiz sizinq üçün alğış etmə atan da xoltxa sunmaxtan ki, tolğaysiz biliklik bilə erkinə anınq, barça eslilik bilə da can aytışı bilə** (Kol. 1: 9). Ona görə bunu eşitdiyimiz gündən bəri sizin tam hikmət və ruhani idrakla Allahın iradəsini bütünlüklə qavramanız üçün biz də ürək sözümüzlə (ürəkdən, cani-könüldən) dualarımızı və yalvarışlarımızı kəsmədik.

-**Nedir çektiri barlıxnınq?**

-**Barlix ilk ayrılır ketərməx söz bilə tensizgə da xoyulmax aytuş bilə tengə** (Qriqori Hamamanın "Alban dilinin qrammatikası" kitabından).

-Varlqlarn fərqləri nədədir?

-Varlıqlar hər şeydn öncə sözlə ifadə edilə bilməyən qeyri-maddi və ifadə edilə bilən maddi olanlara bölünür.

ayuv (-lar, -larğa) ism. – ayı

-Da xaysılardırlar itidırnaxlılar?

-Neçik aslan da xaplan, ayuv da börülər da börüxatırğına, it, tülkü, çaxal, xoyan, maçı, kocan, kirpi da özgə bularğa oxşaşlar, evet dirlər kimlər xısxaayaxlılar, neçik vevurqa, sıçxan da kret da borsuk...

-İtidırnaqlılar hansılardır?

-Bunlar aslan və pələng, ayı, canavar və canavarla tülkünün qarışığı, it, tülkü, caqqal, dovşan, pişik, sünbülqıran, kirpi və digər bunun kimilərdirlər, Amma dələ, sıçan, kosdəbək və porsuq kimi qısaayaqlılar da var...

ayuvlu Bax: **ayovlu**

ayuvsun ~ Bax: **ayıvsun** ~ (-sun)

az (-dır, -dırlar, -nı, -da, -dan) sif. – az: **Ne türlü ki anqladınqız bizgə aznı köptən, zera haybatınqız sizinq biz, neçik siz də bizim, kününə Eyəmizninq Yisus Krisdosnunq (**II Kor. 1: 14). Hələlik bizi bir az başa düşmüsünüz. Rəbbimiz İsa Məsihin günündə bizim fəxrimiz siz olduğunuz kimi sizin də fəxriniz biz olacağıq.

az ~ (-ma, -mamdır, -mandır, -ıyırmen, -ıyırsiz, -salar, -max, -maxnı) fel. – azmaq, sapmaq, yanılmaq, xəta etmək: **Kləsə egər ki barçası azsalar sendən, evet men azmanmdır (**Mat. 26: 33). Hamı Səndən (Sənin yolundan) azsa da, mən əsla azmaram.

azad (-men, -dır, -nınq, -ğa, -lar) sif. (< azərb. < frs) – azad, sərbəst: **Biy Candır, xayda Canı Eyəmizninqdir, anda azad bolmaxlıxtir (**II Kor. 3: 17). Rəbbimiz Ruhdur. Rəbbimizin ruhu haradadırsa, orada azadlıq hökm sürür. **Bir kün azad bolup edi Bandalevon ustasından kensininq ki, övgə barğay edi.** Bir gün Pantalemon ustasından evə getmək üçün icazə (azad, sərbəst olmaq icazəsi) istədi. **Azad etüçi Krisdos, azad et meni ağu tınıxlı yelindən yazıx xışınınq, xaranğulanğan da buzlağan canımnı yarıxlat da isit.** Azadedici Məsih, məni günahların qış yelinin məstliyindən azad et, qaranlığa qərq olmuş və buz bağlamış ruhumu nurlandır (işıqlandr) və isit.

azadlıx (-qa, -nı, -ına, -ımızını, -nqız) ism. – azadlıq, sərbəstlik: **Zera siz azadlıxqa ündəlipsiz, xardaşlar, yalğız ki tek azadlıxınqz sizinq bolmağay səbəpinə tenninq, yoxsa sövük bila xulux etinqiz biri birinqizgə (**Qal. 5: 13). Qardaşlar, siz azadlığa dəvət olunmusunuz. Amma bu azadlığı cismani təbiət üçün fürsətə çevirməyin, fəqət bir-birinizə məhəbbətlə qulluq edin.

azar sif. və zrf. – azacıq, az-maz

azar ~ Bax: **azarla** ~ (-ma)

azar-azar zrf. – az-az, yavaş-yavaş: **Azar-azar başlap edim töləməgə.** Az-az (yavaş-yavaş) başlamışdım qaytarmağa.

azarla ~ (-ma, -mağa, -anqız, -ma, -dı, -dılar, -madınqız, -rmen, -r, -rlar, -r edi, - ğaysen, -ğay, -mağay. –sa, -sa edi, -max, -maxqa, -maxım, -maxınqdan) fel. – azarlamaq, rişxənd etmək, qınamaq, tənbeh etmək, təhqir etmək, məzəmmət etmək: **Dügül ki bernələrinq üçün seninq azarlıyırmen seni** (Məz. 49/50: 8). Qurbanlarından ötrü səni tənbeh etmirəm. **Xoymadı adamlarğa yazıxlanma etməgə alarğa, azarladı xanlarnı alar üçün (**Məz. 104/105: 14). (Rəbb) heç kimi onlara əzab verməyə qoymadı, onlara görə xanları tənbeh etdi. **Baxuçı bolma inamlı sözinə vartabedlixninq ki bolğay ovundurma da sağ es bilə vartabedlixtən da xarşı bolğanlarnı azarlama... Anınq üçün azarlağaysen alarni bek ki, saqayğaylar inamda (**Tit. 1: 9, 13). Həm başqalarına sağlam təlimlə nəsihət verməyə, həm də ona qarşı çıxanları təkzib etməyə qadir olsun deyə aldığı təlimə uyğun olan etibarlı kəlamı bərk tutmalıdır... Bu şəhadət etibarlıdır. Ona görə də ilahiyyatçıları sərt bir şəkildə məzəmmət et ki, imanları sağlam olsun. **Dağın artıxsı tolundu boyumuz bizim azarlamax bilə, kimlər azarlar edi bizni da heç etməxləri bilə öktəmlərninq (**Məz. 122/123: 4). Laqeydlərin rişxəndləri, təkəbbürlülərin təhqirləri bizi cana doydurdu. **Azarlamaxınqdan seninq, Tenqrisi Jağopnunq, yuxladılar da kimlər atlanırlar atlarğa** (Məz. 75/76: 6). Ey Yaqubun Allahı, Sənin məzəmmətindən arabaçılar və atlar uyumuş qaldı.

azarlan ~ (-ır, -max, -maxqa, -maxım, -maxlarına, -ıp) fel. – azarlanmaq, rişxənd edilmək, qınanılmaq, tənbeh olunmaq, təhqir edilmək, məzəmmət olunmaq, töhmət edilmək: **Oğlum! Salınma ögütündən Eyəmizninq da umsasızlanma, azarlanıp andan.** Oğlum! Rəbbimizin öyüdlərindən yayınma və O səni məzəmmət etdikdə ümidsizliyə qapılma. **Egər ki barçası markarelik etsələr da kirsə anda xaysı inamsiz ya biliksiz, azarlanır barçasından da tergəlir barçasından (**I Kor. 14: 24). Amma hamı peyğəmbərlik edirsə və oraya iman etməyən yaxud təlim öyrənməmiş adam girirsə, o hamı tərəfindən qınanılacaq, hər sözlə özünü araşdıracaq. **Da boldum men tövülgən kün uzun da azarlanmaxım menim tanq ertə (**Məz. 72/73: 14). Gün boyu əziyyətə düşürəm, hər səhər ertə töhmət edilirəm (töhmətlə üzləşirəm).

azarlavuçı ism. və sif. – azarlayıcı, təhqir edən, məzəmmətçi, tənbehçi, qınayıcı, töhmət edici: **Paxıllıxı övünqnünq seninq yedi meni, tabası azarlamax azarlavuçılarınqdan seninq tüştilər üstümə menim (**Məz. 68/69: 10). Evinin paxıllığı məni yandırıb-yaxdı, səni təhqir edənlərin rüsvayçı təhqirləri altında qaldım. A**taların-anaların azarlavuçılar.** (Rom. 1: 30). Ana-atalarını təhqir edənlər.

az-az zrf. - az-az

azbar (-ğa, -da, -ımdır, -ıma, -ıdır, -ına, -ın, -ında, -ından, -larına) ism. – həyət, çəpərə alınmış sahə, qapalı yer:

azbar-çetən Bax: **azbar**

azdan-köptən Bax: **az-köp**

azdırmax fel. – azdırmaq, sapdırmaq, yoldan çıxartmaq: **Saxla meni sırtmaxtan, xaysı ki yaşınıptır manqa, azdırmaxından xılınuçınınq törəsizlikni**nq (Məz. 140/141: 9). Şər iş görənlərin (yoldan çıxaranların) tələsindən, onların qurduğu qanunsuzluq cələsindən məni qoru.

azdırmaxlıx f. ism. –hiylə, fitnə, hiyləgərlik, fitnəkarlq, şər, azdırma, sapdırma, yoldan çıxartma: **Ki boylarınınq kendilərininq umsasın kestilər da çıxara berdilər boyların azdırmaxlıxqa işinə barça murdarlıxnınq akahlix bilə.** Odur ki, onlar öz ruhlarını ümidlərdən məhrum etdilər və özlərinin azdırılmalarına, hər cür murdar işə bulaşdırılmalarına imkan yaratdılar.

azğına (-nınq, -nı, -lar, -larnınq) // **azğna** sif. – azacıq, bir az, azmaz: **Bilməs misiz ki, azğına açı xamur barça neməni açıtır?** (l Kor. 5: 6). Biməmisiniz ki, azacıq acı xəmir (maya) hər şeyi acıdır? **Azulaxda dağın heç bolmısar xırsız, izdəsərsen yerni anınq da tapmısarsen // Azgına dağı – da sonqra bolmısar yaman, izdəgəysen yerin anınq da tapmağaysen** (Məz. 36/37: 10).

Bir az gözlə, pis yox olacaq,
Yerini axtarsan belə, tapılmayacaq.

azğındıq Bax: **ğındıq** (az ~ bilə)

azğna Bax: **azğına**

azğır ~ Bax: **azdırmax**

Azia // Aziya Bax: **Asiya**

aziz sif. (< azərb. < ər.) - əziz: **Dağın da köplər bolğaylar xartlıx semizliklərindən, özdən da aziz da imşax bolğaylar, aytma: "Toğrudur Biy Tenqrimiz bizim da yoxtur kendində egirlik"** (Məz. 91/92: 15, 16). Qocalanda da bar verəcəklər, təravətli, əziz qalacaqlar. Belə deyəcəklər: «Rəbb haqdır, O mənim qayamdır, Onda haqsızlıq yoxdur». **Aziz da biyənçli sövüklüsü Ata Tenqrininq.** Əziz, müqəddəs və Ata Tanrının sevimlisi

azığsız Bax: **azıxsız**

azıx (-nı -ı, -ın) // **asıx** (nı, -ımnı, -ı, -ın) ism. – azuqə, yem, yemək, ərzaq: **Ber manqa asıxımnı menim.** Ver mənə azuqəmi mənim.**Azıxı yazıxnınq ölümdür, yoxsa başxışı Tenqrininq – tirlik menqilik Krisdosta Yisusta, Biyimizdə bizim (**Rom. 6: 23). Çünki günahın əvəzi (yeməyi, yemi) ölümdür, Allahın ənamı isə Rəbbimiz Məsih İsada olan əbədi həyatdır.

azıxlan ~ fel. – azuqə ehtiyatı toplamaq, azuqə tədarükü görmək

azıxsız // azığsız sif. – yeməksiz, azuqəsiz

azıxsızlan ~ fel. –azuqəsiz qalmaq, yeməksiz qalmaq

az-köp zrf. – az-çox: **Egər azdan-köptən nemə bar edi esə barçanı men neçik ayovuçı paxıllıx etiyir edim.** Əgər onun azdan-çoxdan nəyi isə vardısa, mən bir hami kimi hamsına paxıllıq edirdim.

azlat ~ fel. - azaltmaq

azlıx (tan, -ı, -ın) ism. – azlıq: **Zera ne türlü ki hnazant azlıxı bilə bir adamnınq yazıxlı köplər boldular, ol türlü hnazantlıxı bilə birninq artar köp**

boldular (Rom. 5: 19). Necə ki azlığın, bir adamın itaətsizliyi üzündən bir çoxları günahkar sayıldı, eləcə də bir adamın itaəti sayəsində bir çoxları saleh sayılacaq. **Cuvap berdi anqar yolunda xuvatınınq kendininq: azlıxın künlərimninq menim belgirt manqa (**Məz. 101/102: 24). Cavab verdi yolda ona qüvvəsi yetdukcə ki, (ömür) günlərim(in sayı durmadan) azalır, məni (tez-tez) ziyarət et.

azmaxlıx ism. – sapma, yol azma, sapıqlıq, azğınlıq, tor, tələ: **Bar mendən keri, şaytan! Azmaxlıxım menimsen! Ki sağışlamassen Tenqrininqkin, yoqsa adamnınqkin (**Mat. 16: 23). Çəkil qarşımdan, Şeytan! Sən öz azğınlığınla mənə mane olursan. Sən Tanrının işləri haqqında deyil, insan əməlləri barəsində fikirləşirsən. **Bolsun atovlari alarnınq allarına alarnınq sırtmax, tölövgə da azmaxlıxqa (**Məz. 68/69: 23). Süfrələri onlar üçün tələ olsun, müttəfiqləri üçün tor olsun. **Bolgay** (**Bolsun) yolları alarnınq xaramğuluxta da azmaxlıxta da friştəsi Eyəmizninq xuvğay alarnı (**Məz. 34/35: 6). Yolları onların yol azdıran zülmət olsun, Rəbbin mələyi onları silib atsın (qovsun). **Nemə ki kezər** (**yürür) xaranğuluxtan azmaxlıxtan devninq** (**şaytannınq) yarimkünnü (***Məz. 90/91:* 6). Nə yol sapdıran zülmətdə, nə də günorta dolanan divdən (şeytndan) qorxmazsan.

aznavur (-nunq, -nu, -lar) // **aznavor** ism. və sif. – azman, igid, bahadır, cəngavər: **Kün toğuşundan xordu çətirin kendininq, da kendi – neçik kiyöv ki, çıxar sarayından kendininq, sövünür ol, neçik aznavur, yügürmaıində yolunda kendininq** (Məz. 18/19: 5, 6).Günəş gərdəyindən bəy kimi çıxır, qaçışa çıxan bir azman kimi şad olur. bir tərəfdən çıxır, göylərdə dövrə vurur. **Dügül ki köp xuvatında kendininq abralır xan da ne aznavur (bahatır) köp xuvatına kendininq** (Məz. 32/33: 16). Qoşunun çoxluğu ilə heç bir padşah qurtulmaz, qolunun gücü ilə heç bir cəngavər zəfər çalmaz. **Dügül ki xuvatın atnınq klədi Biy da ne erlikinə adamnınq aznavur adama biyəndi. Yoxsa biyəndi Biy xorxqanlarına kendininq da alara, kimlər ümsənirlər yarlığamaxına anınq** (Məz. 146/147: 10, 11). O, güclü atlardan zövq almaz, bahadırlardan razı qalmaz. Amma Rəbb Ondan qorxanlardan, Onun məhəbbətinə ümid bağlayanlardan razı qalar.

azuçı ism – yolunu azan adam

azulax (-qa, -tan) sif. –cüzi, qısa, azacıq: **Azulaxda dağın heç bolmısar xırsız, izdəsərsen yerni anınq da tapmısarsen** // **Azgına dağı – da sonqra bolmısar yaman, izdəgəysen yerin anınq da tapmağaysen** (Məz. 36/37: 10).

Bir az gözlə, pis yox olacaq,
Yerini axtarsan belə, tapılmayacaq.

azulaxğına // **azulaxqına** sif. və zrf.. – bapbalaca, lap balaca, az qala: **Evet ki menim bir zərrə də seskənip edilər ayaxlarım menim, azulaxğına da tayip edilər barğanlarım menim** (Məz. 72/73: 2). Amma mənim ayaqlarım az qala büdrəmişdi, addımlarım məni yıxmışdı.

azulaxlan ~ fel. – kiçilmək, balacalaşmaq, qısalmaq Müq. et: **azulax** və **azlat** ~

azulaxlat ~ Bax: **azulaxlan** ~

B

ba Bax: **bə:**

bab I ism. – "baba" sözünün qısaldılmış variantı. Bu forma daha çox Roma papasını (**ulu bab, enq ulu bab)** və keşişləri ifadə etmək üçün işlənmişdir: **Bardır kensindən sözçisi Bedros arakəl da anınq sözçiləri, xaysılarğa berdi xuvatın kensininq yergələtmə leşkerin kensininq, xaysın üsnədir kensi neçik enq ulu bab.** Onun sözçüsü həvvari Pyotrdır və onun da öz sözçüləri vardır ki, o, ən ulu keşiş (Papa) kimi onlara - öz (dindarlar) ordusuna buyurmaq səlahiyyəti vermişdir.

bab II ism. (ər) – fəsil, bölüm

baba I ism (türk) – ata: **Der Sdepanosun zamanında kelmiş edix babamız bilə da bir xaç zaman olturdux.** Müqəddəs ata Stepanosun dövründə gəlmişdik və bir müddət (orada) qaldıq.

baba II ism (slv.) – qoca qarı, qoca arvad. Bu söz yalnız mühacir albanların dilində (alban dilinin Krım dialektində) işlənmişdir: **Baba ya igit oğlan on üç yıllıx.** Qoca qarı və on üç yaşlı oğlan.

Baba I x. ism. – şəhər adı. Ola bilsin ki, Türkiyədəki Baba Eski (?): **Baba atlı şəhər.** Baba adlı şəhər. **Hali ket kəndə - Babağa.** Sən hələlik kəndə (şəhərə) – Babaya get.

Baba II x. ism. – albanlar arasında yayğın olan adlardan və mürəkkəb ad düzəldən formantlardan biri: **Biy-Baba, Mali-Baba, Baba: Jağop Baba oğlu.** Bəybaba, Malibaba, Yaqub Baba oğlu.

babadya (ğa, -sı, -sına) ism. (yun.) – keşiş arvadı: **Bolğay eki pay: alay Vartegə, neçik babadyağa, barabar.** Qoy həm Varta, həm də keşiş aravadı üçün iki bərabər pay olsun.

babas (-nnq, qa, -nı, -ı, -ına, -lar, larnnq, - larğa, -larınq, -ları, -larına) ism. (yun.) – papaz, keşiş, kahin: **Babasları alarnınq tüştilər** xılıçqa da tulları **alarnınq yox edi kimsə ki, yığlağay edi** (Məz. 77/78: 64). Onların keşişləri qılıncdan keçirildilər və arxada dulları da yox idi ki, onlara ağı söyləsinlər. **Türkçə ündəlir türk babası – molla.** Türk keşişinə türkcə "molla" deyilir.

babasdaş // babaşdaş ism. – keşişin həmkarı, keşişin dostu, həmkar keşiş

babaslıx (-qa, -ına, -ın, -ından) ism. – keşişlik, keşiş rütbəsi: **Babaslıxına nemə ziyan etməstir.** (Bu onun) keşişliyinə hec cür xələl gətirmir.

babaşdaş Bax: **babasdaş**

Babelon // Babilon Bax: **Papelon**

Babik x. ism. – albanlar arasında yayğın olan şəxs adlarından biri: **Babik Bali oğlu**

babu (-nunq, -su, -sununq, -larınınq) ism. – baba, atanın və ya ananın atası: **Arzu xatunınq, Yağob Baba oğlunınq xızı uçmaxlı canı ketti yanına babularnınq.** Arzu xatunun – Yaqub baba oğlunun qızının cənnətlik ruhu babalarının yanına getdi.

badağmunq // badahmunq ism. (orta fars) – hadisələr, proseslər, olaylar: **Çıxarıyırlar bizni yaman badağmunqtan.** Bizi pis hadisələrdən çıxarırlar (uzaqlaşdırırlar).

badəm (-ninq, -ni, -lər) ism. – badam: **Badəmninq terəki.** Badam ağacının zoğu.

badenlan ~ Bax: **bədenlən** ~

badiyət ism. (< azərb. < ər.) – bədiiyyət, bədiilik, yenilik, yeniləşmə, yenilənmə: E**gər ki dunyada nemə yənqi badiyət çıxıp esə...** Əgər dünyadda nə isə yeni bir şey çıxıbsa (yenilənmə baş veribsə)...

badınçan ism. – badımcan: **Xarbuz, xıyar, badınçan...** Qarpız, xiyar, badımcan...

badmel et ~ fel. (badmel erm + et ~ türk) – hekayə etmək, nəql etmək: **Küçəydilər Ari Can bilə ki, aytıp badmel etkəylər surp Marianeninq xuvatın da tanıxlıxın da barça skançelikin, xaysı ki etti Andioq kerməndə.** Onlar Müqəddəs Ruhla qüvvətləndirildilər ki, müqəddəs Marianannın gücü və Antakya qalasında göstərdiyi bütün möcüzələri barədə danışsınlar (hekayət etsinlər).

Badmos x. ism.(yun) – Padmos. Egey dənizində ada, əski Efes (İzmir) şəhərindən 90 km. cənub-qərbdə yerləşir. Həvvarilərdən müqəddəs Yəhya (Yəhya Tanrısöz) imperator Domisianın dövründə, 95-ci ildə xristianlığ təbliğ etmək məqsədi ilə bu adaya göndərilmiş və burada ona vəhylər gəlmişdir. Vəhylərin gəldiyinə inanılan Apokalipsis mağarasının yerləşdiyi qayanın üzərində sonralar həvvarinin heykəli ucaldılmışdır:

badmucan ism. (?) – qofta, üst geyimi: **Badmucan, türlü-türlü rənglərdən ton...** Badmucan, müxtəlif rənglərdə don...

badriarq (-qa, -nı, -ı, -ın, -lar) // **bardiarq** (-nınq) ism. (yun.) - patriarx, katalikos:

baca // **baça** ism. – bacanaq, arvadın bacısınn əri

bağdan Bax: **baq** (-dan)

bağ I (-qa, -nı, -da, -dan, -ımda, -ımnı, -ı, -ıdır, -ına, -ın, -ından, -lar, -larımnı, -ları, -ların, -larından) // **bah** (-ın) ism. – bağ, düyün, lent, şərt: **Çeşti bağlarnı yürəklərindən.** Ürəklərindəki düyünləri (şübhələri) çözdü. **Xoydux ortada bağ 2-sininq: da xaysı xaysına söksə ya 1-i birininq üstinə sekirsə, nə xalğay 100 axça xalağa da 50 axça bizim törəmizgə, tek dosviçit etsinlər 1-i 1-i üstinə kləsə 1 kiçi oğlan bilə toğrusun** (Albanların məhkəmə sənədlərindən). Biz onların üzərinə şərt qoyduq: Əgər biri digərini söysə və biri o birinin üstünə atılsa şəhər xəzinəsinə 100 axça, eləcə də məhkəməyə 50 axça ödəməlidir, yetər ki, bu halın baş verdiyinə, - kiçik uşaq da olsa, - şahidlik edən olsun.

bağ II ism. – bağ, bağça: **Bağçasından Sotomnunq edi borla teräki alarnınq da bitişlari (tikməsi) alarnınq Komordan** (Qan. 32: 32). Tənəkləri Sodomdakı üzüm ağaclarındandır, Homorra bağlarındandır.

bağa I (-nı, -lar) // **baha** ism. – qurbağa: **Yeberdi alarnınq üsnə itçibini da yedi alarnı da bağa bilə buzdu alarnı** (Məz. 77/78: 45). Onları göndərdiyi mozalanlara yem etmişdi, göndərdiyi qurbağalar ölkələrini xarabaya çevirmişdi. Müq. et: **xurbaxa** və **tosbaxa**

bağa II Bax: **baha** I

bağalı Bax: **bahalı**

bağar II Bax: **bahar** II

bağatır (-men) // **bahatır** ism. – bahadır, igid, nəhəng, pəhləvan: **Dügül ki, köp çerüvi bilə xutulur kendininq abralır xan da ne bahatır köp xuvatından kensininq** (Məz. 32/33: 16). Özünün çoxsaylı qoşunu ilə nə xan, nə də bahadır onun qüdrərindən qurtula bilər. Müq et: **aznavur**

bağça Bax: **baxça**

Bağça x. ism. – albanlar arsında yayğın olan şəxs adlarından biri

bağçaçı Bax: **baxçaçı**

bağçalıx ism. – bağçalıq

Bağdad Bax: **Bağdat** I

bağdadlı Bax: **bağdatlı**

Bağdat I (-nınq, -qa, -nı) // **Bağdad** x. ism. – Bağdad. İraqın hazırki paytaxtı

Bağdat II x. ism. - albanlar arsında yayğın olan şəxs adlarından biri

bağdatlı (-lar, -larnınq) // **bağdadlı** (-larnınq) ism. - bağdadlı, Bağdad şəhərinin sakini

bağın ~ Bax: **baxın** ~

bağır I (-nı, -dan, -lar) // **bahır** (-nı) // **paqxır** (-lar) ism. – mis: **Tercibə: bolur soknu da tökmə eritkən bahır üsnə ya bahırnı içinə soknunq bişirmə.** Təcrübə: bu məhlulu əridilmiş misin üzərinə tökmək və ya misi (həmin) məhlulda qaynatmaq.

bağır II (-lar) ism. – bağır, qara ciyər

bağır III ism. – qalın ağac, qalın dəyənək

bağırsağ // bağırsax // bağırsığ // bağırsıx ism. – 1. bağırsaq; 2. tuluq, bağırsaqdan düzəldilmiş su tuluğu: **Bağırsığ ya bardax - çağır xoyarlar içinə.** Tuluq və ya bardaq – içinə çaxır qoyarlar.

bağış Bax: **başxış**

bağışla ~ (-ma, -ğın, -nqız, -dınq, -dı, -dıx, -dılar, -rmen, -rsen, -r, -rlar, -ğaysen, -ğay, -mağay, -sam, -sanqız, -sar, -ğan, -ğın, -maxınınq, -p) // **baxışla** ~ (-dınq) fel. – bağışlamaq: **Bağışlanqız manqa bu eksiklikni** (II Kor 12: 13). Bu çatışmamazlığımı mənə bağışlayın // Bu əksikliyimə görə məni bağışlayın.

bağışlan ~ (-dı, -ıptır, -ğaymen) // **baxışlan** ~ (-ıptır) fel. – bağışlanmaq: **Yoxsa biz dügül ki canın dünyanınq aldıx, yoxsa Cannı ki, Tenqridəndir ki, tanığaybiz ani, xaysı ki Tenqridən bağışlandı bizgə (**I Kor 2: 12). Biz bu dünyanın ruhunu deyil, Tanrı tərəfindən olan Ruhu qəbul etdik ki, tanrının bizə nə bəxş erdiyini bilək. **Bir oğurdan hadırlağın manqa yer, zera umsanırmen ki, alğışınqız bilə sizinq bağışlanğaymen sizgə** (Fil. 1: 22). Bununla yanaşı, mənə bir qonaq otağı hazırla. Ümidvaram ki, dualarınız vasitəsilə sizə bağışlanacağam.

bağışlavuçı ism. – bağışlayan, günahlardan keçən, sədəqə verən:

bağır-temir ism. – metal, hərfi mənada: mis-dəmir

bağla ~ (-ma, -ıyım, -dım, -dınq, -dı, -dılar, -ptır, -p edi, -rmen, -r, -rlar, -mandır, bağlıy edi, -ğaylar, -mağaysen, -sanq, -sar, -ğan, -ğandır, -ğandırlar, -ğannı, -ğanlarnınq, -ğanlarnınq, -ğanların, -maxnı, -p) // **bahla** ~ (-ma) fel. – bağlamaq: **Suv üsnə ki ağaç yeberirlər bir yerdə bağlap...** Su (çay) üzəri ilə ki ağac göndrirlər, bir-birinə (bir yerdə) bağlayıb...**Egər yaman etsənq, xorxkin, zera dügül ki boş bağlaptır xılıçnı belinə (**Rom. 13: 4). Amma pis iş görürsənsə, qorx! Çünki o, əbəs yerə belinə qılınc bağlamayıb. Müq. Et: **bayla**

bağlan ~ (-ma, -dı, -dılar, -ıpsen, -ıpsiz, -ıptırlar, -ır, -ırlar, -maslar, -ıyır, -ğaylar, -mağay, -sar. -ğan, -ğannı, -ğanıma, -ğanımnı, -ğanımda. –ğanın, -ğanlar, -ğanlarnı, -max, -maxtan, -maxım, -ıp) // bahlan ~ (-ğay, -ğannı) fel. – bağlanmaq: **Sözlər bilə bağlanğan.** Sözlərlə bağlanmış. **Tilim bağlandı, ağzımdan-**

burnumdan xan yeberildi. Dilim tutuldu, ağız-burnumdan qan fışqırdı. **Ortamızda söz bilə bağlandıx.** Aramızda şərt kəsdik // Bir – birimizə söz verib əhdlə bağlandıq. **Xaysına ki barça budovana bağlanıp da yerlənip artar ari dağarına Biy bilə (**Efes. 2: 21). Bütün bina Onun üzərində birləşərək (bağlanaraq) Rəbbə aid müqəddəs məbəd olmaq üçün ucalır. **Xaydan ki barça ten bağlanıp da oxşaş bolup barça boğunlar bilə barıp kelməxləri bilə sezdirməxkə köra, ölçöv bilə hər birininq üluşünə körə, artmaxlıxın tenininq etər yasamaxına boyun kensininq sövük bilə (**Efes. 4: 16). Bütün bədən Onunla birləşdiyi üçün hər əzələnin köməyi ilə üzvi surətdə Ona bağlanıb qurulur və hər üzvün ahəngdar işləməsi ilə böyüyür, məhəbbətlə inkişaf edir.

bağlı (-men, -dır, -larnınq, -larnı, -ların) sif. – bağlı

bağlıyır Bax: **bağla**

bağlov ism. düyün, düyünçə: **Çeşkin meni də, köpyazıxlını, bağlovundan yazıxlarımnınq.** Mənim də - günahı çox olanın da, günah bağlarını çöz (aç).

bağsız sif. – bağsız, düyünsüz, bağlılığı olmayan: **Teşkirmiyin adamnınq xalın da bağlı tarbiyatın bağsız da açix tarbiyatına Tenqrininq.** İnsanın kobud və bağlı təbiəti ilə Tanrının bağsız təbiətini müqayisə etməyin.

bağşla ~ Bax: **bağışla** ~

bağşlavuçı Bax: **bağışlavuçı**

bağuz Bax: **balağuz**

bah Bax: **bağ**

baha I (-ğa, -sı, -sıdır, -sınınq, -sına, -sın, -sından) // **bağa** (-dadır, -sı) ism. – baha, qiymət, dəyər: **Ne aytırsen bu bahağa?** Bu qiymətə nə deyirsən? **İt bahası.** İtin qiyməti (Bu ifadə alban dilində məcazi mənada Azərbaycan türkcəsindəki "od bahasına" ifadəsi ilə eyni anlamda da işlənmişdir).

baha II Bax: **bağa** I

bahalı (-sı) // **bağalı** (-dır, -dırlar, -ğa, -sı) sif. – bahalı: **Haybatlan, xonaxı elinqninq seninq, xaysı üsnə heç bahalısı yox.** Həmd olsun, xalqının sığınacaq yeri (olan Tanrı)! (Bu sığınacaqdan) daha dəyərlisi yoxdur. **Bahalı tonlar, bahalı taşlar.** Bahalı donlar, bahalı daşlar.

bahalıx (-ı) sif. – bahalıq

bahar I (-nı, -da) ism. – bahar, yaz Müq. et: **əvəlbahar**

bahar II ism. – baharat, şiriniyyat:

bahasiz Bax: **bahasız**

bahasız sif. – qiymətsiz, çox dəyərli: **Bahasız taşlar.** Qiymətsiz daşlar.

bahatır Bax: **bağatır**

bahatırlıx (-lar, -larında) ism. – bahadırlıq, qəhrəmanlıq: **Köp bahadırlıxlar etti.** Çox qəhrəmanlıqlar etdi.

bahır Bax: **bağır** I

bahla ~ Bax: **bağla** ~

bahlan ~ Bax: **bağlan** ~

baqqaysen Bax: **baq** ~

bax Bax: **başbax**

bax ~ (-ma, -mağa, -ıyım, -qın, -çı, -sın, -ıyıx, -alıx, -ınqız, -sınlar, -ma, -mağın, -masın, -manqız; -tım, -tınq, -tı, -tıx, -tınqız, -tılar, -madım, -madınq, -madı,

-madıx, -madınqız, -madılar, -tı esə, -tı esə də, -ıp esə, -armen, -arsen, -ar, -arbiz, -arlar, -man, -mas, -masbiz, -maslar, -ar edim, -ar edi, -arlar edi, -ıybiz, -may, -ıy edi, -ıy edilər, -ıyırmen, -ıyırsen, -ıyır, -ıyırbiz, -ıyırsiz, -ıyırlar, -ıyır edim, -ıyır edi, -qaymen, -qaysen, -qay, -qaybiz, -qaylar, -mağaymen, -magaysen, -mağay, -mağaylar, -qay edi, -sanq, -sa, -sax, -salar, -masanq, -masa, -sanqız edi, -sar, -sarlar, -mısarlar, -masarlar, -qan, -max, -maxta, -maxtan, -maxı, -maxına, -maxın, -maxlarında, maxlarından, -mamax, -mamaxı, -mamaxından, -ıp, -mıyın, -mınça) // **bağ** ~ (-arlar) // **baq** ~ (-qaysen) // **max** ~ (-tı) fel. – baxmaq, göz yetirmək, diqqət vermək, nəzarət etmək; məcazi mənada: xanıma baxmaq (qadına nəzakət göstərmək), uşağa baxmaq (uşaq saxlamaq və qulluq etmək): **Köplüxünə körə şağavatınqnınq seninq baxqın manqa** // **Köp şağavatınqa körə bax manqa** (Məz. 68/69: 17). Böyük mərhəmətinlə mənə də nəzər yetir. **Xulax xoyıyırmen da baxıyırmen.** Qulaq qoyuram və baxıram.

